Burada ϕ=0,03-0,05 wt%, d_{max}- dipol momentinin maksimal qiyməti, k- Bolsman sabiti, ε_0-dielektrik sabiti, $V_0=4/3\pi r^3$-sərbəst həcm.

Disk formalı doldurucularda isə [8]

$$\nu_1 \frac{(\varepsilon_1 - \varepsilon)}{(\varepsilon_1 + \varepsilon)} + \nu_2 \frac{(\varepsilon_2 - \varepsilon)}{(\varepsilon_2 + \varepsilon)} = 0 \quad (3)$$

ε_1 və ε_2- kompozitlərin dielektrik nüfuzluqları qiyməti, ν_1 və ν_2- kompzitdə komponentlərin miqdarıdır.

Cədvəl 1. PP/Na^+ - MMT nanokompozit nümunələrinin dielektrik nüfuzluğunun (ε) və dielektrik itgilərin tgδ,(10^{-3}) müxtəlif modellər üzrə təcrübi qiymətləri.

Na^+MMT-in PP-də tərkibi , wt%	Təcrübə		hesablama (1)-ilə	hesablama (2) -ilə	hesablama (3) -ilə	hesablama (4) -ilə
	ε	tgδ	ε_p	ε_p	ε_p	ε_p
0	2,30	0,57	-	-	-	-
3	2,86	2,15	4.30	4.26	2,36	2,46
10	4,10	2,34	3,89	4,25	2,47	2,48
20	3,74	2,63	3,84	3,93	2,65	2,65
30	3,46	3,52	3,45	3,51	2,84	2,94

C-tutumunu və nümunələrin həndəsi ölçülərini bilməklə kompleks dielektrik nüfuzluğu ε- nun qiyməti müstəvi kondensatorun düsturu olan $\varepsilon=Cd/\varepsilon_0 S$-ilə hesablanır. Nanokompozitlərə tətbiq edilən elektrik sahəsinin tezliyi 25Hs-dən 10^6 –Hs-ə qədər, temperaturu isə t=20-50^0 C dəyişmişdir. Əldə olunmuş nəticələr kompleks dielektrik nüfuzluğunun həqiqi hissəsinin (ε) temperaturdan asılılığı şəkil 1-də verilmlşdir.

Əgər doldurucu metallik keçiriciliyə malikdirsə kompozisiyanın dielektrik nüfuzluğu ε_k Lixteneker düsturu ilə [6] hesablanır:

$$\log \varepsilon_к = y_1 \log \varepsilon_1 + y_2 \log \varepsilon_2 \quad (4)$$

Dielektrik nüfuzluğu və dielektrik itgilərinin temperatur asılılıqları şəkil 1-də verilmişdir.

PP+ Na^+-MMT nanokompozitləri üçün ε və tgδ-nın tezlik və temperatur asılılıqları 300K-də alınmışdır. Şəkillərdən göründüyü kimi bu nümunələrdə, tezliyin artması ilə ε-nin qiymətində əhəmiyyətli dəyişiklik müşahidə edilmir. Tezliyin 10kHs-dən sonrakı artımı ilə ε-nin cüzi artımı hiss olunur. Aşağı tezliklədə dielektrik itgisinin bu xarakteri nanokompozitlərin ayri-ayri quruluş elementlərinin mütəhərrikliyinin kinetikası ilə əlaqədar ola bilər. Bu quruluş elementləri tezlik artdıqca relaksasiya proseslərində iştirak edə bilərlər.



Şəkil1.PP+Na^+-MMT-nanokompozitlərinin dielektrik nüfuzluğunun ν=1kHs-dəki temperatur asılılığı.

Qeyd edildiyi kimi, PP+Na^+MMT nanokompozit quruluşunda matrisanın ayrı ayrı yerlərində nanogil hissəciklərinin bir yerə toplanması baş verə bilər. Bu yığılmış hissəciklər–klasterlər PP matrisasında nizamsız paylanırlar. Onların həcmi miqdarı artdıqca klasterlərin sayı da artır. Alınan nümunələrin eni boyunca qapalı şəkildə düzülmüş klasterlərə aktiv müqavimət kimi baxmaq olar. Baxmayaraq ki, PP-yə nəzərən nanogil keciriciliyi cox yüksəkdir, hesab etmək olar ki, nanokompozitin müqaviməti nanogil hissəciklərinin öz aralarında bir-birinə toxunması ilə hesablana bilər. Bu klasterlər ε-nu az olan incə PP təbəqələri ilə əhatə olunmuşdur.

Təcrübələrdə müşahidə olunan elektrik möhkəmliyinin Na^+MMT –in miqdarından asılı olaraq azalması [11]faktı da göstərir ki, klasterlərin sərhədlərində dəyişən elektrik sahəsində sərbəst elektrik yüklərinin toplanması və yenidən paylanması olan Maksvell-Vaqner həcmi polyarlaşması baş verir. Elektrik möhkəmliyinin Na^+MMT –in miqdarından asılı olaraq azalmasını da bununla izah etmək olar. Bu cür yaranan həcmi polyarlaşma xarici elektrik sahəsi təsir etmədikdə nanokompozitin malik olduğu daxili elektrik sahəsini təhrif edir. Məlumdur ki, [5-10] daxili elektrik sahəsi aşağı tezliklərdə keciriciliyə uyğun, yüksək tezliklərdə isə dielektrik nüfuzluğuna görə paylanırlar. Deməli sahənin tezliyinin artması ilə ε-azalması nanogil klasterlərində yüksək daxili sahənin yaranması ilə izah oluna bilər.



Şəkil 2. PP+Na^+ MMT nanokompozitlərinin dielektrik itkisinin (tgδ) ν=1kHs-dəki (T) asılılıqları.

Nanokompozitlərin tgδ-nin tezlikdən asılılıq əyriləri [11] göstərir ki, $\nu=10^5$ Hs qiymətində maksimum müşahidə olunur. $\nu=10^2$ - 10^5 Hs tezlik aralığında nümunələrdə tgδ-nin qiymətinin artması hesabına müsbət dielektrik effekt müşahidə olunur. Tezliyin sonrakı artması ilə nanokompozitin quruluşunda fəza yüklərinin formalaşmasında ləngimələr olduğundan tgδ azalır. Relaksasiya itgisi müxtəlif dərəcədə hərəkətliliyə malik olan nanokompozit materialların quruluş elementləri ilə bir sıra aşağı molekullu birləşmələr, CO polyar qrupların əmələ gəlməsi ilə əlaqəli baş verə bilər.

Ədəbiyyat siyahısı

1. Магеррамов А.М. Структурное и радиационное модифицирование электретных, пьезоелектрических свойств полимерных композитов. Баку, Элм, 2011,с. 81-88.

2. Рустамова Д.Ф., Магеррамов А.М., Багирбеков Х.В., Нуриев М.А. Диэлектрические свойства и особенности радиотермолюминеценции высоконаполненных композиций полипропилен // α-Al_2O_3. Электронная обработка материалов. 2013, 49(2), стр.87-90.

3. Багирбеков Х.В., Чеботаревский А. Э., Магеррамов А.М., Абдуллаева А. И. О структуре межфазных слоев и особенности радиотермолюминеценции композиций полиэтилена с дивинилстирольным блоксополимером ДСТ-50. Проблемы энергетики, 2011,№4. с.44-51.

4. Магомедов Г.М., Хаширова С.Ю., Рамазанов Ф.К., Микитаев А.К. Релаксационные свойства и структура полимерных нанокомпозитов на основе модифицированных органоглин // Высокомолекулярные соединения, сер.А, т.56, 2014, №5, с.542-552.

5. Ализаде Р.А. Диэлектрическая проницаемость нанокомпозитов на основе наночастиц магнетита и полимерной матрицы (коллаген, полистирол) // Phuzical chem. 2010., v. 84,№9, p.1722-1727.

6. Магеррамов А.М., Рустамова Д.Ф. Диэлектрические и электретные свойства нанокомпозитов полиэтилен Fe_3O_4, закристаллизованных в постоянном магнитном поле. // Перспективные материалы ,2016,№3,с.27-34.

7. Magerramov A. M. Safarov N.Y. Electrification and electret properties of polymer mixtures // Turk.J.of Phus.,1996, v.20, №12,pp.250-255.

8. Сажин Б. И., Лобанов А.М., Романовская О.С. и др. Электрические свойства полимеров. Под. Ред. Сажина Б.И. Л.: Химия, 1986. 80-127 с.

9. Тареев Б. М. Физика диэлектрических материалов. М.: Энергоиздат, 1982.165-195 с.

10. Гочжун Цаоин Ван. Наноструктуры и наноматериалы. Синтез, свойсва и применение. Научный Мир, 2012, 515 с.

11.Hadıyeva A.Ə., PP+ D_{k1} nanogil əsaslı kompozitlərin quruluşunun onların möhkəmlik və elektrofiziki xassələrinə təsiri, Dissertasiya işi, Bakı, BDU, 2015, 153 səh.

12.Иванюков Д.В. Фридман М. Л. Полипропилен. М.: Химия, 1974, с.124-165.

13.Мамедова Р.Л., Магеррамов А.М., Исмаилов И.М. Температурный гистерезис диэлектрической проницаемости нанокомпозитов на основе Na^+- монтмриллонит и полипропилена /Intern.scient.and peact.conf.Devodet to 80th anniver of T.M.Panahov, Baku, 2016.

$Cu_{1.80}Cr_xS$ SİSTEMİ MONOKRİSTALLARININ ALINMASI VƏ RENTGENOQRAFİK TƏDQİQİ (X=O.O3, 0.O6, 0.09 at. *%)*

***Qasımov* H.B., Rzayev R.M.**

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

$Cu_{2-x}S$ qeyri- stexiometrik sisteminin birləşmələri: $Cu_{1.96}S$ –yurlit, $Cu_{1.80}S$ -digenit, $Cu_{1.75}S$ –anilit üçün çoxfazalılıq və polimorfizm xarakterikdir [1,2]. Otaq temperaturunda bu birləşmələrin kristalları isə ikifazalıdır. Bu fazalardan biri: $Cu_{1.96}S$ –yurlit fazası, o biri isə $Cu_{1.75}S$ –fazasıdır [3]. Bu fazalar üçün aşagıdakı elementar kristal qəfəs parametrləri müəyyən edilmişdir: a=7.89Å, b=7.84Å ,c=11.01Å, F.qr.Pnma, z=4 ortorombik quruluşda kristallaşan $Cu_{1.75}S$ - anilit üçün; a=26.897Å, b=15.745Å, c=13.565Å, F.qr.P2/n, z=8 $Cu_{31}S_{16}$ monoklin quruluşda kristallaşan $Cu_{1.96}S$ –yurlit üçün [1,2]. $Cu_{2-x}S$ sistemi kristalları 293÷593K temperatur intervalında qeyri stabildirlər və bir neçə faza keçidinə məruz qalırlar [4]. Otaq temperaturunda hər iki fazaya aid olan üzdən mərkəzləşmiş yüksək temperatur kub $(ÜMK)_1$və($ÜMK)_2$ fazaları metastabil formada uzun müddət qalır.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün kimyəvi cəhətdən yüksək təmizliyə malik olan Cu, Cr və S kimyəvi elementləri məlum stexiometrik nisbətdə (x=0.03, 0.06, 0.09 at.%) çəkilərək kvars ampulaya doldurulmuş, 10^{-2} mm.civə süt. həddində vakuum yaradilaraq, birbaşa əridilmə üsulu ilə sintez edilmişdir. Sonra sintez edilmiş nümunələr xırdalanaraq monokristalın alınması üçün xüsusi kvars ampulaya doldurularaq Bridcman üsulu ilə alınmışdır. Alınmış $Cu_{1.80}Cr_xS$ sistemi monokristalları (111) atom müstəviləri üzrə asanlıqla laylara ayrılır və onlardan alınan laueqrammalar onların tam monokrisal olduqlarını göstərir. Alınmış $Cu_{1.80}Cr_xS$ sistemi monokristal nümunələrinin birfazalılıgını müəyyən etmək məqsədi ilə onlar toz halına salınmış və DSC-910, ADVNCE-8Dt ipli rentgendifraktometrinə əsasən rentgenfaza analizi aparılmışdır. Nəticədə müəyyən edilmişdir ki, alınmış monokristal nümunələr $Cu_{1.80}S$-digenit birləşməsi kimi ikifazalıdır. Bu fazalardan biri $Cu_{1.96}S$ – yurlit, o biri isə $Cu_{1.75}S$ - anilit fazasıdır.

Aparılan rentgenfaza analizinin nəticəsi cədvəl 1-də verilmişdir.Cədvəl 1-dən bu nümunələr üçün hesablanmış elementar kristal qəfəs parametrləri cədvəl 2-də verilmişdir.

Cədvəldən göründüyü kimi kristal quruluşda əvəzedən və əvəzolunan metal ionlarının konsentrasiyası (x) artdıqca, $Cu_{1.80}Cr_xS$ sistemi kristallarının elementar kristal qəfəs parametrləri də uyğun olaraq müəyyən qədər arartır. Bu isə kristal quruluşda izovalent əvəzedən Cr^{2+}- 0.83Å və əvəzolunan C_u^{2+}– 0.80Å metal ionlarının radiuslarının fərqli olması ilə əlaqləndirilir. İzovalent əvəzolunma zamanı əvəzedən və əvəzolunan metal ionlarının radiuslarının fərqi 3.75 % təşkil edir və elementar kristal qəfəsin elektroneytrallığı pozulmur. Göründüyü kimi, bu fərq izovalent izomorfizmin yaranma şərti (Qoldşmid şərti) daxilindədir (15%).

$Cu_{1.80}Cr_xS$ sistemi kristallarının poroşkoqramlarının hesabatı.

CuK_α-şüalanma, λ=1.5418Å, 40kv, 40mA, T=293K

Cədvəl 1

№	$Cu_{1.80}S$	0.03	0.06	0.09	$Cu_{1.75}S$ – faza		$Cu_{1.96}S$ - faza		$(ÜMK)_1$-faza		$(ÜMK)_2$-faza	
	$d_{təc}$.Å	$d_{təc}$.Å	$d_{təc}$.Å	$d_{təc}$.Å	$d_{nəz}$..Å	hkl	$d_{nəz}$.Å	hkl	$d_{nəz}$.Å	hkl	$d_{nəz}$.Å	hkl
1	3.3470	3.3510	3.3550	3.3593	3.3447	121	-	-	-	-	-	-
2	3.2204	3.2242	3.2280	3.2319	-	-	-	-	-	-	3.2242	111
3	3.2058	3.2090	3.2128	3.2166	3.1932	202	3.1938	333	3.2070	111	-	-
4	2.7712	2.7743	2.7771	2.7799	2.7679	004	2.7855	234	-	-	-	-
5	2.6931	2.6957	2.6984	2.7010	2.6870	203	2.6997	10.0.0	-	-	-	-
6	2.1398	2.1430	2.1463	2.1495	2.1372	231	2.1349	072	-	-	-	-
7	1.9703	1.9730	1.9757	1.9784	1.9606	400	1.9681	080	-	-	-	-
8	1.7586	1.7606	1.7628	1.7649	1.7568	332	1.7540	437	-	-	-	-
9	1.6990	1.7098	1.7117	1.7137	1.6960	413	1.6956	292	-	-	-	-
10	1.6130	1.6148	1.6165	1.6182	-	-	1.6145	675	-	-	1.6121	222
11	1.6010	1.6027	1.6044	1.6061	1.5966	404	1.5991	666	1.6035	222	-	-
12	1.3901	1.3924	1.3937	1.3955	1.3903	440	1.4005	0.11.2	-	-	-	-
13	1.1371	1.1385	1.1400	1.1414	1.1357	624	1.1350	5.7.10	1.1306	422	-	-
14	1.1210	1.1227	1.1244	1.1261	1.1200	070	1.1206	9.11.6	-	-	-	-
15	1.0708	1.0717	1.0799	1.0808	1.0733	545	1.0739	9.11.7	-	-	1.0740	333
16	1.0667	1.0681	1.0695	1.0710	1.0666	606	1.0661	999	1.0660	333	-	-

$Cu_{1.80}Cr_xS$ sistemi kristallarının üzdən mərkəzləşmiş kub fazalarının kristal qəfəs parametrləri. CuK_α-şüalanma, λ=1.5418Å, 40kv, 40mA, T=293K

Cədvəl 2

a,b,c, Å	$Cu_{1.80}Cr_xS$								T,K
	$Cu_{1.75}S$-anilit				$Cu_{1.96}S$-yurlit				
	x=0.00	x=0.03	x=0.06	x=0.09	x=0.00	x=0.03	x=0.06	x=0.09	
a	7.8812	7.892	7.9028	7.9136	26.931	26.957	26.984	27.010	293
b	7.847	7.8589	7.8708	7.8827	15.7624	15.784	15.8056	15.8272	
c	11.0848	11.0972	11.1084	11.1196	13.592	13.6784	13.6936	13.7096	
a,Å	$(ÜMK)_1$-faza				$(ÜMK)_2$-faza				
a	5.5460	5.5519	5.5578	5.5637	5.5876	5.5938	5.5997	5.6056	
(ÜMK)-faza									500
a,Å	5.6330								

Cədvəl 1-dən göründüyü kimi, x-in artması ilə $Cu_{1.80}Cr_xS$ sistemi kristallarının difraksiya xətlərinin sayı, eləcə də elementar kristal qəfəsdəki molekulların sayı dəyişmir. Lakin bu zaman müəyyən difraksiya xətlərinin (xüsusi ilə quruluşca həssas olan) intensivliyində ya azalma, yaxud da artma müşahidə olunur. Bu onu göstərir ki, alınmış $Cu_{1.80}Cr_xS$ sistemi kristalları bərk məhluldur və $Cu_{1.80}S$-digenit birləşməsi əsasında yaranır. Otaq temperaturunda $Cu_{1.75}S$ - anilit və $Cu_{1.96}S$ – yurlit fazalarının kristal qəfəs parametrlərinin x-dən asılılığı şəkil 1 və 2-də, kub $(ÜMK)_1$ və $(ÜMK)_2$ fazalarının kristal qəfəs parametrlərinin x-dən asılılığı isə şəkil 3-də verilmişdir.

Göründüyü kimi, hər iki halda kristal qəfəs parametrlərinin x-dən asılılığı xətti xarakterə malikdir. Güman etmək olar ki, əvəzedən izovalent C^{2+} metal ionlarının anilit və yurlit fazaları arasında statistik paylanmasında qanunauyğunluq olduğundan, C^{2+} metal ionları fazalar arasında fazalara uyğun mütənasibliklə paylanır. $Cu_{1.80}Cr_xS$ sistemi kristallari, yəni $Cu_{1.75}S$ - anilit və $Cu_{1.96}S$ – yurlit fazaları, otaq temperaturunda metastabil formada mövcud olan $(ÜMK)_1$ və $(ÜMK)_2$ fazaları ilə birlikdə, bu fazalar üçün ümumi və yekun olan üzdənmərkəzləşmiş kub(ÜMK) fazasına keçdiyindən [2], bu fazanın kristal qəfəs parametri daha çox artır (cədvəl 2). $Cu_{1.80}Cr_xS$ sistemi kristalları 293÷593K temperatur intevalında, $Cu_{1.80}S$ –digenit birləşməsində olduğu kimi, iki faza keçidinə məruz qalır. Bu faza keçidləri qarşılıqlı olmaqla monokristal-monokristal tip xarakteridir. x-in qiymətinin artması ilə faza keçid temperaturu artır.



Şəkil 3. $(ÜMK)_1$ və $(ÜMK)_2$ kub fazalarının kristal qəfəs parametrlərinin x-dən asılılığı

Aparılan rentgenoqrafik tədqiqat nəticəsində aşağıdakı nəticələr alınmışdır:

- Bridcman metodu ilə alınmış $Cu_{1.80}Cr_xS$ sistemi (x=0.03, 0.06, 0.09 at.%) monokristalları otaq temperaturunda iki fazalıdır. Bu fazalardan biri ortorombik quruluşda kristallaşan $Cu_{1.75}S$-anilit fazası, o biri isə monoklin quruluşda kristallaşan $Cu_{1.96}S$–yurlit fazasıdır.
- x-in qiymətinin artması ilə anilit və yurlit fazalarının və onların kub $(ÜMK)_1$ və $(ÜMK)_2$ fazalarının kristal qəfəs parametrləri xətti artır.
- $Cu_{1.80}Cr_xS$ sistemi (x=0.03, 0.06, 0.09 at.%) monokristallarında 293÷593K temperatur intervalında iki faza keçidi baş verir (T_1=313K və T_2=493K). x-in qiymətinin artması ilə faza keçidləri temperaturu artır.
- alınmış $Cu_{1.80}Cr_xS$ sistemi monokristalları bərk məhluldur və $Cu_{1.80}S$ –digenit birləşməsi əsasinda yaranır.

Ədəbiyyat siyahısı

1. Koto and N. Morimoto. The crustal structure of anilite. Acta Crust. 1970, B26, p.915-924.
2. Evans jr.H.T.The crustal structures of low chalcosite and djurlite. Zeitschrift fur kristallogr.,1970,150, p. 299-320.
3. M.A. Gezalov,G.B. Gasumov,Yu.G .Asadov,G.G. Guseinov and N.V. Belov. Structure transitions in digenite $Cu_{2-x}S(Cu_9S_5)$. Kristallogr.,1979, 24, ст.1223-1229.
4. H.B.Qasımov, N.E.Həsənov, R.M.Rzayev. $Cu_{2-x}S$ sistemi birləşmələrinin yüksək temperatur kub fazalarınının parametrlərinin x-dən asılılığının rentgenoqrafik tədqiqi (x=0.04; 0.010; 0.20; 0.25 at%). Bakı Universitetinin xəbərləri. 2017, №2, s.133-141

PULCUQ ƏLAVƏLİ BİOKOMPOZİTLƏRİN ALINMA TEXNOLOGİYASI VƏ BƏZİ XASSƏLƏRİNİN TƏDQİQİ

[1]Qocayev E. M., [2]Səlimova V.V., [3]Ağaliyeva M. R.

[1]Azərbaycan Texniki Universitet.[2,3] Sumqayıt Dövlət Universiteti

Elm və texnikanın sürətlə inkişaf etməsi mövcud materiallara olan tələbatları tam ödəyə bilmir. Bu səbəbdən də dövrümüzün aktual problemlərindən biri də yeni materialların axtarışı, tədqiqi və tətbiqolunma sahələrinin araşdırılması hesab edilir.

Bu boşluqları doldurmaq üçün son dövrlər polimerlərdən və onların əsasında kompozitlərdən geniş istifadə olunur. Bu materialar yaxşı dielektrik xassələrinə malik olmaları ilə yanaşı, kifayət qədər yüksək fiziki mexaniki və kimyəvi xassələrə də malikdirlər. Onlardan hər hansı məmulatın hazırlanması asan olur, xüsusi çəkiləri kiçikdir, qiymətləri cox ucuzdur. Bu xassələr toplusu bir sıra polimerlərdən müasir texnikanın müxtəlif sahələrində dielektrik kimi istifadə edilməsinə imkan verir. Lakin təmiz halda polimer materiallar tələbatları tam ödəyə bilmir. Polimerlərin istiliyə, radiasiya şüalanmalarına, rütubətliliyə davamlılığını artırmaq və fiziki mexaniki xarakteristikalarını yaxşılaşdırmaq üçün onları mövcud olan üsullarla modifikasiya edirlər. Modifikasiya etmənin ən effektiv üsulu polimer materiallarının müxtəlif maddələrlə doldurulması ilə yeni tərkibli kompozisiya materiallarının alınmasıdır.

Kompozit dedikdə iki və daha çox müxtəlif fazaların bu və ya digər texnoloji üsullarla bir – birinə qarışdırılması ilə alınan, xassələri nə matrisanın, nə də əlavənin xassəsinə bənzəməyən material nəzərdə tutulur.

Kompozit materiallarının alınmasında çalışılmalıdır ki, müəyyən əlavələr etməklə xüsusi dayanıqlı parametrlərə malik, kənar təsirlərə, o cümlədən, müxtəlif mənşəli şüalanmalara qarşı daha dözümlü və daha ucuz başa gələn kompozit materialları alınsın.

Kompozitlərin alınmasında çalışılır ki, doldurucunun matrisada paylanması kompozitin xassələrini idarə etməyə imkan versin, tələb olunan parametrləri yaxşılaşdırmağa xidmət etsin, təbii ehtiyatları çox olsun və qiymətləri ucuz olsun. Ancaq bu şərtlərin hamısının eyni zamanda ödəyən doldurucu seçmək, asan məsələ deyil.

Kompozitlər doldurucularının növünə görə metal, qeyri metal yarımkeçirici, üzvi birləşməli və bioloji mənşəli olmaqla bir neçə növə ayrılır.

Hazırda kompozit materiallarından məişət əşyalarının hazırlanmasından tutmuş müasir kosmik aparatların detallarının hazırlanmasına qədər geniş miqyasda istifadə olunur.

Son zamanlar biokompozitlərin alınaraq tədqiq olunmasına da xüsusi diqqət yetirilir. Qeyd edək ki, biokompozitlər bioloji mənşəli əlavələr edilməklə formalaşmış kompozit materiallardır. Bu tip materialları əksər hallarda canlı prosesdə iştirak edən canlı strukturlar kimi təsvir edirlər

Digər materiallardan fərqli oalraq biokompozitlər bir çox üstün cəhətlərə malikdirlər: bu materiallardan istifadə sağlamlığa müsbət təsir edir, təhlükəsizdir, çəkisi azdır, cəzbedici kənar görünüşə malikdir, aşağı sıxlığa, yəni qırılmaya və ya dağılmaya dözümlüdür və s. Ən əsas üstünlükləri isə ətraf mühitin çirklənməsinə az təsir edən materiallar olmalarıdır.

Biokompozitləri ağac, qeyri ağac və mineral mənşəli liflərə bölürlər. Qeyri ağac (təbii liflər) fiziki və mexaniki xassələrinə görə sənaye üçün daha cəzbedicidir. Bundan əlavə, onlar nisbətən uzun liflərdir, tərkiblərində seluloidin miqdarı çoxdur ki, bu da onların möhkəmliyini və dartılmaya davamlılığını artırır. Bununla yanaşı, təbii liflər bəzii çatışmamazlıqlara malikdirlər onların tərkiblərində OH hidroksil qrupu vardır ki, bu da su molekullarını özünə cəlb edə və lifin yox olmasına gətirə bilər. Bu, kompozitin sərhəddində boşluqlar yaradır, o da öz növbəsində, mexaniki xassələrə və ölçülərinin stabilliliyinə təsir edir. Ağac lifləri ona görə belə adlandırılır ki, onların tərkiblərinin təxminən 60% - i ağac elementlərindən təşkil olunur. Ağac mənşəli doldurucular misal olaraq ağac liflərini, bitki mənşəli liflərimisələn təbii rezini misal göstərmək olar. mineral mənşəli biokompozitlər azbest və digər minerallar əsasında alınan biokompozitlərdir.

Qeyri ağac mənşəli biokompozitlərə misal olaraq isə canlı orqanızmlərdən alınan dolduruculu biokompozitləri misal göstərə bilərik. Heyvan mənşəli doldurucular misal olaraq tük yun, ipək, bizim tədqiqatlarımızda isə pulcuğu göstərə bilərik.

Təqdim olunan işdə aşağı sıxlıqlı polietilenə pulcuğu əlavələr etməklə yeni tip kompozitlərin alınması, səthlərinin mikrostrukturlarının Atom qüvvə mikroskopu üsulu ilə tədqiqi rentgenofaza analizləri və bir sira xassələrinin tədqiqi barədə məlumatlar verilir. Nümunələr aşağıdakı texnologiya ilə alınmışdır.

Əvvəlcə tədqiqatda doldurucu kimi istifadə olunması nəzərdə tutulan pulcuq müəyyən texnologiya ilə işlənilir. Onun səthi diqqətlə təmizlənir, qızdırıcı daxilinə yerləşdirilərək temperaturu tədricən 50^0C – yə qədər qaldırılır, həmin temperaturda 10 dəqiqə saxlandıqdan sonra soyudulur və qurudulmuş pulcuq xüsusi üyüdücü dəyirmanda toz halına salınır. Sonrakı mərhələdə üyüdülmüş pulcuq tozlarının ölçüləri, deşikləri 100mkm olan xüsusi ələk vasitəsilə təyin edilir. Kompozitlərin alınması üçün pulcuq tozundan hazırlanmış doldurucu və M-158 markalı aşağı sıxlıqlı polietilen matrisası stexiometriyaya uyğun olaraq tərəzidə çəkilir. Hazırlanmış polimer əlavə qarışığı, titrəmə üsulu ilə diqqətlə qarışdırıldıqdan sonra, alüminium folqa arasına yerləşdirilir, nümunələrin alınması üçün 10MPa təzyiqdə və 130^0C temperaturda pres altında sıxılır. Qarışıq həmin temperaturda və təzyiq altında 3 dəqiqə saxlanıldıqdan sonra təzyiq 15MPa qədər artırılır və qarışıq bu rejimdə əlavə daha 5 dəqiqə saxlanılır. Bu prosesdən sonra nümunələr ərimədə olan buzlu suda soyudulur və aluminium folqa arasından çıxarılır. Alınmış nümunələrin diametri 5 sm, qalınlığı 200mkm olmuşdur.

Alınmış ASPE+x.həcm%Bp kompozitlərin (x=3, 5, 7) səthlərinin mikrorelyefləri atom qüvvə mikroskopu (AQM) üsulu ilə alınmış nəticələri şəkil 1 - də verilmişdir.



Şəkil 1. Atom qüvvə mikroskopu (AQM) üsulu ilə ASPE+x.həcm%Bp kompozitlərinin 2D və 3D ölçüdə səthlərinin mikrorelyefləri x=3(a), x=5 (b), x=7(c).

Şəkil 2 - də balıq pulcuğunun müxtəlif temperaturlarda və onun əlavəsi ilə alınmış ASPE+10həcm%Bp kompozitinin otaq temperaturunda rentgenoqrammaları verilmişdir.



Şəkil 2. Balıq pulcuğunun müxtəlif temperaturlarda (a) və onun əlavəsi ilə alınmış ASPE+10həcm%Bp kompozitinin (b) otaq temperaturunda rentgenoqrammaları

Aşağı sıxlıqlı polietilenə balıq pulcuğu tozundan müxtəlif konsentrasiyalarda əlavələr etməklə alınmış nümunələrin qalınlığı 100 mkm olmuş, kontakt olaraq gümüş pastasından istifadə edilmişdir. Dielektrik nüfuzluğunun və dielektrik itgi bucağının tezlik asılılıqlarının tədqiqi E7 – 20 impedans ölçən rəqəmsal cihazdan istifadə edilmişdir. Nümunəyə verilən gərginlik 1V olmuşdur. Dielektrik nüfuzluğunun və dielektrik itkisinin ölçülməsində yol verilən xətalar müvafi olaraq 3 və 5 % olmuşdur.

Aşağı sıxlıqlı polietilenə müəyyən nisbətdə balıq pulcuğu əlavə etməklə alınan (ASPE+xhəcm%Bp) kompozitlərinin dielektrik nüfuzluqlarının və dielektrik itki bucaqlarının tangenslərinin tədqiqləri əlavələrin miqdarının 3, 5, 7, 10 və 15 həcm% olduğu nümunələrdə 0-1MHs tezlik diapazonunda aparılmışdır. Tədqiqatın nəticələri şəkil 1 - də verilmişdir. Şəkil 1-dən göründüyü kimi təmiz polietilenin dielektrik nüfuzluğu 0 - 10^6 Hs tezlik diapazonunda praktiki olaraq sabit qalır, 500-1000kHs diapazonunda 13,6 –dan 14,3-ə qədər artır. Qeyd etmək lazımdır ki, kifayət qədər geniş tezlik diapazonunda tədqiq olunan kompozitlərin ε(ν) asılılıqlarında heç bir dispersiya müşahidə edilmir və dielektrik nüfuzluğu praktiki olaraq dəyişməz qalır. Təmiz polietilendə olduğu kimi tezliyin böyük qiymətlərində xarakterik olaraq dielektrik nüfuzluqları tezlik artdıqca artır. Yalnız tərkibində 15 həcm % Bp olan nümunənin dielektrik nüfuzluğunun göstərilən tezlik diapazonunda səlis olaraq artması müşahidə edilmişdir. Tərkibdə doldurucunun miqdarının artması ilə tədqiq olunan bütün tezlik diapazonunda dielektrik nüfuzluğunun artması aşkar edilmişdir. Belə ki, tezliyin 25Hs qiymətində 3, 5, 7, 10 və 15 həcm% Bp əlavəli kompozitlərin dielektrik nüfuzluqları müvafiq olaraq 12,8, 11,7, 10,23, 9,1, 6,33 olduğu halda, 500kHs tezlikdə 12,1, 10,86, 10,44, 9,49, 8,12, 1000 kHs tezlikdə isə 12,897, 11,617, 11,157, 10,151, 8,68 olur.

Aşağı sıxlıqlı polietilenə müəyyən nisbətdə balıq pulcuğu əlavə etməklə alınan (ASPE+xhəcm%Bp) kompozitlərinin əlavələrin miqdarının 3, 7, 10 həcm% olduğu nümunələrdə 300-325K temperatur diapazonunda dielektrik nüfuzluqlarının temperatur asılılıqlarının tədqiqləri də aparılmışdır. Temperaturdan asılı olaraq dielektrik nüfuzluğunun tərkibdən asılı olaraq artımı müşahidə edilmişdir (şəkil 3a).

Qeyd olunan nümunələrdə dielektrik itki bucağının tangensinin (tg(δ)) tezlik asılılıqları da tədqiq edilmişdir. Alınmış nəticələr şəkil də verilmişdir. Şəkildən göründüyü kimi həm təmiz polietilenin həm də onun əsasında alınmış kompozitlərin dielektrik nüfuzluqlarının tezlik xarakteristikalarında müəyyən qanunauyunluq mövcuddur: tezliyin 0-1kHs diapazonunda xarakterik olaraq bütün nümunələrin tg(δ) – ları kəskin olaraq azalır. Bu azalma təmiz polietilendə 0,035 - dən 0,017 - ə qədər, tərkibində 3, 5, 7, 10, 15həcm% Bp olan nümunələrdə isə həmin azalmalar müvafiq olaraq 0,384- 0,121, 0,234 - 0,088 , 0,152- 0,072 , 0,058- 0,049, 0,032- 0,021 olur. tezliyin 1- 100kHs diapazonunda dəyişməsi halında dielektrik itkisi praktiki olaraq müşahidə edilmir, 100 – 1000kHs tezlik diapazonunda isə tg(δ) – nın zəif azalması müşahidə edilir. Kompozitlərin tərkibində pulcuq əlavəsinin miqdarı artdıqca dielektrik itki bucağının azalmas müşahidə edilmişdir.

Aşağı sıxlıqlı polietilenə müəyyən nisbətdə balıq pulcuğu əlavə etməklə alınan (ASPE+xhəcm%Bp) kompozitlərinin əlavələrin miqdarının 3, 7, 10 həcm% olduğu nümunələrdə 300-325K temperatur diapazonunda dielektrik itki bucağının tangensinin temperatur asılılıqlarının tədqiqləri də aparılmışdır. Temperaturdan asılı olaraq dielektrik itki bucağının tangensinin analoji olaraq azalması müşahidə edilmişdir (şəkil 3b).

Beləliklə, tədqiq olunan kompozitlərin tərkibində doldurucunun miqdarı artdıqca həm dielektrik nüfuzluğunun, həm də dielektrik itki bucağının tangensinin qiymətcə azalması müşahidə edilir. Çox ehtimal ki, tərkibdə doldurucunun miqdarının artması kompozitin en kəsiyinə düşən balıq pulcuğu hissəciklərinin artmasına səbəb olduğundan bu, nümunənin bütün qalınlığı boyunca balıq pulcuğu hissəciklərinin payının artmasına ekvivalentdir. Nümunənin qalınlığı boyunca bir – biri ilə qapanmış klasterlərə elektrodlar arasındakı aktiv müqavimət kimi baxmaq olar. Balıq



a)



b)

pulcuğu 10^{-10} Om^{-1}, ASPE isə $10^{-15}Om^{-1}$ elektrik keçiriciliyinə malik olduğundan kompozitin müqaviməti əsasən balıq pulcuğu hissəcikləri arasındakı kontaktlardan asılı olacaq. Dəyişən elektrik sahəsində sərbəst elektrik yüklərinin toplanılması və yenidən paylanması baş verdiyindən bu halda daxili elektrik sahəsi təhrif olunmuş olur. Aşağı tezliklərdə daxili elektrik sahəsi keçiriciliyə uyğun olaraq paylanır və bununla əlaqədar olaraq tezliyin artması ilə dielektrik parametrlərinin dəyişməsini balıq pulcuğundən olan klasterlərdə nisbətən güclü daxili sahənin meydana çıxması ilə izah etmək olar.

Ədəbiyyat siyahısı

1. Нагорнов Ю.С., Ясников И.С., Тюрьков М.Н. Способы исследования поверхности методами атомно-силовой и электронной микроскопии учебное пособие Тольятти, 2012, 58с.
2. Godzhaev E.M., Bairamov R.A., Abbasov R.A.. Temperature and Frequency Characteristics of Composites with Semiconductor Fillers. Surface Engineering and Applied Electrochemistry, 2015, Vol. 51, No. 6, pp.552–556.

$(TlGaS_2)_x$-$(TlGaSe_2)_{1-x}$ $(0 \le x \le 1)$ BƏRK MƏHLULLARIN ALINMASI VƏ RENTGENQURULUŞ ANALİZİ

Qurbanov M. M., Məmmədov S. C., Məmmədov F.Ə., Rzayeva A. S.
Sumqayıt Dövlət Universiteti

Son zamanlar $TlGaS_2$, $TlGaSe_2$ birləşmələrinin və onların əsasında alınan bərk məhlulların tədqiqinə maraq artmışdır. Bunun səbəbi onunla əlaqələndirilir ki, bu materiallar müxtəlif enerji çeviricilərində və opto-elektronika sahəsində tətbiq olunurlar.

Bu tip birləşmələr əsasında alınan bərk məhlullarda kristal daxili vakansiyaların konsentrasiyasını lazımi istiqamətdə tənzimləmək imkanı yaranır. Məlum olduğu kimi vakansiyalara uyğun qadağan zonasında lokallaşmış enerji səviyyələri yaranır. Odur ki, vakansiyaların sayının dəyişdirilməsi kristal qəfəsinin statik deformasiyasına səbəb odur ki, bu da öz növbəsində elektron-fonon spektrində həyəcanlanmaya gətirib çıxarır.

$TlGaS_2$ birləşməsində kükürd atomlarının tədriclə selen atomları ilə əvəz olunması nəticəsində qəfəs parametrləri nisbətən böyüyür və molekullar arası məsafə kiçilir. Nəticədə elektron-fonon spektrində hiss oluna biləcək dəyişiklik baş verir. Belə dəyişiklik bir sıra fiziki parametrlərin qiymətlərində də dəyişikliyə gətirib çıxarır. Bu cür dəyişikliyin yaranması həm nəzəri, həm də praktik baxımdan böyük maraq doğurur.

Bu işdə $(TlGaS_2)_x$-$(TlGaSe_2)_{1-x}$ $(0 \le x \le 1)$ bərk məhlullarının alınması və rentgenquruluş analizinə dair eksperimental materiallar verilmişdir.

Bərk məhlullar əvvəlcədən sintez olunmuş $TlGaS_2$ və $TlGaSe_2$ birləşmələrindən müəyyən çəki nisbətində götürməklə alınmışdır. Bu halda x=0; 0,4; 0,6; 0,8; 1 qiymətlərinə uyğun tərkibli bərk məhlullar alınmışdır. Sintez zamanı sobanın temperaturu birləşmələrin ayrı-ayrılıqda ərimə temperaturlarından təxminən 50 dərəcə yüksək olan temperatura qədər tədricən qaldırılmış və sonra 20 dər/saat sürətlə soyutma apaılmışdır. Tablandırma məqsədilə bütün tərkiblər təxminən 550 K temperaturda 100 saata qədər saxlanmışdır. Ədəbiyyatda göstərilmişdir ki, $TlGaSe_2$ birləşməsinin alınma texnologiyasından asılı olaraq bir neçə faza keçidi alına bilir. Bu faza keçidləri 103 K, 110 K, 119 K və 246 K temperaturlarında müşahidə edimişdir. 119 K-dən yüksək temperaturlarda baş verən faza keçidləri "dayanıqsız" faza keçidləri adlandırılır. Nisbətən aşağı temperaturlarda baş verən faza keçidinin isə II-növ faza keçidi olduğunu deyirlər (seqnetoelektrik-adi dielektrik keçidi). Həmin temperatur oblastında histerezis ilgəyi də alınır. Odur ki, bu birləşmədən yaddaş elementlərinin düzəldilməsində də istifadə etməyin mümkünlüyü haqda təkliflər verilmişdir. Ədəbiyyatda həmçinin qeyd edilmişdir ki, çoxlu sayda təkrar tablanmadan sonra bu faza keçidlərinin bir çoxu aradan çıxır [1, 2].

Rentgenoqrammalar müasir rentgen qurğularında alınmış və burada CuK_α şüalanmadan istifadə edilmişdir. Bərk məhlullardan çəkilmiş rentgenoqrammalar əsasında kristallik quruluşun növü müəyyən edilmiş və qəfəs parametrləri hesablanmışdır [3, 4].

Müəyyən edilmişdir ki, bütün tərkiblər monoklin quruluşda kristallaşır və qəfəs parametrləri aşağıdakı kimidir:

$TlGaSe_2$ tərkibi üçün a=10,76 $\overset{0}{A}$; b=10,77 $\overset{0}{A}$; c=15,62 $\overset{0}{A}$; β=100,06^0 fəza qrupu isə C_s-Cc olmuşdur.

$(TlGaS_2)_{0,4}$-$(TlGaSe_2)_{1,6}$ tərkibi üçün a=10,74 $\overset{0}{A}$; b=10,74 $\overset{0}{A}$; c=15,61 $\overset{0}{A}$; β=100,05^0.

$(TlGaS_2)_{0,6}$-$(TlGaSe_2)_{1,4}$ tərkibi üçün a=10,71 $\overset{0}{A}$; b=10,72 $\overset{0}{A}$; c=15,54 $\overset{0}{A}$; β=100,03^0.

$(TlGaS_2)_{0,8}$-$(TlGaSe_2)_{1,2}$ tərkibi üçün a=10,45 $\overset{0}{A}$; b=10,48 $\overset{0}{A}$; c=15,38 $\overset{0}{A}$; β=100,02^0.

$TlGaS_2$ üçün a=10,31 $\overset{0}{A}$; b=10,31 $\overset{0}{A}$; c=15,16 $\overset{0}{A}$; β=99,7^0; z=16.

Ayrı-ayrı bərk məhlulların difraktoqrammaların analizindən çıxan nəticələrə əsasən alınmış ştrixdiaqramma şəkil 1-də göstərilmişdir. Bu şəkildə həmçinin $TlGaS_2$ və $TlGaSe_2$ birləşmələrin özlərinə aid ştrix diaqrammalar da verilmişdir.

Qeyd etmək lazımdır ki, $TlGaS_2$ və $TlGaSe_2$ birləşmələri eyni tip kristallik quruluşa malik olduqlarından, onların əsasında alınan bərk məhlullar kəsilməz şəkildə olur və ştrixdiaqrammada bərk məhlul oblastında əlavə xətlər alınmır. Bununla bərabər intensivliklərdə dəyişiklik baş verir. x=0 və x=1 olduqda ştrixdiaqrammada əlavə xətlərin alındığı müşahidə edilir.



Şəkil 1. $(TlGaS_2)_x$-$(TlGaSe_2)_{1-x}$ bərk məhlulunun ştrixdiaqramması
1-x=0; 2-x=0,4; 3-x=0,6; 4-x=0,8; 5-x=1.

Tərkibdə $TlGaS_2$-nin miqdarı artdıqca ştrixdiaqrammada müəyyən xətlərə uyğun intensivliyin artması müşahidə edilir. Bu qəfəs parametrlərində dəyişiklik qəfəsin həcminin dəyişməsi ilə əlaqələndirilir. Ayrı-ayrı tərkiblər üçün təyin olunmuş qəfəs parametrlərindən istifadə edərək $V = a \cdot b \cdot c \cdot sin\beta$-düsturu əsasında hesablanmış kristal qəfəsinin həcmləri aşağıdakı kimi olmuşdur:

$TlGaSe_2$-üçün 1782, 975 $\overset{0}{A}^3$, $(TlGaS_2)_{0,4}$-$(TlGaSe_2)_{1,6}$-üçün 1773,567 $\overset{0}{A}^3$, $(TlGaS_2)_{0,6}$-$(TlGaSe_2)_{1,4}$-üçün 1757,404 $\overset{0}{A}^3$, $(TlGaS_2)_{0,8}$-$(TlGaSe_2)_{1,2}$-üçün 1659,0,91 $\overset{0}{A}^3$ və $TlGaS_2$-üçün isə 1588,889 $\overset{0}{A}^3$.

Beləliklə tərkibdə $TlGaS_2$-nin çəki nisbəti artdıqca qanunauyğun şəkildə qəfəsin həcmi kiçilir. Eyni zamanda ştrix diaqrammada əlavə xətlərin yaranmasını isə $TlGaSe_2$-birləşməsində baş verən faza keçidi ilə əlaqələndirmək olar.

Ədəbiyyat siyahısı

1. Абдуллаева С.Г., Абдинбеков С.С., Гусейнов Г.Г. О кристаллической структуре соединений $TlM^{III}X_2^{VI}$ (M^{III}-İn, Ga; X^{VI}-S, Se) II Докл. АН Аз ССР, 1980, Том 36, №8, с. 34-38.
2. Гололобов Ю.П., Перга В.М., Саливанов И.Н., Шиголь Е.Е. Акустическая эмиссия и эффекты памяти в кристаллах $TlGaSe_2$. ФТТ, №1, Том 34, 1992, с. 115.
3. Курбанов М.М. Тепловое расширение и изотермическая сжимаемость $TlGaSe_2$. Неорганические материалы, 2001, Том 37, №12, с. 1447-1448.
4. Курбанов М.М. Тепловое расширение и изотермическая сжимаемость $TlGaSe_2$. Неорганические материалы, 2003, Том 39, с. 1069-1071.

$(TlGaS_2)_x$-$(TlGaSe_2)_{1-x}$ (x=0,1; 0,2) BƏRK MƏHLULUNUN İSTİDƏN GENİŞLƏNMƏSİ VƏ ATOMLARARASI ORTAKVADRATİK DİNAMİK YERDƏYİŞMƏ

Qurbanov M.M.,[2]Qocayev M. M.,Dəmirov A.H.
Sumqayıt Dövlət Universiteti

Laylı və zəncirvari quruluşda kristallaşan $A^{III}B^{III}C_2^{VI}$ (A-Tl; B-İn, Ga; C-S, Se, Te) birləşmələr və onların əsasında alınan bərk məhlullar maraqlı tədqiqat obyekti sayılırlar. Belə ki, $TlGaSe_2$ və $Tl\dot{I}nS_2$ birləşmələri ayrı-ayrılıqda optoelektronika və müasir texnikanın digər sahələrində tətbiq olunurlar. Bu birləşmələrin xarakterik xüsusiyyətlərindən biri, onlarda stexiumetrik vakansiyaların konsentrasiyasının yüksək olması ($\sim 10^{20} sm^{-3}$) və qadağan zonasında lokallaşmış enerji səviyyələrinin mövcüdluğudur. Bərk məhlul alınan zaman bu vakansiyaların konsentrasiyası, atomlararası kimyəvi rabitə və eləcə də qəfəs parametrlərində dəyişiklik baş verir. Bu cür dəyişikliklər kristal qəfəsinin statik deformasiyasına və elektron-fonon spektrinin həyəcanlanmasına gətirib çıxarır. Nəticədə bərk məhlullarda ilkin birləşmələrə xas olmayan yeni xassələrin yaranmasına səbəb olur və həmin bərk məhlulların praktik tətbiqi baxımından geniş imkanlar açılır.

Bu işdə $(TlGaSe_2)_{0,9}(Tl\dot{I}nS_2)_{0,1}$ və $(TlGaSe_2)_{0,8}(Tl\dot{I}nS_2)_{0,2}$ tərkibli bərk məhlulların istidən genişlənmə əmsalının eksperimental qiymətləri əsasında Debay xarakteristik temperaturu (θ_D) və atomlararası ortakvadratik dinamik yerdəyişmənin ($\sqrt{\overline{u^2}}$) hesablanmış qiymətləri verilmişdir. Bu parametrlərin temperatur asılılıqları əsasında atomlararası kimyəvi rabitənin dəyişməsi araşdırılmışdır.

Tədqiq edilən tərkiblər ədəbiyyatdan mövcüd olan metodika əsasında sintez olunmuşdur [1]. Sintez zamanı hər iki tərkibə daxil olan komponentlər stexiometrik çəki nisbətində havası sorulmuş ampulalar

doldurараq sobalarda yerləşdirilmiş və tədricən bərk məhlula daxil olan birləşmələrin ərimə temperaturlartından 50 dərəcə yüksək temperatura qədər qaldırılmışdır. Bu temperaturda bir sutka saxlandıqdan sonra 20 dər/saat sürətlə soyutma aparılmışdır.

Hər iki tərkibli 600 K-də 10 saat müddətində tablama aparılmışdır. Belə ki, tablama zamanı $TlGaSe_2$ birləşməsində alınan bir sıra "dayanıqsız" faza keçidləri aradan çıxır.

Beləliklə sintez olunmuş hər iki bərk məhlulun rentgenquruluş analizi aparılmış və qəfəs parametrləri təyin edilmişdir. Müəyyən edilmişdir ki, hər iki tərkib monoklin quruluşda kristallaşır və qəfəs parametrləri belədir:

$(TlGaSe_2)_{0,9}(TlInS_2)_{0,1}$ üçün a=10,535 $\overset{0}{A}$; b=10,602 $\overset{0}{A}$; c=15,635 $\overset{0}{A}$; β=100,6^0

$(TlGaSe_2)_{0,8}(TlInS_2)_{0,2}$ üçün a=10,531 $\overset{0}{A}$; b=10,598 $\overset{0}{A}$; c=15,632 $\overset{0}{A}$; β=100,6^0

Sintez olunmuş bərk məhlullardan uzunluğu 0,03 m, diametri 0,005 m olan silindrik formalı nümunələr hazırlanaraq ədəbiyyatdan mövcüd olan metodika əsasında istidən genişlənmə əmsalı ölçülmüşdür [2]. Ölçmələrin nəticələri cədvəl 1 və 2-də verilmişdir.

İstidən genişlənmə əmsalının təcrübi qiymətləri əsasında ədəbiyyatdan mövcüd olan empirik düsturlarla Debay xarakteristik temperaturu (θ_D) və atomlararası ortakvadratik dinamik yerdəyişmə ($\sqrt{\overline{u^2}}$) hesablanmışdır.

$$\theta_D = \frac{19,37}{(AV^{\frac{2}{3}}\alpha)^{1/2}} ..., \qquad (1)$$

$$\overline{u^2} = \frac{4,3\cdot10^{-14}\left[D(\theta/T)/\theta/T+\frac{1}{4}\right]}{A\theta_D} ..., \qquad (2)$$

Burada $\bar{A}$-ortakvadratik atom kütləsi, V-atomar həcm, D(θ/T)-Debay funksiyasıdır. Bu funksiyanın qiyməti ədəbiyyatdan götürülmüşdü [3,4].

Hesablamanın nəticələri cədvəl 1 və 2-də verilmişdir.

Cədvəl 1.

$(TlGaSe_2)_{0,9}(TlInS_2)_{0,1}$						
№	T, k	θ, k	$\frac{\theta}{T}$	D($\frac{\theta}{T}$)	$(\sqrt{\overline{u^2}})$, $\overset{0}{A}$	$\alpha, 10^{-6}\frac{1}{k}$
1.	90	421	4,7	0,352	0,057	4,96
2.	100	390	3,9	0,390	0,062	7,65
3.	120	379	3,2	0,472	0,072	8,29
4.	140	334	2,4	0,565	0,078	7,45
5.	160	309	1,9	0,625	0,089	7,81
6.	180	287	1,6	0,669	0,099	8,25
7.	200	280	1,4	0,704	0,110	10,12
8.	250	278	1,1	0,755	0,120	11,02
9.	300	275	0,9	0,815	0,130	11,28

Cədvəl 2.

$(TlGaSe_2)_{0,8}(TlInS_2)_{0,2}$						
№	T, k	θ, k	$\frac{\theta}{T}$	D($\frac{\theta}{T}$)	$(\sqrt{\overline{u^2}})$, $\overset{0}{A}$	$\alpha, 10^{-6}\frac{1}{k}$
1.	90	425	4,72	0,665	0,106	4,95
2.	100	391	3,91	0,435	0,107	7,62
3.	120	382	3,18	0,436	0,111	8,24
4.	140	335	2,39	0,570	0,133	7,43
5.	160	310	1,94	0,601	0,148	7,79
6.	180	289	1,61	0,667	0,167	8,21
7.	200	281	1,41	0,704	0,180	10,07
8.	250	279	1,12	0,730	0,198	10,95
9.	300	277	0,92	0,830	0,225	11,24

Cədvəllərdən göründüyü kimi hər iki tərkibdə temperaturun artması ilə Debay xarakteristik

temperaturu azalır atomlar arası ortakvadratik dinamik yerdəyişmə isə artır. Bu onu deməyə əsas verir ki, temperaturun artması ilə atomlararası kimyəvi rabitə zəifləyir və istidən genişlənmə əmsalının qiyməti artır. Bu cür dəyişiklik bərk məhlulun tərkibində $TlInS_2$ birləşməsinin çəki nisbətinin artması halında da baş verir. Belə ki, cədvəldən göründüyü kimi bərk məhlulun tərkibində $TlInS_2$-nin nisbəti artdıqca atomlararası ortakvadratik dinamik yerdəyişmə də artır. Bunu onunla əlaqələndirmək olar ki, tərkibdə $TlInS_2$-nin çəki nisbəti artdıqca kristal qəfəsində ümumi kimyəvi rabitədə ion rabitəsinin payı artır. Hesablamaların nəticəsi həmçinin atomlararası ortakvadratik dinamik yerdəyişmə ilə istidən genişlənmə əmsalı və ərimə temperaturları arasında da müəyyən korrelyasiya olduğunu göstərir.

Ədəbiyyat siyahısı

1.Гусейнов Г.Д., Абдинбеков С.С., Годжаев М.М., Агамалиев Д.Г. Параметры элементарной ячейки твердых растворов $(TlGaSe_2)_{1-x}(TlInS_2)_x$. Неорганические материалы, 1988, Том 24, №1, с. 144-145.

2.Курбанов М.М., Годжаев М.М., Маггерамов А.Б. Тепловое расширение и упругие параметры твердых растворов $(TlGaSe_2)_{1-x}(TlInS_2)_x$ (x=0,1; 0,2). Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, 2017, c. XXXVII, №5, səh. 125-129.

3.Сирота Н.Н. Физические свойства полупроводников в связи с энергией и характером межатомной связи в КН, Химическая связь в полупроводниках и термодинамика, Минск 1966, с. 339.

4.Курбанов М.М. Тепловое расширение и изотермическая сжимаемость $TlGaSe_2$. Неорганические материалы, 2001, Том 37, №12, с. 1447-1448.

ZƏİF MAQNİT SAHƏLƏRİNDƏ $TLIn_{1-X}Ce_X(Nd_X)Se_2(Te_2)$ BƏRK MƏHLULLARININ ELEKTRİK KEÇİRİCİLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

Zərbəliyev M. M., İsmayılov M. H., Məmmədov E. H., Xəlilova R. C.

Sumqayıt Dövlət Universiteti

zarbalievmm51@mail.ru

$TlInX_2$(X-S, Se,Te) tip birləşmələrə maraq onlarda kimyəvi rabitənin kəskin assimmetrikliyi, kristalın və zona quruluşlarının spesifik xüsusiyyətlərə malik olmaları, müvafiq qəfəslər d çərçivəsində geniş diapazonda tərkiblərin idarə oluna bilməsi, nəticədə yeni xassələr toplusuna malik yarımkeçirici materialların alinma imkanları ilə bağlıdır. Bu materialların monokristallarının yetişdirilmə texnologiyaları nisbətən sadədir, həmin kristallar həm tədqiqat, həm də tətbiq baxımından əlverişlidir.

$TlInS_2$ (Se_2Te_2) ücqat yarımkeçirici birləşmələri tetraqonal sinqoniyada kristallaşır və onlarda iki struktur vahidi mövcuddur. Kimyəvi cəhətcə əsas struktur vahidi tetraedr hesab edilir və yalnız bu tetraedrlər arasında ikinci struktur vahidinin-səkkiztəpəlinin, və yaxud burulmuş kubun formalaşması baş verir. İşlər M-X, istərsə də X-X əlaqələrinin ion tipə aid olub, bu birləşmələrin kristallarinin fəza formalaşmasında həlledici rol oynadığı halda , digər struktur vahidindəki M^{III}-X əlaqələri onların əsas yarımkeçiri xassələrini müəyyən edir.

Tərkiblərinə lantanoidlər daxil olan birləşmə və bərk məhlullar yüksək ərimə temperaturu, böyük mexaniki bərklik, yüksək temperaturlarda belə öz yarımkeçirici xassələrinin saxlamaq, yüksək termoeffektliyə malik olmaq kimi üstün xassələrə malikdirlər.

Məlumdur ki, Ln və In atomları uyğun olaraq Tl Ln X_2^{VI} və Tl In X_2^{VI}tipli birləşmələrdə üçvalentlidirlər və onların ion radiusları yaxındır. Eləcə də lantanoidlərin atom kütlələrinin artımı ardıcıllığı ilə onların ion radiusları kiçilir bu lantonoid sıxılması effekti adlanır və onların üçvalentli ion radiusları üçvalentli indiumun ion radiusuna daha da yaxınlaşır. Ona görə də Tl In X_2^{VI}tip birləşmələrdə indium atomlarini tədricən lantanid atomları ilə əvəz etməklə yeni birləşmə və bərk məhlullar əldə etmək imkanı real bir məsələ kimi qarşıya çıxır. Mövcud ədəbiyyatda belə əvəzləmələrlə yeni birləşmə və bərk məhlulların alınması, onların fiziki-kimyəvi, elektrik, istilik,elastiki, optik və s. xassələrinin tədqinə dair məlumatlar vardır[1-3]. Lakin bu məlumatlar hələlik TlLn X_2^{VI} - TlIn X_2^{VI} sistemlərində qarşılıqlı təsirə dair ümumi mənzərəni dəqiqləşdirmək, lantanidlərin 4f – səviyyələrinin dolması ardıcıllığı və bu atomdan digərinə keçərkən xassələrin dəyişmə xarakterini təhlil etmək üçün kifayət deyildir. Məhz bu səbəbdən konfransa təqdim olunan məruzənin aktuallığı şübhə doğurmur.

Məruzə TlInSe (Te_2) – $TlCe_x(Nd_x)Se_2(Te_2)$ sistemlərində müşahidə olunan $TlIn_{1-x}Ce_x(Nd_x)Se_2(Te_2)$ tərkibli bərk məhlullarının sintezi, monokristallarının yerləşdirilmə texnologiyası və onların elektrik keçiriciliyinin bəzi xüsusiyyətlərinə həsr olunmuşdur.

Tədqiq olunan yarımkeçirici bərk məhlullar yüksək təmizlik dərəcəsinə malik ilkin komponentlərdən istifadə etməklə birbaşa sintez yolu ilə alınmışdır. Stexiometrik tərkibə uyğun maddə əvvəlcədən xüsusi üsullarla yuyulub təmizlənmiş kvars ampulaya doldurulub, içərisindəki hava vakuum qurğusu vasitəsilə evakuasiya edildikdən sonra ağzı lehimlənməklə xüsusi sobalara yerləşdirilir. Sobanın temperaturu, onu temperatur sahəsi və bu sahənin dəyişməsinin vaxt rejimi, eləcə də bu materialların monokristallarının yetişdirilmə rejimləri [2] ədəbiyyatında kifayət qədər ətraflı şərh edilmişdir. Bu üsulla alınmış $TlIn_{1-x}Ce_x(Nd_x)Se_2(Te_2)$ kristalları düzbucaqlı paralelepiped formasında olub, təbəqələrə ayrıla bilir. Bir sıra analizlər göstərir ki, həmin paralelepipedlərin səthləri ilkin birləşmənin tetraqonal qəfəsinin yan müstəvilərinə uyğun gəlmir. Yəni kristalların təbəqələrə ayrılması tetraqonal elementar qəfəslərin diaqonalları üzrə olur. Müvafiq olaraq təbəqələrə ayrılma tetraqonal oxa paralel $\vec{c}$ istiqamətinə uyğun gəlib, kristalın formalaşma müstəvisi rolunu oynayır. Ümumi külçədə $\vec{c}$ oxu zonanın yerdəyişməsinin paralel, şaquli zona əritmə üsulunda isə perpendikulyar istiqamətdədir. Lakin üfüqi istiqamətlənmiş kristallaşmada (5 mm/saat) sürətlə, temperatur qradientinin 6 K/sm olması halında bir qədər fərqli istiqamətlənmə alınır. $\vec{c}$ kristalloqrafiq oxu külçənin diametri boyunca yönəlir. Beləliklə, yuxarıda qeyd olunan kristallaşma variantında aşağıda təsvir olunan hal müşahidə edilir: təbəqələrə ayrılma istiqamətindən biri ağırlıq qüvvəsinə paralel, digəri isə temperaturun qradienti istiqamətində yönəlir. Bizim mülahizələrimizə görə bunun səbəbi kristallaşmanın başlanğıc mərhələsində ərintidəki ilkin kristallaşma mərkəzinin qismən kiçik çəkiyə malik olması ilə ərintinin səthinə qalxmasıdır. Kritalin sonrakı boyunun inkişafı bu mərkəzdən başlayıb, temperaturun maksimal qradienti istiqamətində artır. Nəticədə ərintinin səthində üfüqi vəziyyətdə üzən bu mərkəz kristallik təbəqədə ərintinin daxilinə nüfuz edərək böyüyür.

$TlIn_{1-x}Ce_x(Nd_x)Se_2(Te_2)$ bərk məhlullarının elektrik keçiricikləri. Holl və termoelektrik əmsallarının temperatur asılılıqları polikristallik nümunələrdə 300-1000K temperatur intervalında tədqiq edilmişdir. Nümunələr ölçüləri 12^x6^x4 mm^3 olan paralelepiped formasında hazırlanmış, temperatur xromel-alümel termocütləri ilə ölçülmüşdür. Ölçü zondları kimi kondensator boşalmaları vasitəsi ilə nümunəyə qaynaq edilmiş volfram məftillərindən istifadə olunmuşdur. Bütün nümunələr tədqiq olunan temperatur oblastında p-tip keçiriciliyə malikdirlər. Elektrik keçiriciliyinin temperatur asılılıqlarında aşağı temperaturlu hissələrdə aşqar keçiricilik, 600-650K-dən yuxarı hissələrdə isə məxsusi keçiricilik müşahidə olunmuşdur. ~520-600K temperatur oblastlarında aşqar mərkəzlərin tükənməsi və nəticədə yükdaşıyıcıların konsentrasiyasının sabit qalması ilə, onların qəfəs rəqslərindən səpilməsi nəticəsində yüyrüklüyün məhdudlaşdırılması ilə temperaturun sonrakı artımında elektrik keçiriciliyinin azalmasıdır. Bu hissədə kvazimetallik asılılıq müşahidə olunur. Temperaturun sonrakı artımında elektrik keçiriciliyinin eksponensial artımı ilə məxsusi keçiricilik obalastı müşahidə olunur, belə ki, bu temperaturlarda baxılan tərkiblərdə yükdaşıyıcıların istilik enerjiləri valent zonasından sərbəst zonaya birbaşa keçidlərə imkan verir ($kT > \Delta\mathcal{E}_g$) [3].

$TlIn_{1-x}Ce_x(Nd_x)Se_2(Te_2)$ bərk məhlullarında termoelektrik hərəkət qüvvəsi əmsalının temperatur asılılığından görünür ki, temperaturun aşağı qiymətlərində temperaturun artması ilə yükdaşıyıcıların kimyəvi potensialları azalır və bununla mütanisib termo-e.h.q. əmsalı da artır. Temperaturun yuxarı qiymətlərində isə yükdaşıyıcıların konsentrasiyasının kəskin artımı termo- e.h.q. əmsalının azalmasına gətirib çıxarır [2,3].

Tədqiq olunan asılılıqlardan görünür ki, tərkiblərdə neodinin nisbi miqdarı artdıqca , elektri keçiriciliyi kəskin artır, termo-e.h.q. əmsalı isə bütün temperatur oblastı boyunca hiss olunacaq dərəcədə kiçirilir.

Məlumdur ki, materialın yarımkeçirici xassələri xarakteristik parametrlər adlanan bir sıra kəmiyyətlərlə müəyyən olunur və bu kəmiyyətlər yükdaşınma və həyacalanma mexanimləri ilə əlaqədardır. Məhz bu kəmiyyətlər tədqiq olunan materialı xarakteristikaları artıq məlum olan digər materiallarla müqayisə etməyə, onların üstün və ya çatışmayan xassələrinin aşkara çıxartmağa və nəticədə bu materialların mümkün tətbiq perspektivlərinin müəyyənləşdirməyə imkan verir. Bu kəmiyyətlər sırasına qadağan zonasının eni, yükdaşıyıcıların effektiv kütləsi, konsentrasiyası, yürüklüyü və s. daxildir. Tədqiq etdiyimiz asılılıqlar bütün tərkiblərdə qadağan zonasının eni, yükdaşıyıcıların effektiv kütləsi, konsentrasiyasıları hesablanmış və bu kəmiyyətlərlə tərkibindəki lantanidin nisbi miqdarı arasında ciddi korrelyasiya olduğu müəyyən edilmişdir. Alınan nəticələrdən görünür ki, bütün tətqiq olunan materiallarda lantanoidin nisbi miqdarını dəyişməklə onlarda zona və yük parametrlərini idarə etmək mümkündür.

Ədəbiyyat siyahısı

1.Годжаев Э. М., Зарбалиев М. М., Рзаева К. М. и др. Получение четверных сплавов типаTlSe с резкоземельными элементами // Журн. Физ. Химии.1975.Е.49.С.2458-2459.

2.Зарбалиев М. М. Явления переноса заряда и тепла в системах $TlInS_2(Se_2,Te_2)$-$TlLnS_2$ (Se_2,Te_2). Дисертация доктора физ.-мат.наук.2001.БГУ.285с.

3.Алиев Ф.Ф., Агаева У.М., Зарбалиев М.М. Энергетический спектр носителей заряда в твердых растворах $TlIn_{1-x}Yb_xTe_2$ //ФТП.2016,Е.50,вып.10С.1297-1302

ЗАКОНОМЕРНОСТИ ИЗМЕНЕНИЯ УПРУГОСТИ ПАРОВ УГЛЕВОДОРОДОВ АРОМАТИЧЕСКОГО РЯДА

Абдуллаев Ф.Г.
Азербайджанский государственный университет нефти и промышленности
Email: firuddin.abdullayev@bk.ru

1. Введение

Бензол и его моноалкилпроизводные широко применяются в нефтяной, нефтеперерабатывающей, химической промышленностях и энергетике, как исходный, промежуточный и конечный продукт, а также как теплоноситель и горючее. В этой связи эффективность процессов, проводимых во всех перечисленных отраслях, требует наличие достоверных данных по теплофизическим свойствам этих веществ, охватывающих широкие диапазоны изменения температур и давлений. Кроме того, наличие подробных опытных данных по теплофизическим свойствам для отдельных классов веществ имеет также важное научное значение для разработки теории реальных газов, жидкостей и их смесей.

В этой связи в течение многих лет нами проводились подробные экспериментальные исследования давления насыщенных паров первых девяти углеводородов ряда моноалкилпроизводных бензола в широком диапазоне изменения температур и давлений [1-7]. Температура в опытах измерялась с максимальной погрешностью ± 0.01 К. Максимальная относительная погрешность измерения давления не превышает ± 0.01 %.

2. Теоретическая разработка уравнения упругости паров

Анализом структуры как самого бензола, так и его моноалкилпроизводных установлено, что в их межмолекулярных взаимодействиях могут принимать участие только внешние электронные орбитали (связи). Вследствие того, что все эти внешние электронные орбитали молекул имеют примерно одинаковые подвижности и находятся в идентичных условиях, естественно предполагать, что и вклады каждого из электронных орбиталей, т.е. связей, также будут одинаковы. Другими словами, для энергии (или же силы) межмолекулярного взаимодействия должны выполнятся правила аддитивности, т.е. результирующая энергия межмолекулярного взаимодействия для каждой молекулы должна складываться из энергии взаимодействий его связей. Например, для бензола она должна состоять из 12-ти одинаковых долей, а для толуола 15-ти, этилбензола 18-ти и т.д.

Так как в ряду моноалкилпроизводных бензола от члена к члену число связей растет на одинаковую величину, т.е. на три связи, то естественно предполагать, что закономерности изменения физических свойств углеводородов ряда моноалкилпроизводных бензола, относительно числа связей в молекуле должно меняться по линейному закону.

Dünyanın yanacaq ehtiyatlarının əhəmiyyətli hissəsi müvafiq dəyişikliklərdən sonra istehlakçılar tərəfindən elektrik enerjisi, enerji sərf edən proseslərin sənayesi üçün yüksək potensiallı istilik, sənaye və məişət üçün isti su və buxar şəklində istifadə olunur. İstilik təchizatı sistemləri avadanlıqların fasiləsiz və etibarlı iş rejimi sistemin konturlarında itkilərin yerini doldurmaq üçün verilən əlavə suyun keyfiyyətindən xeyli dərəcədə asılıdır. Əlavə suyun keyfiyyəti istilik təchizatı sistemlərində yanacaq sərfi və avadanlıqların uzunömürlülüyünə də təsir edir. Xam suyun və onun ilkin tərkibinin emalı zamanı tətbiq olunan texnologiyalardan asılı olan suyun keyfiyyəti bir tərəfdən istilik avadanlıqlarının iqtisadi göstəricilərinə təsir göstərir, digər tərəfdən isə onların ekoloji təmizliyini müəyyən edir.

Məlumdur ki, istilik sistemlərini mərkəzləşdirilmiş və yerli olmaqla iki yerə bölürlər. Bu zaman mərkəzləşdirilmiş sistemlərdə istilik mənbəyi kimi böyük qazanxanalar, istilik və atom elektrik stansiyaları istifadə olunur. İES və AES-lərdə, əsasən, eyni zamanda istilik və elektrik enerjisi istehsal olunan istilik və atom elektrik mərkəzləri istifadə olunur. İstilik və elektrik enerjilərinin birgə istehsalı bazasında istilik enerjisinin istehsalı zamanı elektrik enerjisi istehsalı üçün yanacaq sərfini (20÷25)%-ə qədər azaltmaq mümkündür [1]. İri avadanlıqların istifadəsi zamanı onların yaşayış massivlərindən uzaq yerləşdirilməsi imkanı yaranır ki, bununla da ətraf mühitin ekoloji təmizliyini təmin etmək olur.

Mərkəzləşdirilmiş istilik təchizatı sistemləri istilik mənbəyi, magistral istilik şəbəkələri və istilik enerjisinin istifadəçilərindən ibarətdir. İstilik şəbəkələri istilik enerjisi istifadəçiləri ilə istilik mənbələrini birləşdirir. Diametri 1400 m və daha çox olan boru kəmərləri ilə olan və bəzən bir neçə onluq və hətta yüz kilometr uzunluğunda olan müasir istilik şəbəkələri mürəkkəb mühəndis qurğularına sahibdirlər. Bu şəbəkələrin vasitəsi ilə istilik, yaşayış məntəqələrinin yaşayış və ictimai binalarının isitmə sistemi, ventilyasiya və isti su təchizatına ötürülür. Su istilik şəbəkələrində istehlakçılara verilən istilik enerjisi parametrlərinin tənzimlənməsi keyfiyyətinin artırılması məqsədilə, aralıq həlqələr nəzərdə tutulur - isti su parametrlərinin əlavə tənzimlənməsi həyata keçirilən mərkəzi və yerli istilik məntəqələri.

Bundan başqa, bəzən, istilik enerjisinin istehlakçılarının özlərində fərdi tənzimləmə həyata keçirirlər. Buna misal olaraq şək.1.1-də mərkəzləşdirilmiş istilik təchizatının iki borulu su istilik şəbəkəsininin prinsipial sxemi göstərilmişdir. Dövr edən su sərfinin azalması nəticəsində elektrik enerjisinə olan xərc, boru kəmərlərinin diametrlərinin və kanalların ölçülərinin azaldılması yolu ilə istilik şəbəkələrinin tikintisinə görə olan kapital qoyuluşu üçün və s. olan xərcləri azaltmaq üçün istilik təchizatının verən xəttdəki temperaturunu istehlakçılardakından xeyli artıq qəbul edirlər. Bu tədbirlər suyun az miqdarı (sərfi) ilə daha çox istilik enejisinin ötürülməsinə imkan verir. Bu zaman verici xəttdə suyun temperaturunu adətən 110÷150°C çərçivəsində qəbul edirlər. İstilik itkilərinin azaldılması üçün boru kəmərlərinin verici və əks istiqamət xəttlərini istilik keçirməyən materiallarla izolyasiya edirlər. Bəzi hallarda, istilik enerjisi çox uzaq məsafələrə ötürüləndə

istilik şəbəkəsinin verici borusunda suyun temperaturunu 170÷180°C-yə qədər, lazım olduqda isə daha çox artırırlar [1].



Şəkil 1.1. Mərkəzləşdirilmiş istilik təchizatının prinsipial sxemi
1 - istilik mənbəyi; 2 - mərkəzi istilik məntəqəsi; 3- yerli istilik məntəqəsi; 4 - istilik istehlakçıları; 5 - istilik şəbəkəsinin verici boru kəməri; 6 - istilik şəbəkəsinin qayıdan boru kəməri

İstilik təchizatı sistemlərində istilik daşıyıcısı kimi, əsasən, su və ya su buxarı istifadə olunur. İstilikdaşıyıcıları istilik mənbəyində hazırlanırlar: suqızdırıcı qazanxanalarda, istilik təchizatının atom stansiyalarında, istilik elektrik stansiyalarında. İstilik enerjisinin bütün mənbələrində, hətta onların normal iş rejimində belə, kompensasiyası tələb olunan, qazanların qidalandırıcı suların, kondensat və ya buxar itkiləri olur. Suqızdırıcı qazanxanalarda qazanların və istilik elektrik stansiyalarındakı buxarın parametrlərindən asılı olaraq, suyun itkilərin yerini doldurmaq üçün, müxtəlif üsullarla hazırlanmış duzsuzlaşdırılmış və ya yumşaldılmış sudan istifadə olunur. İstilik şəbəkələrində su itkilərinin yerini doldurmaq üçün konkret hallardan asılı olaraq, ya dərin yumşaldılmış və ya "karbonat indeksi"nin normalarına cavab verən xüsusi emal olunmuş sudan istifadə olunur, bunun nəticəsi olaraq sudan kalsiumun çökülməsinin qabağı alınır [2].

Su emalı zamanı istilik təchizatı sistemlərində itkilərin yerini doldurmaq üçün müxtəlif texnologiyalardan istifadə olunur ki, onların da arsında iondəyişdirici təmizlənmə xüsusi yer tutur. Suyun ion mübadiləsi ilə təmizlənməsi zamanı konstruktiv xüsusiyyətlərindən tətbiq edilən texnologiyaların texnoloji və iqtisadi göstəriciləri asılı olan müxtəlif ion filtrlərindən istifadə olunur (şək.1.2).

Bu süzgəclərə düzaxınlı, ikipilləli, əksaxınlı, ikipilləli-əksaxınlı və ikiaxınlı-əksaxınlı süzgəcləri aid etmək olar [3, 4]. Bunlar arasında ən sadə konstruksiya və suyun təmizləmə texnologiyasi düzaxınlı süzgəcə aiddir (şək. 1.2a). Bu süzgəclərdə emal edilən suyun və regenerasiya məhlulun istiqamətləri üst-üstə düşür və adətən, yuxarıdan aşağı olmaqla qəbul olunur. Ona görə də ionitin regenerasiyasına sərf olunan regenerasiya məhlulun xüsusi sərfi onlarda ən yüksək alınır və 2,5÷3,5 q-ekv/q-ekv çərçivəsində yerləşir. Regenerasiya məhlulun ionitin regenerasiyasına olan xüsusi sərfinin azaldılması üçün ikipilləli ionlaşma tətbiq edirlər (şək.1.2,b). Bu zaman emal olunan suyun ionlarının əsas hissəsi birinci pillədə udulur. Bu pillə müstəqil regenerasiya olunur və işləyir. İonitin ikinci pillədə regenerasiyası zamanı, onun işlənmiş regenerasiya məhlulu (İRM) ionitin birinci pillədə regenerasiyası üçün istifadə olunur. İkinci pillənin olmasını nəzərə alaraq, ionitin birinci pillədə dərindən regenerasiyası tələb olunmur. İkinci pillədə isə, birinci pillədən sonra ionların cüzi hissəsi udulur ki, bu səbəbdən də nadir hallarda regenerasiya olunur. Buna görə də, ikipilləli filtrlərdə regenerasiya məhlulun ümumi sərfi, düzaxınlı süzgəclərlə müqayisədə az alınır.

1.2 c şəklinə əsasən, əksaxınlı süzgəclərin variantlarından birinin tətbiq olunması regenerasiya məhlulun sərfi zamanı daha yüksək qənaət əldə etməyə imkan verir. Bu zaman filtrata ionitin narın hissəciklərinin keçmə təhlükəsi yaranır, bu da öz növbəsində yuxarı paylayıcı qurğunun tutulmağına gətirir və nəticədə süzgəcin hidravlik müqaviməti artır, qurğunun istismarının təhlükəsizliyi isə azalır. Bu səbəbdən bu süzgəclər geniş tətbiq oluna bilmədi, baxmayaraq ki, məsələn, Na-kationlaşma zamanı duzun xüsusi sərfini 30% endirmək mümkündür [3]. Əksaxınlı süzgəclərin çatışmazlıqlarını nəzərə alaraq, praktikada, adətən, ikipilləli-əksaxınlı süzgəclərdən istifadə olunur (şək. 1.2, d) [3]. Bu süzgəclər eyni zamanda işləyir və regenerasiya olunurlar. Birinci və ikinci korpuslarda yüklənmiş ionitlərin sayı, ümumi həcmdən 65 və 35% anlamlarına uyğun gəlir. Bu süzgəclərdə regenerasiya məhlulun xüsusi sərfinin azalması, demək olar ki, əksaxınlı süzgəclərdəki kimidir. Lakin, bu zaman qurğuya qoyulan kapital xərc çoxalır və qurğunun texnoloji sxemi mürəkkəbləşir.



Şək. 1.2. Su emalı üçün ion süzgəcləri
a- düzaxınlı; b - ikipilləli; c -əksaxınlı; d --ikipilləli-əksaxınlı; e - ikiaxınlı - əksaxınlı; APQ, ÜPQ, OPQ - alt, üst, orta paylayıcı qurğular; 1 - emal olunan su; 2 - emal olunmuş su; 3 - regenerasiya məhlulu; 4 –işlənmiş regenerasyai məhlulu

Əksaxınlı və pilləli-əksaxınlı konstruksiyalı süzgəclərin yuxarıda göstərilən və digər bəzi nöqsanları nəzərə alınmaqla AzMİU-da suyun ikiaxınlı-əksaxınlı ionlaşdırılması və ionitlərin regenerasiya texnologiyası eləcə də, ikiaxınlı-əksaxınlı süzgəclərin konstruksiyaları hazırlanmışdır [4-6].

Şəkil 1.2 e-də göstərilənə əsasən bu süzgəclər iki rejimdə işləyə bilər: ikiaxınlı emal üzrə: emal olunan suyun süzgəcə yuxarıdan və aşağıdan verilməsi və emal olunmuş suyun OPQ vasitəsilə çıxarılması ilə və ikiaxınlı regenerasiya üzrə: regenerasiya məhlulun süzgəcə yuxarıdan və aşağıdan verilməsi və İRM-un OPQ vasitəsilə xaric olması. Birinci halda, regenerasiya məhlulu süzgəcə yuxarıdan aşağıya istiqamətində verilir və APQ vasitəsilə xaric olunur. İkinci halda isə emal olunan su süzgəcə yuxarıdan aşağıya verilir və APQ vasitəsilə xaric olunur.

Suyun ikiselli emalı rejimində, yəni emal olunan su süzgəcə iki axınla verilərsə: yuxarıdan və aşağıdan, sonra isə OPQ vasitəsi ilə çıxarılarsa, süzgəcin məhsuldarlığı praktiki olaraq iki dəfə artır. Hər iki rejimdə OPQ-dən aşağı yerləşən ionitin qatları "təmiz" əksaxınlı rejimdə işləyirlər. Bu səbəbdən, ionit regenerasiyasına reagentin xüsusi sərfi əksaxınlı süzgəclərdə olduğu qiymətlərə kimi azalır, ikiaxınlı emal rejimində suyun təmizlənməsinin dərəcəsi və süzgəcin məhsuldarlığı artır. Bu süzgəclərin əksaxınlı süzgəclərə xas olan çatışmazlıqları yoxdur [4]. Buna səbəb, bu süzgəclərdə OPQ-nın yerləşmə hündürlüyü əksaxınlı süzgəclərə nisbətən aşağıdır və drenaj sisteminin dəlikləri ionitin nisbətən böyük diametrli dənələrin arasında yerləşir. Bütün bu müsbət xüsusiyyətləri nəzərə alaraq, bu süzgəclərlər hal-hazırda Rusiya Federasiyasının Taqanroq şəhərinin qazanxana zavodunda istehsal olunur.

Ədəbiyyat siyahısı

1. Копко В.М. Теплоснабжение. Изд 2-е, исправл. И дополн. - М: Изд-во АСВ, 2014. – 336с.
2. Нормы качества подпиточной и сетевой воды тепловых сетей. НР 34-70-051-83, М.:СПОСоюзтехэнерго, 1984, 12с.
3. Справочник химика-энергетика. Под общ. Ред. С.М.Гурвича. В 3-х т. 1. Водоподготовка и водный режим парогенераторов. Изд. 2-е перераб. и доп. М., «Энергия», 1972, 456с.
4. А.с. 676311 СССР, МКИ^2 В 013 1/09/, С 02В 1/76. Способ регенерации ионитных фильтров/ Г. К. Фейзиев// Открытия. Изобретения. 1979. № 28.
5. А.с. 998372 СССР, М.Кл^3 С 02F 1/42. Способ обработки воды/ Г.К.Фейзиев, М.М. Иманов// Открытия. Изобретения 1983, №7.
6. А.с. 1022948 СССР, МКИ^2 С 02Г 1/42. Способ ступенчато-противоточного ионирования воды/ Г.К. Фейзиев// Открытия. Изобретения. 1983. № 22.

ELEKTRİK ENERJİSİNİN DÜYÜNLƏRDƏ QİYMƏTLƏRİ HAQQINDA

İsgəndərov F.G.
Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu

Giriş. Tələbatçılara verilən EE, qiyməti bir-birindən fərqlənən müxtəlif stansiyalarda istehsal oluna bildiyindən bazar münasibətləri şəraitində elektrik stansiyalarında və digər təchizatçılarda elektrik enerjisinin qiyməti müxtəlif olduğundan bazar iştirakçıları arasında güc və enerji axınlarının paylanması aktual məsələlərdən biridir [1-5]. EE-nin qiymətinə enerji itkiləri, elektrik şəbəkəsinin ayrı-ayrı kəsiklərində yük buraxma qabiliyyəti, generatorların gücünə olan mövcud məhdudiyyətlər də təsir edir.

Elektrik enerjisinin bazar modelləri. Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə EE ticarəti bir sutka əvvəlcədən bazar, balanslaşdırıcı bazar, tənzimlənən müqavilələr bazarı, EE sərbəst alış-satış müqavilələri kimi bazar mexanizmlərindən istifadə etməklə həyata keçirilir [2-3].

Bir sutka əvvəlcədən bazar çərçəvəsində EE-nin təchizatçıları və alıcıları kommersiya operatoruna təqdim etdikləri qiymət bildirişlərində hansı saatda və hansı miqdarda EE-ni hansı qiymətə almaq və ya satmaq istədikləri haqqında məlumat verirlər. Balanslaşdırıcı bazar-real zaman kəsiyində elektrik şəbəkəsinin balanslaşdırma ehtiyaclarını ödəmək üçün yaradılmış topdansatış bazarı olaraq plana nəzərən artıq istehlak edilən və ya istehlak edilməyən EE-nin alqı-satqısını yerinə yetirir. Balanslaşdırıcı bazarda avadanlığın tərkibi müəyyən edilmir və EE-nin optimal iqtisadi və texnoloji balansı həyata keçirilir.

EE-nin düyünlərdə qiymətlərinin modelləri. Hər hansı i-ci düyündə EE-nin qiyməti EE-nin istehsalına və itkilər nəzərə alınmaqla ötürülməsinə çəkilən əsaslandırılmış xərcləri aşağıdakı riyazi modelə müvafiq olaraq ödəməlidir [2]:

$$\sum_{j\in I_G} P_{Gj}\cdot C_j = \sum_{i\in I_C} P_{Ci}\cdot q_i \qquad (1)$$

burada P_{Gj} – vahid zamanda j-ci düyündə istehsal olunan elektrik enerjisi, C_j – elektrik enerjisinin istehsalçının elan etdiyi və sabit qəbul edilən qiyməti, P_{Ci} – vahid zamanda i-ci düyündə istehlak olunan elektrik enerjisi, I_G və I_C müvafiq olaraq EE mənbələrinin və tələbatşıların olduğu düyünlərin çoxluğu, q_i isə i-ci düyündəki tələbatçı üçün EE-nin qiymətidir.

İxtiyari i-ci tələbatçının Δt zaman intervalında istehlak etdiyi EE-nə görə aşağıdakı qədər ödəməlidir:

$$C_i = \int_0^{\Delta t} q_i(t)\cdot P_{Gi}(t)dt \qquad (2)$$

burada $P_{Gi}(t)$ - i-cı tələbatçının t zaman anında gücüdür.

İxtiyai j-ci istehsalçının Δt zaman intervalında istehsal etdiyi EE-nə görə aşağıdakı qədər maliyyə vəsaiti almalıdır:

$$G_j = \int_0^{\Delta t} g_j(t)\cdot P_{Gj}(t)dt \qquad (3)$$

Məsələnin həllinin çətinliyi ondan ibarətdir ki, EE-nin ötürülməsi ilə bağlı itkilər və bərabərsizlik şəklindəki məhdudiyyətlər EE-nin düyünlərdəki qiymətini artıran səbəblər olaraq cari rejimdən, xüsusi halda digər generatorların hasil etdiyi gücdən asılıdır.

Göstərilən problemin həlli üçün ən sadə yanaşma istənilən zaman anında ixtiyari tələbatçı üçün aşağıdakı düsturdan tapılan vahid tarifin tətbiq olunmasıdır:

$$q = \frac{\sum\limits_{j\in I_G} P_{Gj}.C_j}{\sum\limits_{k\in I_C} P_{Ck}} \qquad (4)$$

Düyünlərdə EE-nin qiymətini tapmaq üçün [6]-da işlənmiş riyazi modeldə hər bir düyündə istehsal olunan EE və düyünə daxil olan enerji axınına öz məhsulunu (yəni EE-i) satan satıcılar kimi baxılır. Düyündən çıxan axınlar və yüklərə isə EE alıcıları kimi baxılır. Verilmiş zaman anında hər bir düyün üçün aşağıdakı tənlik ödənilməlidir:

$$G_i(P_{gi}) + \sum c_j P_{ji} = q_i\cdot P_{Yi} + q_i\cdot\sum P_{ji};\quad i = 1....,n \qquad (5)$$

(5) tənliyinin sol tərəfində birinci həddi P_{gi} gücünün istehsal xərcini, ikinci həddi j-cu düyündən i-ci düyünə axan güclərin c_j qiyməti ilə alınması xərclərini göstərir. Sağ tərəfdə birinci həddi i-ci düyündə P_Y yükünün q_j qiyməti ilə satılmasından əldə olunan vəsait, ikinci həddi isə i-ci düyündən çıxan güclərin q_i qiyməti ilə satılması xərclərini göstərir. [7]-də düyünlərdə EE-nin qiymətini heablamaq üçün MATLAB mühitində proqram təminatı işlənib hazırlanmışdır.

Düyünlərdə EE-nin qiymətini hesablamaq üçün mümkün olan üsullardan biri də aktiv güc axınlarının ünvanlı paylanmasına əsaslanan üsuldur ki, həmin üsul hər hansı generesiya düyünündən müəyyyən yük düyününə ötürülmüş aktiv gücün payının təyin edilməsinə əsaslanır [1,2,4].

Hər hansı j-ci yük düyünündə EE-nin qiyməti aşağıdakı düsturdan tapıla bilər:

$$q_i = \frac{\sum\limits_{i=1}^{N_G} C_i P_{ij}}{P_{Ywk,j}} \qquad (6)$$

Lagranjın qeyri-müəyyən əmsallar üsulu ilə optimallaşdırma metodu ilə düyündə marjinal qiyməti təyin etmək üçün aşağıdakə şəkildə Lagranj funksiyası tərtib edilir [3]:

$$L = \vec{C}(P_{gen}) - \lambda\left(\sum_i P_{gen,i} + P_{Yuk\Sigma}\right) - \vec{\mu}^{T} \cdot \left([\alpha]\cdot\vec{P} - \vec{P}_L^{\max}\right)$$

burada P_{gen} – aktiv güc mənbələrinin aktiv gücləri vektoru, $P_{Yuk\Sigma}$ - ümumi aktiv yük, C – generator düyünlərinin qiymət bildirişləri vektoru, P –düyünlərdə aktiv güclər vektoru, P_L-xətlərdə məhdudiyyətlərə uyğun vektor, λ, μ-Lagranjın qeyri-müəyyən əmsallarıdır.

Modelləşdirmənin nəticələri. Şəkildə güc axınlarının ünvanlı paylanması məsələsinin həlində [4]-də istifadə olunmuş test sxemi təsvir olunmuşdur. Sxemdə 1 və 2 generator düyünləri, 3, 4, 5 isə yük düyünləridir. Həmin sxem üzərində düyünlərdə EE-nin qiymətlərini təyin etmək üçün hesabatların nəticələri cədvəl 1-də verilmişdir.



Şəkil 1. Hesablamaların yerinə yetirildiyi test sxemi

Cədvəl1. Düyünlərdə EE-nin qiymətləri (şərti vahidlə)

Düyünlər	$Pgen_0$, MVt	$Pyük_0$, MVt	Düyünlərdə EE ilkin qiyməti	Düyünlərdə EE hesabat qiyməti	Generatorlarım xərcləri	İstehlak olunan EE ödənişi
1	50	0	3	3	150	0
2	120	0	2	2	240	0
3	0	60	0	2.5	0	150
4	0	90	0	2.22	0	200
5	0	20	0	2	0	40
Cəmi					390	390

Modelləşdirmənin nəticələri göstərir ki, elektroenergetika sisteminin müxtəlif düyünlərində müxtəlif qiymətlər formalaşır ki, onlardan bazar münasibətləri şəraitində qiymət bildirişləri kimi istifadə oluna bilər.

Ədəbiyyat siyahısı

1. J. Bialek: Tracing the flow of electricity. IEE Proc Gen. Transm. Distrib., vol. 143, July 1996.
2. Гамм А.З., Войтов О.Н., Голуб И.И., Бровяков Ю.А. Технико-экономические модели электроэнергетических систем./ Информационные технологии контроля и управления на транспорте, Иркутск, ИрИИТ, Вып.7, 2000, с.145-154.
3. Бартоломей П. И., Груздев П. П., Паниковская Т. Моделирование ценовых заявок на конкурентном рынке электроэнергии» Вестник, No 13, Екатеринбург: УГТУ – УПИ., 2005.
4. Баламетов А.Б., Халилов Э.Д. О прослеживании путей передачи мощностей в энергосистемах. Проблемы Энергетики, 2011, №4.
5. Халилов Э. Д. Моделирование узловых цен на электроэнергию. Программные продукты и системы / Software & Systems № 2 (30), 2017, с 333-337.

ELEKTRON İDARƏETMƏLİ YENİ KONSTRUKSİYALI FORSUNKASI OLAN BENZİN PÜSKÜRMƏ SİSTEMİNDƏKİ HİDRODİNAMİK PROSESLƏRİN KİÇİK YANACAQ VERİLİŞLƏRİNDƏ HESABİ TƏDQİQİNİN BƏZİ NƏTİCƏLƏRİ

Kərimov Z.X.,Cəfərli M.K.
Azərbaycan Texniki Universiteti

Daxili yanma mühərriklərinin texniki-iqtisadi və ekoloji göstəriciləri qarşısında qoyulan sərt tələbləri təmin etmək energetikanın aktual problemlərindən biridir. Bu problemi həll etmək məqsədilə Azərbaycan Texniki Universitetinin "Avtomobil texnikası" kafedrasında bilavasitə silindrə benzin püskürməli və forkamer-məşəllə alışdırmalı mühərrikin yeni işçi prosesi təklif olunmuşdur [2]. Yeni işçi proses püskürmə sistemi qarşısında bir sıra spesifik tələblər qoyur. Ənənəvi püskürmə sistemləri və onların forsunkaları bu tələblərin bir çoxuna cavab vermir. Buna görə də [1] işində lazımi tələblərə cavab verən yeni konstruksiyalı forsunka işlənmişdir. Bu forsunka (şək.1.) pyezo-aktyuatora (5), idarəedici klapanın həcmini (2) təzyiq akkumulyatoru ilə yüksək təzyiq borusu vasitəsilə birləşdirən giriş kanalına (1), idarəetmə kamerini (6) idarəedici klapanın həcmi ilə birləşdirən idarəedici klapana (4) və tozlandırıcının həcmi (8) ilə birləşdirən idarəedici kanala (7) və püskürücü klapana (11) malikdir.



Şək. 1. Elektron idarəetməli yeni konstruksiyalı forsunkanın prinsipial sxemi [1].

Yeni işçi prosesin xüsusiyyətlərindən biri ondan ibarətdir ki, burada ikinci mərhələdə kiçik yanacaq miqdarının – alışdırıcı dozanın püskürülməsi nəzərdə tutulmaqla, iki mərhələli püskürmə tələb olunur. Kiçik yanacaq verilişinə malik alışdırıcı dozanın püskürülməsində məqsəd əsas yanma kamerindəki yanacaq-hava qarışığının tərkibi və təbəqələşdirilməsi dərəcəsindən asılı olmayaraq, forkamerdə mühərrikin bütün iş rejimlərində asan alışa bilən (hava artıqlıq əmsalı $\alpha=0,8...1,0$ hədlərində dəyişən) tərkibli qarışıq hazırlamaqdan ibarətdir. Qeyd etmək lazımdır ki, ənənəvi yanacaq püskürmə sistemlərində və eləcə də təzyiq akkumulyatorlu elektron idarəetməli yanacaq püskürmə sistemlərində kiçik dozanın dayanıqlı püskürülməsi problemli məsələdir. Buna görə də yeni konstruksiyalı forsunkanın praktiki reallaşdırılmasından əvvəl onun kiçik yanacaq verilişlərində iş qabiliyyəti qiymətləndiilməlidir. Bu məqədə yanacaq sistemindəki və o cümlədən yeni konstruksiyalı forsunkadakı hidrodinamik proseslər hesabi eksperiment metodu ilə tədqiq olunmalıdır.

Hesabi tədqiqatların aparılması üçün təzyiq akkumulyaorlu benzin püskürmə sistemindəki hidrodinamik proseslər riyazi modelləşdirilmişdir. Bu zaman [3, 4] işlərində təklif olunmuş yanacaq püskürmə sistemindəki hidrodinamik proseslərin riyazi modelləşdirilməsi metodu əsas götürülmüşdür. Riyazi model maye fazasının bütövlüyünün qırılmasının və bu zaman yaranan ikifazalı maye-qaz mühitinin hidrodinamik xüsusiyyətlərinin nəzərə alınmasına imkan verir. Həmin riyazi modelləşdirmə metodunun adekvatlığı əvvəllər müxtəlif püskürmə sistemlərində dəfələrlə yoxlanılmış və kifayət qədər yüksək adekvatlığa malik olması sübut olunmuşdur.

Riyazi modeldə yanacaq püskürmə sisteminin borularındakı mayenin qərarlaşmamış axını konservativ dəyişənlərlə ifadə olunmuş qərarlaşmamış birölçülü axın tənlikləri kəsilməzlik və hərəkət miqdarı tənlikləri sistemi ilə təsvir olunmuşdur [4]:

$$\frac{\partial \rho}{\partial \tau}+\frac{\partial(\rho w)}{\partial x}=0\,, \qquad (1)$$

$$\frac{\partial(\rho w)}{\partial \tau}+\frac{\partial(\rho w^2+p)}{\partial x}=-\frac{\lambda_T}{2d_T}\rho w^2\,, \qquad (2)$$

Burada ρ – borudakı mayenin sıxlığı; p – borudakı mayenin təzyiqi; w – axının sürəti; x – borunun uzunluğu boyunca koordinat; τ – zaman; λ_T, d_T – uyğun olaraq, borunun hidravlik müqavimət əmsalı və daxili diametridir.

Mayenin təzyiqini təyin etmək üçün tənliklərə məlum ifadə əlavə olunur [4]:

$$\frac{\partial p}{\partial \tau} = c^2 \frac{\partial \rho}{\partial \tau}\ , \qquad (3)$$

burada c – axında təzyiq dalğasının yayılma sürətidir.



Şək. 2. Təzyiq akkumulyatorunda (P_{akk}), idarəedici klapanın həcmində (P_f), idarəetmə həcmində (P_u) və tozlandırıcının həcmində (P_s) yanacağın təzyiqinin və eləcə də pyezo-aktyuatorla idarəedici klapanın (z) və püskürücü klapanın gedişinin (h) mühərrik valının dönmə bucağından (Fİ) asılı olaraq dəyişmə əyriləri.

Sistemin həcmlərindəki hidrodinamik proseslər müvafiq sərhəd şərtləri tənlikləri ilə təsvir olunmuşdur. Məsələn, forsunkanın idarəedici klapanının həcmi üçün sərhəd şərti tənliyi – bu həcmdə olan maye kütləsi üçün kütlə balansı tənliyi aşağıdakı kimidir [3]:

$$\frac{dG_i}{d\tau} = f_{gk}\rho_{gkç}w_{gkç} - \mu_{ikl} f_{ikl}\rho_{ik}w_{ik}. \qquad (4)$$

Burada G_i –idarəedici klapanının həcmindəki yanacağın kütləsi; f_{gk} – giriş kanalının en kəsik sahəsi; μ_{ikl} – idarəedici klapanın sərf əmsalı; f_{ikl} – idarəedici klapanın keçid sahəsi; $\rho_{gkç}$ və ρ_{ik} – uyğun olaraq, giriş kanalının çıxışındakı və idarəetmə kamerindəki mayenin sıxlığı; $w_{gkç}$ və w_{ik} – uyğun olaraq, giriş kanalının çıxış kəsiyində və idarəetmə klapanının keçid sahəsində mayenin axın sürətidir.

Borularda qərarlaşmamış axın tənlikləri S.K.Qodunovun "ixtiyari kəsilmənin dağılması" adlı sonlu fərqlər metodu ilə, həcmlərdəki hidrodinamik prosesləri təsvir edən sərhəd şərtləri tənlikləri isə Eylerin I tərtib sonlu fərqlər sxemi vasitəilə həll edilmişdir. Hərəkət edən mexaniki elementlərin hərəkət tənlikləri Nyutonun II qanunu əsasında tərtib olunmuş və Eylerin I tərtib sonlu fərqlər sxemi vasitəsilə həll edilmişdir.

Riyazi model kompüter proqramı şəklində reallaşdırılmış və onun tətbiqi ilə elektron idarəetməli yeni konstruksiyalı forsunkası olan bilavasitə silindrə benzin püskürmə sistemindəki hidrodinamik proseslər sikllik yanacaq verilişinin kiçik qiymətlərində tədqiq olunmuşdur. Tədqiqatların nəticələrinə nümunə kimi şək. 2.-də yüksək təzyiqli yanacaq nasosunun çıxışındakı təzyiqin *60 bar*, mühərrik valının fırlanma tezliyinin *4000 dəq*$^{-1}$, pyezo-aktyuatorun idarəedici impulsunun davamiyyət müddətinin *0,5 msan* qiymətlərində, sikllik yanacaq verilişinin *6,9 mm*^{3} təşkil etdiyi rejimdə aparılmış hesabi tədqiqatların bəzi nəticələri verilmişdir.

Modelləşdirmə nəticələrinin təhlili göstərir ki, yeni konstruksiyalı forsunka kiçik yanacaq verilişlərində iş qabiliyyətlidir, konstruksiya çeviklik nöqteyi-nəzərindən kifayət qədər effektivdir, forsunkada püskürmə prosesi tam idarəolunandır və konstruksiya lazımi tələblərə cavab verir.

Ədəbiyyat siyahısı

1. Керимов З.Х., Джафарли М.К. Разработка новой конструкции электронно-управляемой форсунки для двигателя с непосредственным впрыском бензина и форкамерно-факельным зажиганием // Azərbaycan Ali Texniki Məktəblərinin Xəbərləri. ADNSU. – Bakı. – 2017. – Cild 19, № 3 (107). – səh. 63-71.
2. Керимов З.Х., Мамедзаде Х.Ш., Джафарли М.К. Форкамерный двигатель с непосредственным впрыском топлива в цилиндр и принудительным зажиганием. Евразийский Патент № 023968 (Номер заявки 201400220). (Дата приоритета с 17.12.2013) Бюллетень ЕАПВ 7′2016.
3. Керимов З.Х. Математическое моделирование гидродинамических процессов с учетом двухфазной среды в граничных полостях дизельной системы впрыска топлива // Авиационно-космическая техника и технология. – Харьков. – 2004. – Вып.8 (16). – с. 63–69.
4. Керимов З.Х. Некоторые результаты математического моделирования волновых процессов в двухфазной среде в дизельной топливовпрыскивающей системе // Двигатели внутреннего сгорания. – Харьков, Украина. – 2004. – №1. – с. 20-24.

HARMONİK TƏSİRLƏRİN ARADAN QALDIRILMASINDA ÖLÇMƏ NƏTİCƏLƏRİNİN HESABLANMASI

Qracova Ş.H.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
adnsu_e_51@mail.ru.

Tədqiqat aparılarkən yeni kompensasiya qurğusu üçün kondensator batareyasına reaktorlar qoşulur. 5-ci harmonikanı azaltmaq üçün yeni qoşulacaq kondensatorla reaktor arasında rezonans tezliyi seçilir [1]. Bu tezlik əsasən müəyyən olunan harmonik qiymətdən (5-ci 250Hs) əsas 20% fərqli seçilir. 5-ci harmonikanı azaltmaq üçün qurulacaq filtrlərdə f_r əsasən 210Hs seçilir. Bu qiymətdən də rezonans nöqtəsi seçilir. Rezonans nöqtəsi $p = 5{,}67$ seçilimişdir.

$$p = \frac{X_L}{X_c}, \% \qquad (1)$$

Kondensatorun uclarındakı gərginlik reaktorlar birlikdə qoşulduğundan.

$$U_{K.U} = \frac{U_n}{1-p} = \frac{380}{1-0{,}05} = 400V \qquad (2)$$

Hər bir kondensatorun şəbəkəyə 40Kvar güc ötürməsi üçün kondensatorun nominal gücü təyin olunur.

$$Q_{kn} = \frac{U_{kn}^2 \cdot (1 - \frac{p}{100}) \cdot Q_k}{U_m^2 \cdot (\frac{50}{f_n})}$$

$$Q_{kn} = \frac{400^2 \cdot 0{,}95 \cdot 40}{380^2 \cdot 1}$$

$$Q_{kn} = \frac{400^2 \cdot 38}{380^2} = 42{,}1Kvar \qquad (3)$$

Yeni seçiləcək kondensatorun gücü 42,1Kvar alınmışdır.

Hesabat nəticəsində Q_{kn} kondensatorunu f_r-də rezonansa gətiriləcək reaktorun induktivliyini seçək:

$$L_n = \frac{fU_{kn}^2}{2\pi f_r^2 \cdot Q_{kn}}$$

$$L_n = \frac{50 \cdot 400^2}{2 \cdot 3{,}14 \cdot 210^2 \cdot 42{,}1} \approx 0{,}7mH$$

Hesabata əsasən avtomatik dəyişən hissənin qurulması məsələsi həll edilir.

Tədqiq olunan müəssisədə 5-ci harmonika çox olduğu üçün qurulacaq filtrli kompensator qurğusunun çoxu 5-ci harmonikaya akord olunmalıdır. Yəni yuxarıda qeyd etdiyimiz kimi $p = 5{,}67\%$ $f_r = 210Hs$

seçilməlidir. Yalnız kompensasiya olunacaq gücün qiyməti artdığı üçün kondensatorun nominal gücü yuxarıdakılardan çox olmalıdır [2]. Kondensatorun nominal gücü artanda isə qoşulacaq reaktorun induktivliyi də dəyişir. Bir kondensatorun şəbəkəyə 50Kvar güc ötürməsi üçün onun nominal gücünü təyin edək:

$$Q_{kn} = \frac{Q_k \cdot U_{kn}^2 \cdot (1 - \frac{p}{100})}{U_m^2 \cdot (\frac{50}{f_n})}$$

$$Q_{kn} = \frac{50 \cdot 400^2 \cdot 0{,}95}{380^2 \cdot 1} = 52{,}5Kvar$$

Müəssisədə 3-cü harmonikalar olduğu üçün qurulacaq süzgəci kompensator qurğusunun qalanı 3-cü harmonikaya akord olunmalıdır. Süzgəcli kompensator qurğusunu 3-cü harmonikaya akord etmək üçün kondensatorla reaktor arasında rezonans tezliyi $f_r = 135Hs$, rezonans nöqtəsi isə $p = 14\%$ seçilir. Bu zaman yeni qoyulacaq kondensatorun uclarındakı gərginlik:

$$U_{kn} = \frac{U_m}{1 - p/100}$$

$$U_{kn} = \frac{380}{1 - 0{,}14} \approx 400V$$

Hər bir kondensatorun şəbəkəyə 50Kvar güc ötürməsi üçün kondensatorun nominal gücünü belə təyin edirik.

$$Q_{kn} = \frac{U_{kn}^2 \cdot (1 - \frac{p}{100}) \cdot Q_k}{U_m^2 \cdot (\frac{50}{f_n})}$$

$$Q_{kn} = \frac{400^2 \cdot 0{,}96 \cdot 50}{380^2 \cdot 1} = 52{,}8Kvar$$

Kondensatoru $f_r = 135Hs - d$ rezonansa gətirəcək reaktorun induktivliyini təyin edək.

$$L_n = \frac{fU_{kn}^2}{2\pi f_r^2 \cdot Q_{kn}}$$

$$L_n = \frac{50 \cdot 400^2}{2 \cdot 3{,}14 \cdot 135^2 \cdot 52{,}5} \approx 1{,}6mH$$

Beləliklə kompensasiya olunan reaktiv gücün sabit hissəsi üçün 2 ədəd gücü 42,1Kvar nominal gərginliyi isə 400V olan kondensator seçirik. Gücü dəyişən hissə üçün isə 12 ədəd 52,5Kvar-lıq kondensatorun seçilməsi məqsədə uyğundur.

Cərəyan və gərginlikdə cəm harmonik pozulmalarının orta qiyməti:

$$CHD_U = \frac{5{,}77 + 5{,}50 + 5{,}74}{3} = \frac{17{,}01}{3} = 5{,}67\%$$

$$CHD_{\text{i}} = \frac{27{,}10 + 29{,}36 + 28{,}68}{3} = \frac{85{,}14}{3} = 28{,}38\%$$

Hesabatdan göründüyü kimi dünya standartlarına görə $(CHD_U \cong 2{,}5 - 3\% \quad CHD_{\text{i}} \cong 10\%)$ müəssisədəki $CHD_U \; v \; CHD_{\text{i}}$ buraxılabilən qiymətdən artıqdır. Cəmi harmonik pozulmalarına görə $\cos\varphi$ qiyməti 0,98-dən 0,93-ə düşmüşdür. Aşağıdakı ifadələrdən istifadə edərək yoxlama aparırıq:

$$\cos\varphi_r = \cos\varphi_1 \frac{1}{(1 + CHD_{\text{i}}^2)}$$

$$\cos\varphi_r = 0{,}98 \frac{1}{1 + 0{,}2^2} = 0{,}98 \cdot 0{,}95 = 0{,}93$$

Güc əmsalı $\cos\varphi = 0{,}93$ alınmışdır.

Yuxarıda qeyd olunduğu kimi müəssisədə 3, 5, 7, 11 və 13-cü harmonikalar mövcuddur. Bunlardan CHD-yə daha çox təsir edən 3, 5 və 7-ci harmonikalardır. CHD-nin 70% 5-ci harmonikanın, 20%-i 3-cü harmonikanın və qalan hissəsi isə 7, 11 və 13-cü harmonikaların üzərinə düşür. 5-ci harmonika üçün P=5,67% f_r=210Hs-li harmonik filtr reaktorları qoyulur. Bu harmonik süzgəclər reaktorları qismən də olsa 7, 11 və 13-cü

harmonikaları da azaldır. P=14% f_r=135Hs-li harmonik süzgəc reaktorları 3-cü harmonikanı önəmli ölçüdə azaltmış olur.

Kompensasiya qurğusunun yenilənməsi üçün qurğu 2 ədəd 40Kvar-lıq sabit qurupdan və 12 ədəd 50Kvar-lıq avtomotik qurupdan yığılmalıdır. Yeni qurulacaq kompensasiya qurğusu həm reaktiv gücü kompensasiya etməli həm də müəssisədəki harmonikaları lazımi ölçüdə azaltmalıdır. Bunun üçn cədvəldən harmonik filtr reaktorları seçilməlidir. Bu harmonik filtr reaktorları seçilərkən neçənci harmonikanın CHD-yə nə qədər təsir etdiyi nəzərə alınmalıdır.

Kompensasiya olunan reaktiv gücün sabit hissəsi 80Kvar-dır. Bunun ücün cədvəldən iki ədəd 40Kvar $p = 14\%$ f_r=135Hs-lik harmonik filtr reaktoru seçilir. Avtomatik dəyişən hissəsi üçün 7 ədəd 50Kvar-lıq $p = 5{,}67\%$ f_r=210Hs-lik harmonik və 5 ədəd 20Kvar-lıq $p = 14\%$ f_r=135Hs-lik harmonik filtr reaktorları seçilir.

Müəssisədə ən çox 5-ci harmonika (70%), az miqdarda isə 7, 11 və 13-cü harmonikalar olduğu üçün 9 ədəd $p = 5{,}67\%$ f_r=210Hs-lik harmonik filtr reaktorundan istifadə olunur.

Müəssisədə $p = 14\%$ f_r=135Hs-lik harmonik filtr reaktorları 3-cü harmonikanı böyük miqdarda azaltmışdır. Harmonik filtr reaktorlarının istifadəsindən sonra CHD-nin qiymətləri standartlara görə buraxılabilən qiymətlərdən aşağı düşdüyü bir daha təstiqlənir.

Ədəbiyyat siyahısı

1. Рудинский Л.А. «Измерение нестабильности электрических напряжений» М-1970
2. Жежеленко «Показатели качества электроэнергии на промышленных предприятиях», Москва «Энергия» 1977.

BÖHRAN TƏZYİQİNDƏN YÜKSƏK TƏZYİQLƏRDƏ İSTİLİK MÜBADİLƏSİ

[1]Məmmədov F.X., [2]Əliyeva S. X.

[1]Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, [2]Sumqayıt Dövlət Universiteti

Energetika, kimya, neftkimya, aviasiya və digər mövcud olan bütün sənaye sahələrində texnoloji proseslərin təşkili və həyata keçirilməsində istifadə edilən istilik energetik qurğularının səmərəliliyinin və etibarlılığının artırılması elmi və praktiki əhəmiyyət kəsb edən mühüm məsələdir. Araşdırmalar göstərir ki, bü mühüm məsələnin həlli yollarından biri həmin qurğularda istifadə edilən işçi cismin böhran ətrafı və böhran təzyiqindən yüksək təzyiqlərə keçirilməsidir. Bununla əlaqədar olaraq həmin şəraitdə konvektiv istilikvermə prosesin tədqiq edərək istilikvermənin qanunauyğunluqlarının mükəmməl öyrənilməsi və alınmış təcrübi nəticələr əsasında mühəndis praktikasında istifadə edilən hesabat tənliklərinin və tövsiyyələrin işlənib hazırlanması önəmli məsələlərdəndir.

Beləliklə, hazırki iş $P>P_{kr}$ şəraitində konvektiv istilikvermə prosesinin təcrübi tədqiqinə həsr edilmişdir. Tədqiqatlar prosesin rejim parametrlərinin geniş dəyişmə intervalında $P=(1{,}02...3{,}50)P_{kr}$, $T_s=(0{,}58...3{,}00)T_{kr}$, $T_M=(0{,}52...1{,}602)T_{kr}$, $\rho w=(150...3668)\frac{kq}{m^2 \cdot s}$, $q=(0{,}12...5{,}00)\cdot 10^6 \frac{Vt}{m^2}$ məcburi dövran konturlu qurğuda qərarlaşmış istilik rejimində aparılmışdır. Tədqiqat qurğusu, tədqiqatların aparılma üsulu haqqında ətraflı məlumat ədəbiyyat [1] verilir. Mayenin dövranı və təzyiqin yaradılması yüksək təzyiqli üç plunjerli nasos vasitəsilə həyata keçirilmişdir. Tədqiqatlarda daxili diametri 2...5 mm, qalınlığı 0,46...0,50 və qızdırılan uzunluğu 100...500 mm olan 0X18H10T və 12X18H10T markalı paslanmayan poladdan hazırlanmış borulardan istifadə edilmişdir. Boru alçaq gərginlikli dəyişən elektrik cərəyanı ilə qızdırılmışdır. İstilikvermə əmsalı təyin edilərkən mümkün olan maksimal xəta 19%, orta kvadratik xəta 14% təşkil etmişdir ki, bu da baxılan şərait üçün buraxıla bilən həddədir.

Tədqiqat obyekti kimi aromatik karbohidrogenlərin nümayəndəsi olan etilbenzoldan istifadə edilmişdir (P_{kr}=3,7195 MPa, T_{kr}=619,56K).

Göstərilən qurğuda prosesin rejim parametrlərinin irəlidə qeyd edilən dəyişmə intervallarında müxtəlif seriyalı təcrübələr aparılaraq əldə edilmiş nəticələr ümumi qəbul edilmiş üsulla işlənərək kanalın fəzadakı vəziyyətinin, mühitin hərəkət istiqamətinin, kütlə sürətinin, təzyiqin, mayenin giriş temperaturunun dəyişməsinin və digər amillərin konvektiv istilikvermə prosesinin intensivliyinə təsiri öyrənilərək bir sıra mühüm nəticələr əldə edilmişdir. Qeyd edilmişdir ki, kanalın fəzadakı vəziyyətindən və mayenin hərəkət istiqamətindən asılı olmayaraq istilikvermə əmsalı $t_s^d \geq t_m$ şəraitində artır.

Mühitin giriş parametrlərindən təzyiq və temperaturunun artması ilə istilikvermənin intensivliyinin azaldığı, kütlə sürətinin artması isə onun intensivliyinin artdığı təcrübi dəlillərlə sübuta yetirilmişdir. Böhran

təzyiqindən yüksək təzyiqlərdə konvektiv istilikvermənin normal rejimi müstəsna olmaqla mövcud olan digər rejimlərində (ilkin intensivləşən, nisbətən zəifləşən, dayanıqlı intensivləşən) boru divarının soyudulan səthinin temperaturunun həm kanalın uzunluğu boyunca və həm də istilik seli sıxlığından asılı olaraq qeyri-monoton dəyişməsi müəyyən edilmişdir.

$t_s^d \geq t_m$ şəraitində prosesin əlavə səsli effektlərlə mayenin təzyiqi və boru divarının səthinin temperaturunun müxtəlif amplitudaya malik döyüntülərlə müşayiət edildiyi və sınaqlar zamanı boruların sıradan çıxaraq qəza hallarının baş verməsi müşahidə edilməmişdir.Müəyyən edilmişdir ki, istilikvermənin qeyd edilən titrəyişli rejimlərində ölçülən kəmiyyətlərin (mayenin təzyiqi və səthin temperaturu) döyüntülərinin amplitudları kanalın fəzadakı vəziyyətindən asılıdır. Belə ki, üfüqi və şaquli borularda alınmış nəticələr müqayisə edilərək aşkar edilmişdir ki, üfüqi borularda təzyiqə görə amplitud 2, səthin temperaturuna görə isə 2,5 dəfə az alınır. İstilik mübadilə aparat və qurğularının hesabatı və layihələndirilməsində bu vacib nəticənin də nəzərə alınması zəruridir.

Təcrübi nəticələrdən istifadə edərək istilikvermənin mümkün olan bütün mövcud rejimlərinin (intensivləşən, nisbətən zəifləşən və dayanıqlı intensivləşən) başlangıc və son sərhədlərini müəyyənləşdirmək üçün empirik tənliklər və tövsiyyələr işlənib hazırlanmışdır.

Konvektiv istilikvermə əmsalı ilə istilik seli sıxlığı arasındakı əlaqəni müəyyən etmək üçün loqarifmik koordinatlarda α=Ϯ(q) asılılığı qurularaq aşkar edilmişdir ki, $t_s^d \geq t_m$ şəraitində α-nı kifayət dəqiqliklə hesablamaq üçün təkilif edilən $\alpha = c \cdot q^n$ (1) üstlü tənliyindən istifadə edilə bilər. (1) tənliyindəki c və n sabitləri mayenin hərəkət istiqamətindən və kanalın fəzadakı vəziyyətindən asılı olub, təcrübi nəticələrə əsasən təyin edilir.

Baxılan problemin müasir vəziyyəti göstərir ki, böhran təzyiqindən yüksək təzyiqlər şəraitində mayelərin istilikverməsinin intensivliyini qiymətləndirmək üçün mühəndis praktikasından istifadə edilə biləcək yekun kriterial tənliklərinin təklif edilməsi olduqca çətindir. Bunun əsas səbəbinin baxılan şəraitdə konvektiv istilikvermə prosesinin mexanizmi və prosesin fiziki təbiətinin kifayət səviyyədə öyrənilməməsi olduğunu ehtimal etmək olar. Ona görə də böhran təzyiqindən yüksək təzyiqlərdə müxtəlif mayelərin istilikverməsinin tədqiqi göstərilən məsələ tam həllini tapana kimi davam etdirilməlidir.

Ədəbiyyat siyahısı

1. Исаев Г.И. Исследование теплоотдачи при вынужденном движении н-гептана и околокритическом давлений жидкости. Промышленная теплотехника, 1981, т.3, № 4, с.33-37.

İSTİLİK MÜBADİLƏ QURĞULARINDA QAYNAMA PROSESİNİN TƏDQİQİ

Məmmədova C. P.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

İstilik energetik qurğularda müxtəlif maddələrlə işləyən istilik mübadilə aparatları geniş tətbiq olunur. Texnikanın tələbi və inkişafı belə aparatlarda qaynama prosesinin öyrənilməsini tələb edir. Buxar hasil edən istilik mübadilə aparatlarının etibarlı işləməsi rejim parametrlərinin düzgün seçilməsindən asılıdır. Belə ki, rejim parametrləri düzgün seçilmədikdə və ya istismar zamanı rejimə düzgün əməl etmədikdə, qurğuda mayenin qaynaması zamanı istilik yükünün müəyyən qiymətində qaynamanın böhranı yaranır, metal qızır və bu da qurğuda qəzalara səbəb olur və sistemdə dayanmalar baş verir. Bunun üçün qaynama şəraitində boru divarının temperatur rejimini və qaynamanın böhranını tədqiq etmək vacib məsələlərdən biridir. Ədəbiyyatlarda boruda mayenin qaynamasına aid bir çox təcrübi tədqiqatlar vardır. Bu tədqiqatlar əsasən su üçün aparılmışdır [1-2].

Bizim tədqiqatlar aromatik karbohidrogenlərin nümayəndəsi olan toluolla aparılmışdır. Aromatik karbohidrogenlər üçün qaynamanın böhranı az tədqiq olunmuş və alınan nəticələr müxtəlif rejimlərdə bütün karbohidrogenlər üçün tətbiq oluna bilməz. Qaynama prosesi çox mürəkkəb prosesdir və bunu nəzəri yolla həll etmək mümkün deyildir. Bu proses müxtəlif maddələr üçün rejim parametrlərinin dəyişməsinin müəyyən intervallarında təcrübi yolla tədqiq edilir və istilikvermə əmsalının böhran istilik yükünün hesablanması üçün kriterial tənliklər alınır.

Bu məqsədlə elmi laboratoriyada olan təcrübə qurğusunda toluolla müxtəlif rejim parametrlərində şaquli boruda qaynama prosesində təcrübələr aparılmış və təhlili olunmuşdur. Toluol yaradıcı karbohidrogendir, belə ki, bundan başqa maddələr almaq mümkündür və texnoloji proseslər zamanı istilik mübadiləsindən istifadə edilir. Təcrübə qurğusu paslanmayan poladdan hazırlanıb və qapalı kontur üzrə işləyir. Sistemdə təzyiq yaratmaq üçün dörd plunjerli nasosdan istifadə edilir. Təcrübə sahəsi diametri d_{xar}=6 mm, d_{dax}=4 mm, uzunluğu 400 sm olan şaquli borudur və elektrik cərəyanı ilə qızdırılır. Təcrübə sahəsi istilik izolyasiyası ilə örtülmüşdür.

Hər bir təcrübədə istilik balansı yoxlanmışdır. Mayenin boruya giriş və çıxış temperaturu və boru divarının temperaturu termocütlər vasitəsilə ölçülmüş və göstərici potensiometrlə qeyd olunmuşdur. Termocütlər borunun uzunluğu boyu aralarında bərabər məsafələrlə yerləşdirilmişdir.

Toluolun qaynama prosesində boru divarının temperatur rejimi tədqiq olunmuş, təcrübələr verilmiş təzyiqdə toluolun doyma temperaturuna uyğun aparılmışdır.

Təcrübələrin nəticələrinə əsasən divarın temperaturunun uzunluq boyu dəyişməsi $t_d = f(\ell)$ qrafiki qurulmuşdur (şək. 1). Təcrübələr təzyiqin P=3 MPa, kütlə sərfinin $\rho u = 775\ kq/m^2$ qiymətlərində və müxtəlif istilik yüklərində aparılmışdır. Qrafikdən görünür ki, boru divarının temperaturu doyma temperaturundan kiçik olduqda $(t_d > t_{doy})$ konvektiv istilik mübadiləsi birfazlı seldəki kimi davam edir. İstilik yükü artdıqca divarın temperaturu artır və toluolun həmin təzyiqdə doyma temperaturuna çatır $(t_d \approx t_{doy})$ və qaynama prosesi başlayır və divarın temperaturu sabit qalır. Bu da qaynama prosesinə uyğundur (şək.1 əyri 3). Borunun əvvəlində x=100 mm məsafəyə qədər adi konvektik istilik mübadiləsi gedir, qalan hissədə isə bütün uzunluq boyu qaynama prosesi gedir. Divarın temperaturunu və istilikvermə əmsalını hesabladıqda borunun bu sahələrini ayırmaq lazımdır, hansı ki, bu sahələrdə istilikvermə qanunauyğunluqları müxtəlifdir. Bu halda divarın temperaturunun uzunluq boyu dəyişməsini borunun başlanğıc və qalan hissələri üçün müxtəlif tənliklərlə yazmaq lazımdır. Bu prosesi yaxşı öyrənmək üçün qaynamada divarın temperaturunun uzunluq boyu dəyişməsi və mayenin borunun uzunluq boyu dəyişməsi şəkil 2-də göstərilib. Şəkil 2-dən görünür ki, istilik yükünü artırdıqda adi konvektiv istilik mübadiləsinin uzunluğu azalır, toluolun qaynama prosesinin baş verdiyi boru uzunluğu isə artır. Borunun sonunda divarın temperaturu artır və qaynamanın böhranı baş verir. Beləliklə, borunun uzunluğu boyu əvvəlcə birfazlı selin konvektiv istilik mübadiləsi, sonra borunun orta hissəsində ikifazlı seldə qaynama prosesi və borunun sonunda qaynamanın böhranı yaranır. Ən çox qaynama böhranının yaranması praktiki cəhətdən maraqlıdır və bu proses bir çox amillərdən asılıdır. Ümumilikdə qaynamanın böhranı mayenin təzyiq və temperaturundan, kütlə sürətindən, buxar tutumundan, mayenin boruya giriş temperaturundan və s. faktorlardan asılıdır. Qaynama böhranı zamanı divarın temperaturu sıçrayışla artır, bu da boru divarının qızmasına və dağılmasına səbəb ola bilər. Buna görə seldə qaynama böhranının yarandığı kritik istilik yükünü təyin etmək lazımdır.

Şəkil 3-də divarın temperaturunun istilik yükündən asılılığı göstərilmişdir. Bu asılılıq borunun $x/d = 80$ en kəsiyi üçün qurulmuşdur. Qrafikdən görünür ki, verilmiş rejim parametrlərində $q \approx 2{,}3 \cdot 10^5\ Vt/m^2$ qiymətinə qədər (şək.3 AB sahəsi) adi konvektiv istilik mübadiləsi baş verir və bu sahədə divarın temperaturu birfazlı sel üçün konvektiv istilikvermənin tənliyindən təyin oluna bilər. İstilik yükünün $q \approx 2{,}5 \cdot 10^5\ Vt/m^2$ qiymətindən $q = 4{,}7 \cdot 10^5\ Vt/m^2$ qiymətinə qədər intensiv qaynama prosesi gedir (şək.3 BC sahəsi). Bu sahədə dayanıqlı qaynama prosesi gedir, aparatı bu rejimdə işlətmək məqsədəuyğundur və bu rejimi saxlamaq lazımdır. Bu rejimdə divar temperaturunun nisbətən az qiymətində aparatı etibarlı işlətmək olar. İstilik yükünü yenə artırdıqda divarın temperaturu yenə artır və CD sahəsi əmələ gəlir. Bu sahədə qaynamanın böhranı yaranır. Bu təcrübədə $q = 4{,}7 \cdot 10^5\ Vt/m^2$ qiymətində divarın temperaturu şiddətlə artır. İstilik mübadilə aparatlarını layihə edərkən və istismar zamanı mayenin qaynama prosesində istilik yükünün böhran qiymətini bilmək lazımdır. Böhran istilik yükünü təyin etmək üçün müxtəlif rejim parametrlərində yeni təcrübələrin aparılmasını tələb edir. Qeyd etmək lazımdır ki, kütlə sürətinin, təzyiq və temperaturun verilmiş qiymətlərində toluolun qaynamasının dayanıqlı rejimi istilik yükünün və nisbi entalpiyanın müəyyən qiymətinə qədər davam edir. İstilik yükünün kütlə sürətinə nisbətinin $(q/\rho u)$ müəyyən qiymətində qaynamanın dayanıqlı rejimi böhran yükünün əmələ gəlmə rejiminə keçir. Beləliklə, qaynama rejimində istilikvermə əmsalını və ya divarın temperaturunu hesablamaq üçün borunun sahəsini üç hissəyə ayırmaq lazımdır. Birfazlı konvektiv istilikvermə, dayanıqlı qaynama rejimi, böhran istilik yükünün yarandığı rejimlər üçün bu kəmiyyətləri ayrılıqda hesablamaq lazımdır.



Şək.1. Divarın temperaturunun borunun uzunluğu boyu dəyişməsi

P=3 MPa; $\rho u = 775\,kq/m^2 \cdot S$; $q \cdot 10^{-5}\ Vt/m^2$, 1 – 1,685; 2 – 2,187; 3 – 2,787

Şək.2. Divarın və mayenin temperaturunun borunun uzunluğu boyu dəyişməsi



Şək.3. Divarın temperaturunun istilik seli sıxlığından asılılığı P=3 MPa; $\rho u = 775\,kq/m^2 \cdot S$

Ədəbiyyat siyahısı

1. Дорошук В.Е. «Кризисы теплообмена при кипении воды в трубах». М.:Энергоатомиздат. 1983.

2. Тонг Л. «Кризис кипения и критический тепловой поток». М.:Атомиздат. 1976.

3. Məmmədova C.P., Babayeva S.Ş., Abdullayeva G.K., Məmmədov İ.M. “Kritikdən aşağı və kritik ətrafı təzyiqlə işləyən şaquli buxarlandırıcı borularda temperatur rejimləri”. “Energetikanın problemləri”, № 3, 2016, Bakı.

4. Məmmədova C.P., Məmmədov İ.M. “Böhran təzyiqindən aşağı təzyiqlərdə suyun şaquli boruda düz və əks axını zamanı istilikvermə əmsalının tədqiqi”. Elmi Əsərlər, Fundamental elmlər, № 1, 2018.

TİKİLMİŞ POLİETİLEN İZOLYASİYALI KABELLƏRİN İSTİSMAR MÜDDƏTİNİN PROQNOZLAŞDIRILMASI VƏ İSTİSMAR XARAKTERİSTİKALARININ YAXŞILAŞDIRILMASI ÜSULLARI

Orucov A.O., Əliyev H.S., Camalov M.Ə.
Azərbaycan Texniki Universiteti

Tikilmiş polietilen izolyasiyalı kabellərin istismarında köhnəlmə prosesi baş verir ki, bunun nəticəsində izolyasiyanın elektrik möhkəmliyi zamandan asılı olaraq aşağı düşür. Nəticədə kabel xətlərində imtinalar, tələb olunan gərginlikdən aşağı gərginliklərdə və daha qısa müddətdə baş verir.

TPE izolyasiyalı KX –in köhnəlməsinin əsas səbəbi, izolyasiya sistemində olan müxtəlif təbiətli qeyri-bircins yerlərin (hava boşluğu, nəmlik) olmasıdır.

Sahə qeyri-bircinsli olan yerlərdə, enerjinin sıxlığı artdıqca, mühitin aqreqat halı və fiziki xassələri dəyişir. Mühit keçiricilik halı alır və bu səbəbdən də QB yaranır. Elektromaqnit spektrdə qismi boşalmalar pKl –la ölçülür. Hər bir tək-tək QB enerjisi çoxda böyük olmur-vahiddən bir neçə yüz pCoula qədər dəyişir və buna görə də ilk anlarda KX-in işləmə qabiliyyətinə təsir göstərmir. Lakin, boşalmaların intensivliyi artdıqca izolyasiya deqradasiyaya uğrayır və bu proses kabelin deşilməsinə və nəticədə imtinasına gətirib çıxarır.

Ehtimal olunur ki, QB güc kabel xətlərinin etibarlı istismar resursunu aşağı salır. KX etibarlı istismar resursu haqda mütəmadi məlumat əldə etmək üçün onların diaqnostikasının aparılması vacibdir.

İşin təcrübi hissəsi

Diaqnostikanın məqsədi –kabel xətlərində qismi boşalmalar yarana biləcək zəif yerləri vaxtında aşkarlamaq, QB-ın təhlükəlik dərəcəsini təyin etmək, bununlada KX-ın etibarlı resursunu müəyyənləşdirməkdir. Bu zaman diaqnostika edilən KX parametrlərinin (QB alışma gərginliyi, ayrılan enerjinin miqdarı, itki bucağının tangensi (tgδ), izolyasiyanın tutumu və elektrik müqaviməti) əsas kəmiyyət göstəricilərində təhlil olunmalıdır. Diaqnostikanın nəticələrinə görə istismarçı heyət aşağıdakı məlumatları əldə edir:

- kabelin qalıq resursu haqda maksimal dəqiq proqnoz;
- KX sonrakı istismar şərtləri haqda tövsiyyələr;
- növbəti diaqnostikanın keçirilmə müddəti;
- proflaktik sınağın dövriliyi və onların parametrləri (tətbiq olunan gərginliyin səviyyəsi, tezliyi və təsir müddəti).

Izolyasiyada zədələrin inkişafına təsir edən faktorlara aşağıdakıları aid etmək olar:

- elektrik sahəsi;
- su;
- mexaniki zədələr;
- vaxt.

Bu faktorların təsirində izolyasiyada “su triinqləri” yaranır və inkişaf edir.

Keçən əsrin sonlarına qədər KX sınağı yüksəldilmiş sabit gərginliklərdə aparılırdı (4-6) U_n, U_n –kabelin nominal işçi gərginliyidir.

Belə bir sual meydana çıxır: Damarla metal ekran arasına tətbiq olunmuş, yüksək qiymətli sabit gərginliklə sınaq bu zədələri aşkar etməyə imkan verirmi? Əlbəttə yox. Səbəb isə qeyd olunan defektlərin kabel izolyasiyasının bütövlüyünü pozmamasıdır.

Bununla yanaşı, xaricdə aparılan geniş miqyaslı tədqiqatlar göstərdi ki, yüksəldilmiş sabit gərginliklə sınaq, nəinki kabelin vəziyyəti haqda adekvat qərar qəbul etməyə imkan verir, əksinə, izolyasiyanı kifayət qədər zəiflədir. Sübut olunmuşdur ki, yüksəldilmiş sabit gərginliklə sınaq kabelin istismar müddətini azaldır və su triinqlərinin ölçülərini böyüdür.

Ona görə də keçən əsrin sonlarından başlayaraq TPE izolyasiyalı kabellərin diaqnostikası zamanı sınaqların çox alçaq tezlikli (ÇAT) dəyişən gərginliklərdə aparılması qabaqcıl energetika kompaniyaları tərəfindən tövsiyə olunmuşdur. Bu halda kabelə tətbiq olunan sınaq gərginliyi izolyasiyaya dağıdıcı təsir göstərmir və eyni zamanda izolyasiyadakı təhlükəli zədələri aşkar etməyə tam şərait yaradır.

Çox alçaq tezliklərdə kabellərin sınaqlarının həyata keçirilməsi üçün xarici kompaniyalar tərəfindən bir sıra cihazlar və üsullar təklif olunur.

Azərişıq ASC –nin Tədris Mərkəzinin mütəxəssisləri ilə birlikdə bizim tərəfimizdən Bakı şəhərini bir sıra enerji şəbəkələrində TPE izolyasiyalı kabellərin diaqnostikası məqsədilə sınaqlar aparılmışdır. Bu məqsədlə Tədris mərkəzindəki səyyar sınaq laboratoriyasından istifadə olunmuşdur.

Sınaq laboratoriyası ən müasir çox alçaq tezlikli yüksək gərginlikli sınaq qurğusu ilə təmin olunmuşdur.

Diaqnostikanın inteqral qiymətləndirilməsi iki kriteriyaya əsasən aparılmışdır:

- dielektrik itki bucağı tangensinin qiymətinə görə;
- XLPE izolyasiyada qismi boşalmaların səviyyəsinin ölçülməsi ilə.

Kabel xətlərində tgδ –nın -ölçülməsi

Məlumdur ki, dielektrik itki bucağının tangensi yüksək gərginlikli XLPE izolyasiyalı kabellərdə yaranan itkiləri bir başa xarakterizə edir və digər parametrlərlə (ε,ρ) müqayisədə struktur dəyişikliyinə və defektlərə daha çox həssasdır.

tgδ –nın qiymətinin ölçülməsi kabel xətlərində baş verə biləcək problemlərdən əvvəl izolyasiyada yaranan zədələri təyin etməyə imkan verir ki, bu da xətlərdə baş verən problemlərdən sonra onların aradan qaldırılması üçün xeyli maliyyə vəsaitinin və vaxt sərfinin qarşısını alır.

tgδ –nın sınağına görə alınmış nəticələr şəkil 1-də göstərilmişdir.



Şəkil 1 Yeni və istismarda olan 6-35 kv gərginlikli XLPE kabellərdə tgδ –nı sınaq gərginliyindən

XLPE izolyasiyalı kabelin vəziyyətinin tgδ –a görə qiymətləndirmə kriteriyaları:

- kabelin vəziyyəti aşağıdakı şərt ödənildikdə yaxşı hesab edilir:
  $tg\delta(2U_0)<0,12\%$ və ya $tg\delta(2U_0) - tg\delta(U_0)<0,06\%$
- aşağıdakı şərtlər daxilində isə kabelin vəziyyəti pisdir (kabel təcili olaraq dəyişdirilməlidir).
  $tg\delta(2U_0)>0,22\%$ və ya $tg\delta(2U_0) - tg\delta(U_0)<0,1\%$

Digər yerdə qalan hallarda kabel xətlərinə yüksək nəzarət və cari imkanlardan asılı olaraq onların dəyişdirilməsi tələb olunur.

Qismi boşalmaların səviyyəsinin ölçülməsi üsulu –kabellərin zədəli yerlərini lokallaşdırılması

QB izolyasiyanın daxilində və səthində baş verən çox kiçik güclü qığılcım boşalmasıdır. Bu boşalmalar, yuxarıda qeyd olunduğu kimi izolyasiyanın daxilində və səthində olan mikro-qeyri bircinsliklərdə meydana çıxır. Zaman keçdikcə periodik baş verən QB–lar izolyasiyanı dağıdır və son olaraq izolyasiya deşilir.

1.Mürəkkəb sistemin fəaliyyəti və onun xassələri haqqında, əgər həmin sistem yeni layihələndirilirsə, onun layihələndirilməsinin ilkin mərhələsində yaradılmasının məqsədəuyğunluğu barədə qərar qəbul etmək imkanlarının olması; əgər sistem fəaliyyətdə olan proseslər toplusundan ibarətdirsə və onlar üzərində eksperimentlərin aparılması mümkün deyilsə və yaxud həddindən artıq baha basa gəlirsə, sistemin fəaliyyətinə müdaxilə etmədən eksperimentlərin məqsədi sistemə daxili və xarici təsvirlərin sərhədlərini təyin etməkdirsə, onun fəaliyyətinə xələl gətirmədən eksperimentlərin aparılmasının mümkünlüyü.

2. İdarəetmə strategiyalarının sintezi və tədqiqi.

3. Sistemin perspektivdə fəaliyyətinin planlaşdırılması və proqnozların təyini.

4. Sistemin idarə olunması ilə məşğul olan heyətin öyrədilməsi və s.

Məruzədəenergetika sistemlərinin ilkin layihələndirmə mərhələsində imitasiya modelləşdirilməsi (İM) ilə tədqiqinin avtomatlaşdırılmış layihələndirmə alətinin arxitekturasının işlənməsinə baxılır.

Təklif edilən avtomatlaşdırılmış layihələndirmə alətinin arxitekturası şəkildə göstərilmişdir.

Arxitekturadan göründüyü kimi istehsal sistemlərinin imitasiya modelləşdirilməsi ilə tədqiqi müxtəlif təyinatlı mütəxəssislərin birgə fəaliyyəti nəticəsində həyata keçirilir. Tədqiqat obyekti səviyyəsində tədqiq olunacaq obyektin struktur modeli seçilmiş sahə üzrə mütəxəssis tərəfindən öyrənilir. Struktur modeldə həmin obyektə daxil olan dinamiki qurğuların və köməkçi avadanlıqların tipik modelləri, onların yerinə yetirdiyi funksiyalar, əsas texniki xarakteristikaları və s. öz əksini tapmalıdır. Əksər hallarda İM-dən əvvəl tədqiq olunan obyektin statik analizinin aparılması tələb olunur. Bu proses, haqqında daha ətraflı biliklərin əldə olunmasını və İM-də səhvlərin həcminin azalmasını təmin etməlidir. Statik analizin nisbətən sadə obyektlərdə yerinə

yetirilməsi həmin sahə üzrə texnoloqların və ekspertlərin birgə əməyi nəticəsində həyata keçirilir. Mürəkkəb İS-də statik analizin yerinə yetirilməsində CASE – texnologiyalarından geniş istifadə edilir.

Mürəkkəb sistemin modelinin qurulması onda baş verən proseslərin yazılışından başlanır. Hər bir proses nisbətən sadə elementlər çoxluğundan –fəaliyyətlərdən təşkil olunur. Mürəkkəb sistemlərdə fəaliyyətlər ümumi, adətən məhdudlaşdırılmış resurslardan istifadə etməklə paralel, asinxron və kombinəedilmiş rejimlərdə özlərini göstərirlər. Odur ki, İM-i yaradanlar mürəkkəb sistemin proseslərini və onların tərkib hissələri olan fəaliyyətləri, eyni zamanda digər layihə edənlərlə informaiya mübadilələrini ümumi dildə yerinə yetirməyi mükəmməl bilməlidir. Bu məqsədlə fəaliyyətlərin təsviri və onların qarşılıqlı əlaqələrinin təyini diaqramları metodologiyası işlənməlidir. Diaqramların qurulması mürəkkəb sistem haqqında biliklərin formalizə olunması üçün köməkçi addım hesab olunur və layihənin bütün iştirakçıları arasında sıx əlaqə yaratmaqla modelləşdirmənin ilkin mərhələlərində müxtəlif səhvlərin aşkarlanıb aradan qaldırılmasını təmin edir.



Şəkil 2. İstehsal sisteminin İM ilə tədqiqinin avtomatlaşdırılmış layihələndirmə alətinin arxitekturası

Bu funksiyaları CASE-texnologiyaları (Computer Aided System Engencerinq) ilə səmərəli yerinə yetirmək olar. Bu texnologiyalardan realizə olunma həcminə görə daha çox istifadə olunan sistemlərin struktur analizi və layihələndirilməsi texnika və vasitələri (Struktured Analysis and Design Technique-SADT)-texnologiyalarıdır [3]. SADT- texnologiyaları içərisində də daha geniş yayılmışı spesifikasiyaların inteqral yazılışı metodu (İntegrated Computer-Aided Definition Method-)- texnologiyaları hesab olunur . İDEF ABŞ-da ICAM (Integrated Computer Aided of Manufacturing –istehsalata inteqrallaşdırılmış kompüter köməyi) dövlət proqramı çərçivəsində yaradılmış və onun da müxtəlif təyinatlı versiyaları mövcuddur: İDEF0- funksional modelləşdirmə; İDEF1- informasiya modelləşdirməsi; İDEF3- proseslərin vəziyyəti və iş ardıcıllıqlarının yazılışı metodu və s.

CASE- texnologiyaların tədqiqinin nəticələrini ümumiləşdirərək göstərmək olar.

Ədəbiyyat siyahısı

1. Ахмедов М.А., Ахмедова С.М. Разработка архитектуры инструмента автоматизированного проектирования имитационной модели гибкого автоматизированного модуля // Системы управления и информационные технологии. Научно-технический журнал.№ 4.1(62).2015.с.104-107.

2.Емельянов В.В., Ясиновский С.И. Имитационное моделирование системы: М.: Изд-во МГТУ им. Н.Э.Баумана, 2009.-584с.: ил.(Информатика в техническом университете).

3. Федотова Д. Э., Семенов Ю. Д., Чижик К. Н. CASE-технологии. – М.: Горячая линия – Телеком, 2005. - 160 с.: ил.

İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNDƏ RSA ALQORİTMİNİN İŞLƏNMƏSİ

İsgəndərova G.A., Hüseynov K.K.

Milli Aviasiya Akademiyası

Isgenderova-gunay90@mail.ru

Növündən və xarakterindən asılı olmadan baş verə biləcək istənilən təhlükələrin qarşısının alınması, başqa sözlə, sistemdə toplanan, saxlanan və emal olunan, eləcə də şəbəkə vasitəsilə ötürülən informasiyanın təhlükəsizliyinin təmin olunması məqsədilə indiyədək çoxlu sayda müxtəlif üsullar, vasitələr və tədbirlər sistemi işlənib hazırlanmışdır.

Məxfi informasiyanın məzmununun kənar şəxslər tərəfindən oxunmasının qarşısını almaq üçün atılan ciddi addımlardan biri də informasiyanın mənasının və məzmununun gizlədilməsi,yəni şifrələməsi üsullarının tətbiqindən ibarətdir. İnformasiyanın şifrələnməsi rəqib qarşısında daha ciddi bir maneənin yaradılması təmin edir. Şifrələmə üsulları dedikdə istənilən formada olan, o cümlədən disk qurğularında saxlanılan və ya kompyuterdə emal olunan, eləcə də rabitə kanalları vasitəsilə ötürülən informasiyanın məzmununun gizlədilməsi üsulları başa düşülür. Bu üsullardan biri də RSA alqoritmidir.

RSA (Rivest,Shamir və Adleman soyadlarından götürülmüşdür)-açıq açarlı kriptoqrafik alqoritm,böyük tam ədədlərin sübutu probleminin hesablama mürəkkəbliyinə əsaslanır.RSA kriptosistemi şifrləmə və rəqəmsal imza üçün ilk yararlı sistemdir.

RSA alqoritmi belə işləyir: “ p „və “ q „ kimi iki kifayət qədər böyük sadə ədədlər götürülür və onların hasilləri tapılır.Bu hasili n ilə işarələnir və $\varphi(n)=(p-1)(q-1)$ hesablanır. $\varphi(n)$ -Eyler funksiyası, n -isə modul adlanır.Sonra aşağıdakı şərti ödəyən

$$1<e<(p-1)(q-1) \text{ yəni } 1<e<\varphi(n)$$

“ e ” kəmiyyəti seçilir.Bu $(p-1)(q-1)$ ədədi ilə ümumi bölənə malik deyildir.Sonra elə bir “ d ” ədədi seçilir ki, $(e*d-1)$ ifadəsi $(p-1)(q-1)$ -ə bölünsün.

Burada

e -açıq (publik) göstərici.

d -şəxsi(private) göstərici.

(e,n) - RSA-nın açıq(publik) açar.

(d,n) - RSA-nın şəxsi(private) açar.

$\varphi(n)$ modulundan e ədədinə əks olan multiplikativ d ədədi hesablanır.Yəni $d \cdot e \equiv 1(\mathrm{mod}\varphi(n)) . d$ ədədi gizli eksponent adlanır.

Şifrələmə və deşifrələmə.

Fərz edək ki,ƏliAygünə m məlumatını göndərmək istəyir.Məlumat 0-dan $n-1, m \in Z_n$ intervalında olan tam ədəddir.

Alqoritm

- (e,n)-ni Aygünün açıq açarı kimi götürək;
- m açıq mətndir;
- Aygünün açıq açarından istifadə edərək məlumatı şifrələyək:

$c = E(m) = m^e \bmod n$ (1).

Alqoritm

- Əlinin deşifrələmə açarını c qəbul edək;
- (d,n)-ni bağlı açar götürək;
- Deşifrələmə açarını tətbiq edək: $m = D(c) = c^d \bmod n$ (2).

Burada e-şifrələmə, d-deşifrələmədir.Burada biz e və d-ni elə seçməliyik ki,onların tapılması kifayət qədər çətin olsun.Bunun üçün ikinci birtərəfli funksiya tapılmalıdır ki, d-ni tapmaq mümkün olsun.Onun tapılması üçün Evklidə dönək.

2000 il bundan əvvəl Evklid göstərdi ki,hər bir ədəd yeganə yolla sadə vuruqlara ayrılır,hansını gizli açar hesab etmək olar.Böyük ədədlər üçün bunun edilməsi isə kifayət qədər çətin məsələdir və bunun həll edilməsi üçün çox vaxt tələb olunur.

Koks bunun üçün aşağıdakıları irəli sürdü:

Fərz edək ki,Alisa təsadüfi yolla $p = \underbrace{123\ldots9}_{150\ rqmli\ dd}$ $q = \underbrace{234\ldots9}_{150\ rqmli\ dd}$ seçdi,sonra isə $n = \underbrace{567\ldots9}_{300\ rqmli\ dd}$ ədədini tapmaq üçün onu bir neçə kompyuterdə illər tələb olunacaq.

İndi isə Koksa elə funksiya tapmaq tələb olunur ki,bu funksiya n-ci sadə vuruqlara ayırmasından asılı olsun.Bunun üçün o 1760-cı ildə İsveç riyaziyyatçısı Leonard Eylerin işindən istifadə etdi.İndi bizə φ-nin tapılma metodu məlumdur.Əgər n-nin vuruqları məlumdursa, φ-nin tapılması kifayət qədər sadə məsələdir.İndi isə $\varphi(n)$ funksiyanın modulu üzrə qüvvətə yüksəltmə əməli ilə əlaqəsini tapmaq vacibdir.Bunun üçün o Eyler teoreminə meraciət etdi.Hansı ki,aşağıdakı əlaqəni isbat edir.

$m^{\varphi(n)} \equiv 1 \bmod n$.Bu o deməkdir ki,ixtiyari ortaq böləni olmayan iki m və n ədədlərini götürsək və m-i n-nin Eyler funksiyasına yüksəltsək həmişə 1 alarıq.Məsələn:

$n = 8, m = 5, \varphi(8) = 4$

$5^4 \equiv 1 \bmod 8$

$625 \equiv 1 \bmod 8$

İndi isə burada aşağıdakı sadə qaydaları nəzərə alsaq:

1) $1^k = 1$

$m^{k \cdot \varphi(n)} \equiv 1 \bmod n$.

2) $1 \cdot m = m$

$m \cdot m^{k \cdot \varphi(n)} \equiv m \bmod n \Rightarrow m^{k \cdot \varphi(n)+1} \equiv m \bmod n$

İndi bizdə $e \cdot d$-nin tapılması tənliyi var.

$$\begin{cases} m^{e \cdot d} \equiv m \bmod n \\ m^{k \cdot \varphi(n)+1} \equiv m \bmod n \end{cases} \Rightarrow e \cdot d = k \cdot \varphi(n) + 1 \Rightarrow d = \frac{k \cdot \varphi(n) + 1}{e}$$

Demək n-nin sadə vuruqlarını bilsək d-ni tapmaq çox asandır.Deməli, d-ni gizli açar götürəcəyik.Misal:

$$\begin{matrix} p = 53 \\ q = 59 \end{matrix} \quad m = hi, h = 8, i = 9 \quad n = 59 \cdot 53 = 3127 \quad m = 89 \quad \varphi(312) = 52 \cdot 58 = 3016$$

Sonra $e=3$ götürür. e-ni bu şərtlə seçməlidir ki,o çüt ədəd olmasın və $\varphi(n)$ ilə ortaq böləni olmamalıdı və d-ni hesablasaq, k-nı 2 götürək $d=\frac{2\cdot 3016+1}{3}=2011.$

$\{e,n\}$-onun açıq açarıdır. $89^3 \bmod 3127 \equiv 1394 = c$. Əli c-ni Aygünə göndərir.Aygün bunun köməyilə mətni deşifrələyir. $1394^{2011} = 89 \bmod 3127$. Deməli,Aygün d-nin qiymətini bildiyi üçün deşifrələməni edə bilir.

Bununla da nəticəyə gəlmək olar ki,deşifrələmə üçün $\varphi(n)$-ni tapılması şərtdir və ancaq n-nin sadə vuruqlarını bilməklə hesablamaq olar.

Əgər n-i kifayət qədər böyükdürsə Aygün əmin ola bilər ki,bunun üçün ən mükəmməl hesablama sistemlərindən istifadə olunsa belə tapmaq üçün 1000-lərlə il vaxt tələb olunacaq.

RSA alqoritminin qurulmuş proqraminda q və p sadə ədələrindən birini sabit saxlayıb digərinə müxtəlif qiymətlərverməklə, proqramızın köməyilə aldığımız nəticələrin qrafiklə ifadə edək.

P=7=const götürək, q-nun qiymətini hər dəfə artırmaqla müxtəlif qiymətlər verək. RSA alqoritmində icra olunan əməliyyatların sayının q dan asılı olaraq dəyişməsinin qrafiklə ifadəsi aşağıdakı kimi olar. Burada e=1789 qəbul edək. (Şəkil 1) :



Şəkil 1.q-nin qiymətini dəyişməklə proqramın əməliyyatlarının sayının dəyişməsinin qrafiklə ifadəsi

P=7=const. q-nun əvvəlki qiymətlərini dəyişmədən e-nin daha böyük qiymətlərində RSA alqoritminin əməliyyatlarının sayının artmasının qrafiklə təsviri aşağıdakı kimidir:



Şəkil 2. *e-nin qiymətini dəyişməklə proqramın əməliyyatlarının sayının dəyişməsinin qrafiklə ifadəsi*

Bu qrafiklərə əsasən demək olar ki, q, p və e ədədlərdən hər hansı birini artırmaqla proqramda icra olunan əməliyyatların sayı artmış olur. Proqram əməliyyatlarının sayının artması ilə şifrələmə əməliyyatı daha da mürəkkəbləşmiş olur, şifrələmənin mürəkkəbləşməsi deşifrələmə əməliyyatını da çətinləşdirir. Bu da ki, alqoritmin mürəkkəbləşməsi onun sındırılmasının mümkünsüz hala gətirir.

Ədəbiyyat siyahısı

1.Əliquliyev R.M., İmamverdiyev Y.N. Kriptoqrafiyanın əsasları. Bakı, İnformasiya texnologiyaları. 2006-688 s.

2.Qasımov V.Ə., İnformasiya təhlükəsizliyinin əsasları. Bakı, 2009- 221 s.

3.А.А.Безбогов, А.В.Яковлев, В.Н.Шамкин “Методы исредства защиты компьютерной информации” ГОУВПО "Тамбовский государственный технический университет" (ТГТУ), 2006 - 120 s.

İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNDƏ ƏL-QAMAL ALQORİTMİNİN İŞLƏNMƏSİ

İsgəndərova , G.A.Hüseynov K.K.
Milli Aviasiya Akademiyası
Isgenderova-gunay90@mail.ru

Növündən və xarakterindən asılı olmadan baş verə biləcək istənilən təhlükələrin qarşısının alınması, başqa sözlə, sistemdə toplanan, saxlanan və emal olunan, eləcə də şəbəkə vasitəsilə ötürülən informasiyanın təhlükəsizliyinin təmin olunması məqsədilə indiyədək çoxlu sayda müxtəlif üsullar, vasitələr və tədbirlər sistemi işlənib hazırlanmışdır.

Məxfi informasiyanın məzmununun kənar şəxslər tərəfindən oxunmasının qarşısını almaq üçün atılan ciddi addımlardan biri də informasiyanın mənasının və məzmununun gizlədilməsi,yəni şifrələməsi üsullarının tətbiqindən ibarətdir. İnformasiyanın şifrələnməsi rəqib qarşısında daha ciddi bir maneənin yaradılması təmin edir. Şifrələmə üsulları dedikdə istənilən formada olan, o cümlədən disk qurğularında saxlanılan və ya kompyuterdə emal olunan, eləcə də rabitə kanalları vasitəsilə ötürülən informasiyanın məzmununun gizlədilməsi üsulları başa düşülür. Bu üsullardan biri dəƏL-Qamal alqoritmidir.

Alqoritmin iş prinsipi aşağıdakından ibarətdir:

1. *Şifrləmə açarının (açıq və gizli açarların) generasiyası.*

1. Uzunluğu n olan böyük sadə P ədədi generasiya olunur.
2. İxtiyari G<P şərtini ödəyən böyük tam ədəd götürülür.
3. Aşağıdakı şərtləriödəyən təsadüfi böyük tam X ədədi götürülür.

- X<P;
- X və (P-1) ədədləri qarşılıqlı sadə ədədlərdir.

4. $Y = G^x \bmod P$ qiyməti hesablanır.

Alınan (P,G,Y) ədədləri açıq açar hesab olunur və digər istifadəçilər arasında paylana bilər, X ədədi isə məxfi açardır və gizli saxlanılır.

2. *Məlumatın şifrlənməsi.*

5. Aşağıdakı şərtlərə cavab verən təsadüfi tam K ədədi seçilir:

- 1<K<P-1;
- K və (P-1) ədədləri qarşılıqlı sadə ədədlərdir.

6.T ilkin mətninə görə A və B ədədləri hesablanır:

$$A = G^k \bmod P$$

$$B = Y^k \cdot T \bmod P$$

7. S=(A,B) ədədləri cütü şifrmətn olur. Göründüyü kimi, şifrmətnin uzunluğu ilkin T mətnin uzunluğundan iki dəfə böyük olur.

3. *Şifrin açılması.*

8.Alınmış S=(A,B) şifrmətninə əsasən

$$T = B / A^x \bmod P$$

hesablanır. Aydındır ki,

$$A^x = G^{kx} \bmod P$$

olduğuna görə

$$B / A^x = Y^k \cdot T / A^X = G^{kx} \cdot T / G^{kx} = T$$

olar, yəni

$$T = B / A^x \bmod P$$

doğrudur.

ƏL-Qamal alqoritminin qurulmuş proqramında onun əsas P, X və G parametrlərinin proqramda icra olunan əməliyyatların sayından asılılığını araşdıraq. Bunun üçün P, X və G parametrlərinini ayrı - ayrılıqda hər hansı birinə qiymətlər verməklə digər ikisini sabit saxlayaq. Aldığımız nəticələri qrafiklə təsvir edək.

Əvvəlcə X və G parametrlərini sabit saxlamaqla P – nin qiymətini artıraq (burada G=13= const, X=17=const). İcra olunan əməliyyatların sayının P parametrinin qiymətindən asılılığı aşağıdakı qrafikdə göstərilmişdir (şəkil 1):



Şəkil 1. ƏL-Qamal alqoritmində P parametrinin N əməliyyatların sayından asılılığı

Göründüyü kimi p-nin qiymətini artırmaqla proqramdakı əməiyyatların sayı xətti artmış olur.

İndi isə P və G parametrlərini sabit saxlamaqla X – in qiymətini xətti artıraq. Alınmış nəticə aşağıdakı kimi olar:



Şəkil 2. ƏL-Qamal alqoritmində X parametrinin N əməliyyatların sayından asılılığı

Burada da Şəkil 1 - dəki kimi N əməliyyatların sayı X parametrindən asılı olaraq xətti artır.

Ən sonda X vəP parametrlərinə qiymətmətləndirib sabit saxlayaraq G – nin qiymətini xətti artıraq. İcra olunan əməliyyatların sayı da xətti artmış olacaq (şəkil 3.):



Şəkil 3. ƏL-Qamal alqoritmində G parametrinin N əməliyyatların sayından asılılığı

Buradan da görünur ki, hər dəfə G arametrinin qiyməti artdıqca N əməliyyatların sayı artmış olur.

Aldığımız bu nəticə və qrafiklərdən deyə bilərik ki, ƏL – Qamal alqoritmindəki əməliyyatların sayı əsas P, X və G parametrlərin qiymətindən xətti asılıdır. Deməli alqoritmin etibarlılığını artırmaq üçünƏL – Qamal alqoritmində əsas parametrlərinin qiymətini kifayət qədər böyük götürməliyik.

Ədəbiyyat siyahısı

1. Əliquliyev R.M., İmamverdiyev Y.N. Kriptoqrafiyanın əsasları. Bakı, İnformasiya texnologiyaları. 2006 - 688 s.

2. Qasımov V.Ə., İnformasiya təhlükəsizliyinin əsasları. Bakı, 2009 - 221 s.

3. А.А.Безбогов, А.В.Яковлев, В.Н.Шамкин “Методы и средства защиты компьютерной информации” ГОУ ВПО "Тамбовский государственный технический университет" (ТГТУ), 2006 - 120 s.

ELEKTROENERGETİK SİSTEMLƏRİN İNTELLEKTUAL İDARƏ EDİLMƏSİ. SMART GRİD

Məhərrəmov R.N.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Elektrik enerjisinin keyfiyyəti dedikdə onu xarakterizə edən kəmiyyətlərin qiymətlərinin standart həd daxilində olması başa düşülür. Bu kəmiyyətlər və onların xüsusiyyətləri elektrik enerjisinin keyfiyyət göstəriciləri kimi qəbul edilir. Elektrik enerjisinin keyfiyyət göstəriciləri dedikdə gərinlik, tezlik, gərginliyin sinusoidallığı, simmetrikliyi nəzərdə tutulur. Elektrik enerjisinin keyfiyyəti günün müəyyən vaxtından, mövsumi və iqlim dəyişmələrindən, sistemdə baş verən yüklərin dəyişmələrindən, sistemdə yaranan qəzalardan asılı olaraq dəyişə bilər. [1]

Elektrik enerjisinin keyfiyyətinin aşağı düşməsi elektrik qəbuledicilərinin rejimlərinin dəyişməsinə, pisləşməsinə, həmin avadanlıq və mexanizimlərin istehsal resursunun azalmasına, istehsal olunan məhsulun keyfiyyətinin azalmasına səbəb ola bilər. Bu isə öz növbəsində müəssisə və təşkilatların iqdisadi ziyan görməsinə səbəb olur. Buna görə də müasir dövrdə elektrik enerjisinə istehsal məhsulu kimi baxılır və onun keyfiyyətinə xüsusi tələblər irəli sürülür. [1]

Dövlət Standartına görə elektrik enejisinin əsas və əlavə keyfiyyət göstəriciləri müəyyən edilmişdir. Elektrik enerjisinin keyfiyyət göstricilərini nəzərə alaraq elektroenergetika sistemlərinin keyfiyyətli işinin təmin olunması üçün onlara intellektual sistemlərin tətbiq olunması zərurəti ortaya çıxmışdır. Hal-hazırda dünya ölkələri bu işi həyata keçirməkdən ötrü Ağıllı Şəbəkələrin (Smart Grid) tətbiqi üzərində ciddi işlər aparırlar.

Ağıllı Şəbəkələr (Smart Grid) – bu modernləşdirilmiş elə şəbəkələrdirki informasiya və kommunikasiyatexnologiyalarının tətbiqi sayəsində elektrik enerjisinin istehsalı və istehlakı haqqında dəqiq məlumatlar toplayır və bu da öz növbəsində elektrik enerji ötürülməsi prosesinin keyfiyyətinin, etibarlılığının, effektivliyinin, iqtisadi faydalılığının artmasına, energetik sistemlərin dayanıqlı işləməinə səbəb olur. [2]

Beləliklə Smart Grid energetika sənayesini əvvəllər görülməmiş şəkildə etibarlılıq və effektivlik səviyyəsinə qaldırmaqla iqtisadi inkişafa həmçinin ətraf mühitin qorunmasına öz tövhəsini verə bilər. Keçid mərhələsi müddətində sınaqların aparılması,texnologiyalarin mükəmməlləşdirilməsi, istifadəçilərin (müştərilərin) maarifləndirilməsi, standartların və qanunverici bazanın yaradılması həmçinin müxtəlif layihələr arasında məlumat mübadiləsinin olması Smart Grid-dən nəzərdə tutulmuş mənfəətin əldə edilməsi üçün vacibdir. [2]

SmartGrid-intətbiqindənəldəediləbiləcəkmənfəətkimibunlarıgöstərməkolar:

•Elektrikenerjisinindahaeffektivötürülməsi

•Qəzadansonraenerjitəchizatınıntezbirzamandaözünübərpası

•Paylayıcışəbəkəninidarəetməvəəməliyyatxərclərininazaldılmasıvənəticəetibariləistifadəçilərüçünenerjiqiymətlərininaşağısalınması.

•Piksaatlarındatələbatınazaldılması, budaöznövbəsindəenerji sərfiyyatınıstabilləşdirəbilər

•Böyükmiqyaslıbərpaolunanenerjisistemlərinindahaasandinteqrasiyası

Konseptualmodel



•Müştərilərin sahib olduğu enerji istehsalı sistemləri o cümlədən bərpa olunan enerji sistemləri ilə asandlaşdırılmış inteqrasiya

•Təhlükəsizliyin gücləndirilməsi

Bu gün enerji sistemində nasazlıqlar domino effekti yaratmaqla, maliyyə, kommunikasiya, nəqliyyat,səhiyyə və sənaye sistemində bir sıra ağır nəticələrə səbəb ola bilər. Belə hallar xüsusən qış

mövsümündə təhlükəlidir, belə ki, istifadəçilərin istilik ilə təchizi dayana bilər. Daha ağıllı şəbəkə energetik sistemin müxtəlif təbii fəlakətlər zamanı davamlılığını artıracaq. İki tərəfli (interaktiv) əlaqə imkanlarının olduğuna görə Smart Grid avadanlığın sıradan çıxması və açılmalar zamanı yük axının istiqamətinin avtomatik dəyişmək imkanına malikdir. Bu şəbəkədə açılmaların sayını azaldacaq və baş verən açılmaların zərərli təsirini minimuma endirəcək. Energetik sistemdə açılmalar olduğu zaman Smart Grid texnologiyaları bu açılmanı ani təyin edərək onu sistemdən geniş miqyaslı qəza yaranmamış təcrid edəcək. Yeni texnologiyalar həmçinin şərait yaradacaqdır ki, təbii fəlakətdən sonra enerji təchizatının bərpası mümkün qədər tez və effektiv olsun. Buna nail olmaq üçün qəza haqqında məlumatın qəza xidmətlərinə ötürülməsi vacib şərtdir. Bundan əlavə olaraq Smart Grid istifadəçilərin sahib olduğu enerji istehsalı vasitələri tərəfindən generasiya edilən enerjini şəbəkənin enerji çatışmazlıqları zamanı sistemə ötürmək imkanına da malikdir. [3]

Ölkəmizdə bu sahə üzrə görülən işlər içərisində Azərişıq ASC –də Mərkəzi Dispetçer Xidmətinin SCADA sisteminə qoşulması ən uğurlu layihələrindəndir. Yeni tikilən və əsaslı şəkildə yenidən qurulan rəqəmsal tipli yarımstansiyalar SCADA (elektrik avadanlıqlarının vəziyyətinə nəzarət və idarəetmə) sisteminə qoşulur. 110 və 35 kV-luq yarımstansiyaların SCADA sisteminə keçməsi ilə onların uzaq məsafədən operativ idarə olunması təmin edilir. Bu sistem kompüter bazası əsasında qurulan və proqramlaşdırılan avtomatik uzaqdan idarəetmə sistemidir. SCADA vasitəsilə şəbəkənin elektrik avadanlıqlarına nəzarət və onları idarə etmək, təcili operativ əməliyyatlar həyata keçirmək, şəbəkədə gedən prosesləri təhlil etmək, hesabatlar hazırlamaq mümkündür[4].

Bundan əlavə yeni rəqəmsal tipli yarımstansiyalarda quraşdırılmış mikroprosessorlu rele mühafizə qurğuları vasitəsilə ən son tipli vakkum, eleqaz tipli açarları, transformatorları və sistemin digər vacib hissələri etibarlı və təhlükəsiz bir şəkildə mühafizə edilir. Sistemin əks-qəza avtomatikasının müasir mikroprosessor texnologiyası əsasında modernləşdirilməsini nəzərdə tutan layihə üzrə işlər davam edir. Lazımi avadanlıqların gətirilməsi və layihə üzrə nəzərdə tutulmuş elektrik stansiyalarında və yarımstansiyalarda qurğuların quraşdırılması işlərinə başlanılmışdır. Yeni sistemin sınaq-sazlama işləri növbəti illərdə həyata keçiriləcəkdir. 2016-ci ildə Azərbaycan enerji sisteminin 2020-ci ilə strateji inkişaf planı nəzərə alınmaqla sistemin dayanıqlığının və effektivliyinin təmin edilməsi məqsədilə kompleks elmi-tədqiqat və layihə-axtarış işləri aparılmış və müvafiq tövsiyələr hazırlanmışdır. [4]

Ədəbiyyat siyahısı

1.Həmidov M.H., Məhərrəmov R.N. Elektrik enerjisinin keyfiyyət göstəriciləri və onların normallaşdırılması. Energetikanın problemləri. №4, 2016, 99-102 s.

2.Зайцев А.И. Развитие электроэнергетических систем на базе концепции Smart Grid // Электротехнические комплексы и системы управления, №1 2013. – С.71 – 76.

3.European SmartGrids Technology Platform. Vision and Strategy for Europe’s Electricity Networks of the Future. – Luxembourg: Office for Official Publications of the European Communities

4.Məlumat Kitabı. Azərişıq ASC . Bakı, 2016

AVTOMATLAŞDIRILMIŞ LAYİHƏLƏNDİRMƏ SİSTEMLƏRİNDƏ PAYLANMIŞ BİLİKLƏR BAZASINDAN İSTİFADƏNİN TƏDQİQİ

Məmmədova M.R., İbrahimova P.Ə.

Sumqayıt Dövlət Universiteti

Biliklərin unifikasiyalı təsviri [1] bazasında paylanmış sistemlərin qurulması metodologiyasının işlənməsi hazırda çox aktual hesab edilir. Hansı ki, bir tərəfdən proqram sistemlərinin obyekt və komponent modelləri ilə qurulmasının aydın inteqrasiyası təmin edilir, digər tərəfdən şəbəkə üzrə biliklərin paylanmış fraqmentlərinin, hər hansı tətbiqi məsələlərin həlli üçün sonrakı paylanmış nəticələrinə baxılır.

Hazırda paylanmış süni intellekt [2] çərçivəsində çoxagentli texnologiya nisbətən geniş yayılmışdır [3]. Bu zaman sistemin intellektuallığına tam halda avtonom agentlər toplusunun qarşılıqlı təsiri nəticəsində nail olunur. Bu agentlər öz növbəsində zəif intellektual və ya tam mənada intellektual ola bilərlər. Təbiətinə görə fərqlənən müxtəlif agent arxitekturaları, adətən hər hansı xassələrinə görə klassifikasiya olunurlar (mobil və ya statik, öyrədici və ya yoxlayıcı və s.)[3].

Agentlərin müvəffəqiyyətli qarşılıqlı təsiri üçün biliklərin təsvirinin ümumi formasından əlavə, şərh edilərək predmet sahəsinin konseptualizasiyası - ontologiya verilir [4]. Ontologiya, adətən hər hansı qayda - aksiomlarla genişlənən anlayışın taksonomiyasını özündə ifadə edir.

Bundan başqa bir agent cəmiyyətində agentin təbiəti tamamilə müxtəlif ola bilər ki, bu halda ontologiya predmet sahəsinin obyektlərinin ümumi lüğəti rolunu yerinə yetirir.Bu zaman agentlər arxitekturasının əsas xarakteristikalarından biri avtonomluq və avtomarlıqla ifadə olunur. Paylanmış intellektual sistem intellektual sistemlərin klassik komponentlərinə uyğun qeyri-intellektual komponentlərdən qurulur (çıxış prosessoru, bilik mənbəyi, elan lövhəsi, istifadəçi interfeysi və s.). Bu halda komponentlər statik (atribut-qiymət cütü) və dinamik (produksiya qaydaları) biliklər şəbəkəsi üzrə mübadilə edirlər. Agentli arxitekturada olduğu kimi, hər bir agentin məntiqi çıxışının daxili quruluşu ətraf aləmdən gizlənir, komponentli arxitekturada isə biliyin tam mübadiləsi iştirak edir və nəticədə paylanmış nəticə və məsələnin paylanmış həlli reallaşır.

Baxılan işdə həm komponentli, həm də agentli arxitektura xüsusiyyətlərinə malik hibrid arxitekturalı paylanmış intellektual layihələndirmə sisteminin qurulması təklif olunur. Komponentli arxitekturanın əsas çatışmamazlığı avtonom olmaması və komponentlərin müxtəlif quruluşa malik olmasıdır. Buna görə də, intellektual sistemin təşkili bütün komponentlərin birgə işini və müəyyən kombinasiyasını tələb edir.

Beləliklə, sistemin hər hansı qovşağının daxili quruluşunun gizlənməsi mümkünlüyü aradan qalxır, eyni zamanda onun avtonom istifadəsi paylanmış biliklər bazasının əsaslanma və işlənmə prosesini olduqca çətinləşdirir.

Təklif olunan arxitektura, biliyi freym modellə təsvir olunan intellektual sistemin qovşaqlarının ierarxik qruplaşmış hibrid arxitekturasına əsaslanır. Hər bir qovşaq ierarxik freymlərin hər hansı sahəsini özündə saxlayır, yəni freym aləmi adlanan öz biliklər bazasını, paylanmış statik biliklər şəbəkəsini özündə ifadə etməklə, daha mürəkkəb formada qarşılıqlı təsir edə bilər. Bütün freym-aləm, hər hansı ümumi nəticə prosesində iştirak etməklə klaster və ya paylanmış ierarxik freymlərdən təşkil edilir.

Uzaqda olan freymlərin alınması kənar çağırışların hesabına şəbəkə üzrə biliklərin ötürülməsini təmin edir. Şəbəkə üzrə ancaq atributların qiyməti ötürülür, məntiqi nəticə isə uyğun dinamik biliklər (qaydalar) yerləşdirilmiş kompüterdə yerinə yetirilir. Təklif olunan arxitektura, şəbəkə üzrə düz və tərs çıxışlı ixtiyari produksiya qaydaları şəklində dinamik biliklərlə mübadilə üçün vəsaitlərlə tamamlana bilər.

Biliklərin freymlərlə təsvirindən istifadə, həm də relyasion verilənlər bazasının çıxış prosessoruna və ənənəvi imperativ proqramlaşdırma dillərində reallaşdırılan alqoritmlərin genişlənməsinə müdaxiləni kifayət qədər çevik təmin etməyə imkan verir. Relyasion verilənlər bazasının cədvəlləri freymlər ailəsi şəklində freym modellərlə təsvir edilir. Alqoritmik genişlənməyə müraciət, hər hansı interfeysləri özündə cəmləyən xüsusi xarici freymlərin köməyi ilə yerinə yetirilir.

Analiz prosesində qeyd olunduğu kimi, təklif olunan produksiya – freym təsvirli biliklər bazasından ibarət arxitektura aşağıdakı nəticələrə nail olmağa imkan verir:

- Mövcud informasiya sistemləri ilə çevik inteqrasiyalı sistemin bütün funksiyalarını ixtiyari istiqamətdə genişləndirməyə, eyni zamanda intellektual sistemi daha böyük proqram kompleksləri ilə uzlaşdırmağa;
- Biliyin paylanmış yığılması ilə həll edilən məsələlərin xüsusiyyətindən asılı olaraq, statik və dinamik biliklərlə mübadiləni özünə daxil edən şəbəkə üzrə biliklərlə çevik mübadiləyə.

Qeyd etmək lazımdır ki, seçilmiş biliklərin freymlə təsviri yuxarıda verilmiş məqsədlərin reallaşdırılması üçün çox müvəffəqiyyətlə tətbiq edilə bilər:

- biliklərin freymlə təsviri ənənəvi obyektli və komponentli yanaşmalara çox oxşayır. Freym modellər, deklarativ biliklərin və imperativ komponentlərin kəsişməsi kimi təşkil olunan hibrid sistemlərin "ümumi göstəricisi" kimi istifadə edilə bilər. Beləliklə, açıq sistemlərin obyekt və komponentləri vahid iyerarxiyada freymlər kimi təsvir edilə bilər və əksinə, ixtiyari freym iyerarxiya xarici proqram sistemlərindən çağırılan obyekt kimi istifadə edilə bilər;
- Freymlər relyasion biliklər bazasına və eyni zamanda strukturlaşdırılmış məlumatlara müraciət üçün səmərəli istifadə edilə bilər [4];
- Biliklərin freymlə təsviri biliklərin klasterizasiyasının təbii qaydalarını təqdim edir. Xüsusi olaraq düz və tərs çıxışlı dinamik qaydalar, prosedur demon şəkilli uyğun freymlər və sorğu proseduraları öz

növbəsində müxtəlif qovşaqlar arasında biliklərin təbii paylanmasını təmin edir. Biliklərin iyerarxik quruluşlu şəkildə təsviri ontologiya modelləri şəklində əksini tapır [4,5] və paylanmış freym iyerarxiyaları modeli, taksonometrik ontologiyanın reallaşdırılması qaydalarından birini, məntiqi nəticənin ənənəvi modeli və biliklərin təsvirinin uzlaşmasını ifadə edir.

Ədəbiyyat siyahısı

1. Сошников Д.В. Построение распределенных интеллектуальных систем на основе распределенной фреймовой иерархии.// Информационные технологии в образовании. Международная научно-практическая конференция. Шахты. 2001: Тез. Докл. – Шахты, 2001.
2. Искусственный интеллект: применение в интегрированных производственных системах. – М.: Машиностроение, 1991.
3. Hyacinth S.Nwana, Software. Agents: An Overview.//Knowledge Engineering Review. – 1996, V.11, No.3. – pp. 1-40.
4. Гаврилова Т.А., Хорошевский В.Ф. Базы знаний интеллектуальных систем. – СПб.: Питер, 2000.
5. Soshnikov D. Software Toolkit for Building Embedded and Distributed Knowledge – Based Systems.// Proceedings of the 2nd International Workshop on Computer Science and Information Technologies, (Vol.1). – Ufs: USATU Publishing. 2000. – pp. 103-111.

İDARƏETMƏ SİSTEMİNİN VERICİLƏRİNİN SEÇİLMƏSİ ALQORİTMİ

Məmmədova Ş.T.
Sumqayıt Dövlət Universiteti

İnkişaf edən ölkələrin iqtisadi yüksəlişini təmin edən amillərdən biri güclü sənayenin olmasıdır, müasir informasiya komunikasiya texnologiyalarının və innovativ layihələndirmə prinsiplərinin tətbiq edilməsidir. Maşınqayırma, metallurgiya və digər sənaye sahələrinin səmərəli və məhsuldar işlərini həyata keçirən istehsalat müəssisələri çevik istehsalat sistemləridir (ÇİS). Bu növ istehsalat müəssisələrinin fərqləndirici cəhətlərindən biri onların çevik prinsiplərlə işləyən idarəetmə proqramının istifadə edilməsidir, müxtəlif keçidli məhsulların bir müəssisədə texnoloji prosesi dayandırmadan istehsal edilməsidir, tətbiq olunan texnoloji avadanlıqların, sənaye robotlarının, çox funksional və istehsal növünə adaptasiya olunan idarəetmə sistemlərinin və onun elementlərinin olmasıdır. ÇİS-in avtomatlaşdırma funksiyalarının yüksək etibarlılığının, məhsuldarlığının təmin edilməsi məqsədi ilə idarəetmə sisteminin əsas elementlərinin düzgün seçilməsi və idarəetmə alqoritm və proqramının işlənməsi vacib elmi – tədqiqat məsələlərindən biri hesab olunur [1]. Bununla əlaqədar olaraq, tezisdə baxılan məsələ ÇİS-in idarəetmə elementlərinin seçilməsi alqoritminin işlənməsi və idarəetmə alqoritminin yaradılmasına həsr edilir.

ÇİS-in funksional vəzifələrindən və həll olunan problemlərin xarakterindən asılı olaraq məlumat sistemləri şərti olaraq daxili (vericilər və sonlu avtomatlar) və xarici (icra mexanizmləri) məlumatlı altsistemlərinə bölünür. Vericilər ÇİS-ə daxil olan aktiv elementlərinin hər anda hərəkət edən hissələrinin faktiki vəziyyətlərinin qeydiyyatını, tələb olunan yerdəyişmə parametrlərinin mövqeləşdirilməsini, xüsusi modullarda temperatur, rütubətlilik, təzyiq və digər istehsal parametrlərinin ölçməsini təmin edir [2].

ÇİS-in əsas aktiv elelmentləri hesab olunan sənaye robotlarında, manipulyatorlarda vericiləri seçmək üçün bu elementlərin mövqeləşdirmə xətası və sərbəstlik dərəcəsi kimi parametrlər əsas götürülür. Əgər texnoloji avadanlıqlara xidmət edən sənaye robotunun sərbəstlik dərəcəsi $S_d = 3$, onda sənaye robotlarının cədvəl tipli verilənlər bazasından «Brig-10» tipli sənaye robotu seçilir(cədvəl 1). Sənaye robotunun qolunun xətti, bucaq yerdəyişmələrinin və sənaye robotununtutqacının bağlanılıb açılması texnoloji əməliyyatlarının mövqeləşdirilməsini təmin edən vericilərin seçilməsi aşağıdakı şərtə uyğun olmalıdır [3]:

$$S_İ * K / D \le U \quad (1)$$

burada $S_İ = \{S_{İG}, S_{YA}, \varphi_B\}$- sərbəstlik dərəcəsinin yerdəyişmələridir;D–diskret çevirmədə impulsların sayıdır; K- 1.5…3- keyfiyət əmsalı; U–sənaye robotunun mövqeləşdirmə xətasıdır.

Əgər qəbul etsək ki, sənaye robotunun texniki xarakteristikalarına uyğun olaraq irəli və ya geri xətti hərəkəti$S_{İG}$ = 600 mm,yuxarı və ya aşağı xətti hərəkətiS_{YA}= 100 mm ;z oxu ətrafında bucaq yerdəyişməsi $\varphi_B=\pi/2$, sənaye robotunun mövqeləşdirmə xətası U = 0.3 mm, keyfiyyət əmsalı$K=2$isə, onda intellektual
informasiya-axtarış sistemindən və (1) ifadəsindən istifadə edərək sənaye robotunun $dx(S_{İG})$, $dy(S_{İG})$, $dz(S_{YA})$, $\varphi(\varphi_B)$ yerdəyişmələrini mövqeləşdirmək üçün vericilər aşağıdakı kimi seçilir:

Cədvəl 1

SR-nın texniki xarakteristikaları	**Brig-10**	**Senior-415**	**PUMA**	**PANTERA**
Sərbəstlik dərəcəsi (S_d)	3	4	5	5
İrəli və yaxud geri xətti yerdəyişmə (mm) ($S_{İG}$)	600	1000	750	300
Yuxarı və yaxud aşağı xətti yerdəyişmə (mm) (S_{YA})	100	500	200	300
z oxu ətrafında bucaq yerdəyişməsi (ϕ_B^0)	90	180	180	140
x oxu ətrafında bucaq yerdəyişməsi (α_B^0)	-	180	180	100
Y oxu ətrafında bucaq yerdəyişməsi (β_B^0)	180	-	90	-
Mövqeləşdirmə xətası (mm) (U)	±0,3	±0,3	±0,5	±2

Əgər sənaye robotun irəli və yaxud geri xətti hərəkəti $S_{İG}$= 600 mm və «BE51M» tip üçün diskret çevirmədə impulsların sayı D = 5400 impuls/dəq
(cədvəl 2)

$S_{İG} * K / D \le U \Rightarrow 0.22 \le 0.3$,

onda«BE51M» tip impulslu verici sənaye robotunun qolunun irəli və yaxud geri hərəkətlərini mövqeyləşdirmək üçün seçilir.

Əgər sənaye robotun yuxarı və yaxud aşağı xətti hərəkəti S_{YA}= 100 mm və «BE51M» tip üçün diskret çevirmədə impulsların sayı D=5400 impuls/dəq,

$S_{YA} * K / D \le U \Rightarrow 0.04 \le 0.3$,

onda«BE51M » tip impulslu verici sənaye robotunun qolunu yuxarı və yaxud aşağı hərəkətlərini mövqeləşdirmək üçün seçilir.

Əgər z oxu ətrafında bucaq yepdəyişməsi $\varphi_B = \pi/2$ mm və «BE51M» tip üçün diskret çevirmədə impulsların sayı D = 5400 impuls/dəq,

$S_\varphi * K / D \le U$, $S_\varphi = l * \varphi_B$

burada l- sənaye robotunun sərbəstlik dərəcəsinin şarnir oxundan sənaye robotunun tutqacına qədər olan məsafədir.

Əgər qəbul etsək ki $l = S_{İG} = 600$ mm,onda

Cədvəl 2

Vericinin tipi	**Yerdəyişmə diapazonu (dövr)**	**Sürət ($dəq^{-1}$)**	**İstismar müddəti (saat)**	**Diskret çevirmədə impulsların sayı**
Kodlu verici				
AD-15 B	16	900	10^4	2^{15}(32768)
FEP-15	16	600	10^9	2^{15}(32768)
İmpulslu verici				
BE51M	90	3000	10^4	1000...5400
BE106	80	3000	10^4	1000;1024;1250

$$S_\varphi = l^* \varphi_B = 600*3.14/2 = 942 \text{ mm}, \quad S_\varphi * K / D \le U \Rightarrow 0.35 \ge 0.3$$

onda «BE51M» tipli impulslu verici sənaye robotunun qolunun z oxu ətrafında bucaq yerdəyişməsinin mövqeləşdirilməsini təmin etmir.

Əgər « FEP-15» tip üçün diskret çevirmədə impulsların sayı D = 32768 impuls/dəq

$$S_\varphi * K / D \le U \Rightarrow 0.06 \le 0.3$$

onda « FEP-15» tip kodlu verici sənaye robotunun qolunu bucaq yerdəyişməsinin mövqeləşdirilməsi üçün seçilir.

İnformasiya-axtarış alqoritmi əsasında seçilmiş vericilər «BE51M» və «FEP-15» çevik istehsalat modulunun aktiv elementi olan «Brig-10» sənaye robotunun idarəetmə alqoritminin qurulması üçün istifadə olunurlar. «Brig-10» sənaye robotunun idarəetmə alqoritmini layıhələndirmək məqsədilə onun texnoloji əməliyyatlarına uyğun olaraq vericilər çoxluğu təşkil olunur [4, 5].

Ədəbiyyat siyahısı

1. Oteniy Y.N., Olshtinsky P.V. Choice and calculation of capture devices of industrial robots: Train aid. 2000. Volgograd State Technical University. 64 p.

2. Moskvichov A.A., Kvartalov A.R., Ustinov B.V.. Grippers devises of industrial robots and manipulators. Train aid. M: FORUM, 2015. 176 p.

3. Mammadov J.F., Huseynov A.H. Application of the intelligence and mathematical models for computing design of the flexible manufacturing module. Applied and computational mathematics, An International Journal, Vol. 2, № 1, 2003.

4. Petrukhin A.V., Uvarova T.V. Design automation of industrial robot grippers.NEWS OF VOLGOGRAD STATE TECHNICAL UNIVERSITY. Producing № 22 (125)/volume 18/2013.

5. Sabunin A.E. Altium Designer. New solutions in designing of electron equipments. Publication: Solon-Press, 2009, pp. 15-35.

METAMATERİALLARIN OPTİK XASSƏLƏRİ: FENOMENOLOJİ NƏZƏRİYYƏDƏN ÇIXAN BƏZİ NƏTİCƏLƏR

[1]Mənsurov Q. M.,[2]Səlimov İ. N.

[1]Sumqayıt Dövlət Universiteti, [2]Mingəçevir Dövlət Universiteti

Effektiv sındırma əmsalı (refraksiyası) mənfi olan materiallar metamateriallar (təbiətdə rast gəlinməyən və yalnız süni yolla sintez olunan) sinfinə daxildir. Təbii materiallar içərisində indiyə qədər effektiv sındırma əmsalı mənfi olanı aşkar olunmayıb. $10HHs$ tezlik diapazonunda mənfi refraksiya xassəliilk metamaterial 2000-ci ildə [1],spektrin görünən hissəsində isə 2008-ci ildə sintez olunub [2].

Metamateriallar üçün əsas xassə sınan şüada Pointing vektorunun elektrik və maqnit vektorları ilə $\vec{S} = [\vec{H}\vec{E}]$ kimi təyin olunmasıdır (adi materiallar üçün $\vec{S} = [\vec{E}\vec{H}]$ kimidir). Bu səbəbdən, effektiv sındırma əmsalı müsbət olan materiallar sağ, mənfi olan materiallar isə sol materiallar (LHM – left-handedmaterials) adlanırlar.

İşığın mənfi refraksiyası foton kristallarda da müşahidə oluna bilər. Foton kristalları periodik təkrarlanan (1, 2 və 3 ölçülü) makroskopik struktura malik olurlar ki, bu da sındırma əmsalının makrostrukturlar üzrə periodik təkrarlanmasını təmin edir. Foton kristallarda qadağan zonanın sərhədinə yaxın yerlərdə mənfi refraksiyanın mümkünlüyü nəzəri olaraq M.Natomi (Yaponiya) tərəfindən əsaslandırılmışdır [3].

Metamaterialın sintezi üzrə texnologiya olduqca mürəkkəbdir və yalnız nanotexnologiya əsasında mümkündür. Metamaterialların unikal xassələrə malik olması, materialla örtülmüş obyektin görünməz olması, müstəvi səthlərə malik fokuslayıcı linza yaratmağın mümkün olmağı, optik sistemlərdə difraksiya təhrifinin olmamağı və s. transformasiya optikası üzrə yeni imkanlar yaradır.

Təqdim olunan işdə məqsəd fenomenoloji nəzəriyyə baxımdan metamaterialların optik xassələrinin riyazi modellərini təhlil etməkdən və mənfi refraksiyaya malik mühit üçün müxtəlif optik hadisələrdə fenomenoloji nəzəriyyənin imkanları çərçivəsini müəyyənləşdirməkdən ibarətdir.

Fenomenoloji nəzəriyyə baxımdan mühitin elektromaqnit dalğasına reaksiyası makroskopik parametrlər olan kompleks dielektrik və maqnit nüfuzluğu adlanan iki kəmiyyətlə xarakterizə olunur. İzotrop və maqnitodielektrik mühit üçün dielektrik nüfuzluğu $\varepsilon = \varepsilon_r + j\varepsilon_i$ kimi, maqnit nüfuzluğu isə $\mu = \mu_r + j\mu_i$ kimi ifadə olunur. Mənfi refraksiya şərti (qrup sürətinin faza sürətinə əks yönəlməsi) Laxtakia şərti ilə ifadə olunur [4].

Passiv mühit ($\varepsilon_i > 0, \mu_i > 0$) üçün Laxtakia şərti $\varepsilon_r\mu_i + \varepsilon_i\mu_r < 0$ kimi ifadə olunur. Göründüyü kimi, passiv mühit üçün mənfi refraksiya şərti eyni zamanda $\varepsilon_r < 0$ və $\mu_r < 0$ olduqda mümkündür. Bu halda sındırma əmsalının həqiqi hissəsi mənfi olur: $n_r = \sqrt{\varepsilon_r\mu_r} < 0$. Xüsusi halda, mühit optik şəffaf olduqda ($\varepsilon_i = 0, \mu_i = 0$), Laxtakia şərti məlum Veselaqo mühitini təsvir edir[5]: $n = \sqrt{\varepsilon\,\mu} < 0$. Mənfi refraksiyalı optik şəffaf mühit iki neqativ indeksli(ingilisdilli ədəbiyyatlarda DNNIM – double-negativeindexmaterials)adlanır.

Mühit dissipativ olduqda ($\varepsilon_i > 0, \mu_i > 0$), Laxtakia şərti parametrlərdən yalnız biri mənfi olduqda da ödənilə bilər: $\varepsilon_r > 0, \mu_r < 0$, yaxud $\varepsilon_r < 0, \mu_r > 0$. Bunun üçün, Laxtakia şərtinin ifadəsindəki cəmdə mənfi həddin modulu müsbət həddən böyük olmalıdır. Belə material bir neqativ indeksli material (ingilis dilli ədəbiyyatlarda SNNIM – single-negativenegativeindexmaterials)adlanır.

Foton kristallar maqnit xassəli deyillər. Onların mənfi refraksiyalı olması xassəsi yalnız onların strukturu ilə bağlıdır. Belə struktur sındırma əmsalının periodik dəyişməsi ilə əlaqədardır. Bu baxımdan foton kristalın optik şüalanmanın təsirinə reaksiyası, rentgen şüasının kristalda difraksiyası hadisəsinə bənzəyir. Belə ki, foton kristalın təbəqələrindən keçən şüa getdikcə zəifləyir, difraksiyaya uğramış şüalar isə əks olunaraq interferensiya nəticəsində güclənirlər. Bu zaman, dalğa ədədinin müəyyən qiymətlərində mənfi refraksiya hadisəsi müşahidə oluna bilər. Lakin, foton kristalın bu xassəsindən metamaterialın sintezində istifadə olunmur. Səbəb, foton kristalda periodikliyin dalğa uzunluğu tərtibində olması və foton kristal üçün Breq difraksiyasının

xarakterik olmasıdır. Metamateriallar üçün əsas tələblərdən biri struktur zərrəciklərin ölçüsünün dalğa uzunluğundan çox kiçik olmasıdır.

Təbiətdə dielektrik nüfuzluğu mənfi olan materiallara metallar nümunə ola bilər. Belə ki, plazma tezliyindən yuxarı tezliklərdə metallar üçün dielektrik nüfuzluğu mənfidir və onlar şəffafdırlar. Maqnit nüfuzluğu mənfi olan material isə təbiətdə mövcud deyil. 2000-ci ildə ingilis fiziki ConPendri göstərmişdir ki, yarığı olan üzük formalı struktur keçirici mühit olarsa, belə struktur mənfi maqnit nüfuzluğuna malikdir və mənfi dielektrik nüfuzluğu yaradan periodik düzülmüş metal çubuqlarla kompozisiyada metamaterial (mənfi refraksiya) xassəyə malikdir [7].

Metamaterialların unikal xassələrə malik olması tədqiqatşılar tərəfindən onlara olan marağı daha da artırmış və son vaxtlarda nanozərrəciklər və süni maqnetiklər əsasında sintez olunan metamateriallar üçün yeni texnologiyalardan istifadə olunmağa başlanılmışdır.

Fenomenoloji nəzəriyyə baxımdan optikanın əsas qanunlarının mənfi refraksiyalı mühit üçün istifadə olunmasıelmi məqalələrdə geniş müzakirə olunan məsələlərdəndir [7,8].

Məsələn, məlumdur ki, iki mühit sərhədində şüanın sınması Sinellius qanunu, mühitdə optik yolun uzunluğu isə Ferma prinsipi ilə təyin olunur. Ferma prinsipinə görə optik yola sərf olunan zaman minimum olur, Sinelliusqanununa görə isə $n_{21} < 0$ şərtinə uyğun sınma bucağı mənfidir (şəkil 1,a). Bu hallar, metamaterialın müşahidə olunan optik xassəsini əks etdirməlidir.

Tutaq ki, nazik müstəvi lövhə üçün $\varepsilon = \mu = n = -1$ kimidir. Onda, Sinellius qanununa əsasən, şüanın yolu şəkil 1,b-də göstərilən kimi təsvir olunar və Ferma prinsipinə görə $Am + nB = nm$ kimi olar.



Şəkil 1. Mənfi refraksiyalı mühitdə şüanın yolu: a) şüanın sınmasının təsviri, $n_2 > 0$ halına 1-4 istiqaməti, $n_2 < 0$ halına $1 \to 3$ istiqaməti uyğundur; b)nazik lövhədə şüanın yolu

Şəkil 1,b-dən göründüyü kimi, mənfi refraksiyaya malik nazik müstəvi lövhə fokuslayıcı linza funksiyasını yerinə yetirir. Belə linzanın fokuslama həddi difraksiya ilə məhdudlaşmır. Obyekt məsafəsi lövhənin qalınlığından böyük olmadıqda nöqtənin təsviri obyekt oblastdan təsvir oblastına təhrifsiz köçürülür.

Digər materiallarda olduğu kimi,metamateriallara da dispersiyaya xassəsi xarakterikdir. Mühitdə yayılan dalğanın tam enerji üçün ifadə dispersiya nəzərə alınmaqla

$$W = \frac{\partial(\varepsilon\omega)}{\partial\omega} E^2 + \frac{\partial(\mu\omega)}{\partial\omega} H^2$$

kimi ifadə olunur.Tam enerjinin müsbət olması üçün dielektrik və maqnit nüfuzluğunun tezlik dispersiyası belə ifadə olunur:

$$\mu = 1 - \frac{A_m^2}{\omega^2},\ \varepsilon = 1 - \frac{A_e^2}{\omega^2}$$

İfadələrdən göründüyü kimi $A_e^2 = A_m^2 = A^2 > \omega^2$ olarsa mühit mənfi refraksiyalı olar, dalğanın faza və qrup sürətləri biri-birinə əks istiqamətlərə yönələr:

$$\vartheta_{ph} = \frac{c}{1 - A^2/\omega^2};\quad \vartheta_{ph} = \frac{c}{1 + A^2/\omega^2}.$$

Fenomenoloji baxımdan əsas optik hadisələrdən olan Çerenkoveffekti və Doplerhadisəsimənfi refraksiyalı mühit halında müəyyən xüsusiyyətlər kəsb edir [9]. Belə ki, mənfi refraksiya zamanı dalğa vektoru qrup sürətinin əksinə yönəlir vəÇerenkov effekti halında şüalanma konusu dalğa vektoru ilə kor bucaq əmələ gətirir, Dopler effekti üçün isə yaxınlaşan obyekt halında şüalanma tezliyi azalır.

Fenomenoloji baxımdan metamateriallar üçün Frenel düsturlarında da müəyyən düzəlişlərin edilməsi tələb olunur. MetamaterialüçünFrenel düsturlarında sındırma əmsalı aşağıdakı kimi əvəz olunur:

$$n = \sqrt{\varepsilon} \to \frac{1}{z} = \sqrt{\varepsilon / \mu}$$

Praktikada istifadə baxımdan mənfi refraksiyalı mühitdə dalğanın harmonik təşkiledicisinin generasiya olunması əhəmiyyətlidir. Mənbələrdə göstərilir ki, bu hal müəyyən xüsusiyyətlərə malikdir [9].

Tutaq ki, mühit $\Delta\omega$ tezlik diapazonunda mənfi refraksiya xassəlidir və belə mühit sərhədinə vakuumdan spektral eni $\Delta\Omega >> \Delta\omega$ olan $\Delta\omega << \omega$ tezlikli impuls təsir göstərir. Nəzəri hesablamalar göstərir ki, müəyyən şəraitdə dalğanın əsas enerjisi ikinci harmoniyaya transformasiya oluna bilər və səth ideal əks etdirici olar. Hesablamalar həm də göstərir ki, mənfi refraksiyalı mühitdə belə impuls müxtəlif spektral tərkibə malik üç impulsa ayrılır. Belə ki, əks olunan impulsun spektral tərkibi düşən impulsla eynidir. Mənfi refraksiyalı mühitdə yayılan impulsların spektral tərkibləri və dalğa vektorlarının istiqamətləri isə müxtəlifdir. İmpulsun mərkəzi hissəsi ($\Delta\omega$ tezlik intervalı) mənfi refraksiyaya məruz qalır, kənar hissələr isə müsbət refraksiyaya uyğun istiqamətdə yönəlir. Sındırma əmsalının dispersiyası nəticəsində mənfi refraksiyalı mühitdə sınan şüanın qeyd olunan kimi spektral tərkibə ayrılması praktik əhəmiyyətə malikdir. Metamaterialdan istifadə etməklə şüalanmanın spektral tərkibə ayrılması hadisəsindən müvafiq optoelektron cihazların yaradılmqasında və optik üsullarla informasiyanın emalı qurğularında istifadə oluna bilər.

Metamaterialların optik xassələri üzrə fenomenoloji nəzəriyyə baxımdan aparılan təhlil onu göstərir ki,mənfi refraksiyaya malik mühit üçün müxtəlif optik hadisələrdə fenomenoloji nəzəriyyənin imkanları çərçivəsi müəyyənləşdirə bilər. Bu zaman,elektromaqnit dalğasının mənfi refraksiyaya malik mühitdə yayılması və mühiti təşkil edən struktur zərrəciklərlə qarşılıqlı təsiri zamanı dalğa enerjisinin transformasiyasını modelləşdirmək üçün təcrübə nəticələri ilə təsdiq olunan faktların nəzəri mülahizələrlə adekvat olmağı əsas götürülə bilər.

Ədəbiyyat siyahısı

1. Smith D. R., Padillia W. J., Vier D.C., Nemant-Nasser S.C.,Schultz S.A.Composite medium with simultaneously negative permeability and permittivity // Phys. Rev. Lett. 2000. Vol. 84, № 18. P. 4184–4187.
2. Кильдишев А. В., Шалаев В. М. Трансформационная оптика и метаматериалы.-УФН, 2011, т.181, №1, с.59–70.
3. Notomi M. Theory of light propagation in strongly modulated photonic crystals: Refractionlike behavior in the vicinity of the photonic band gap.-*Phys. Rev. B,* Vol. 62, 10696, 2000.
4. Барыкина Е.И. Математические модели отрицательной рефракции электромагнитных волн в диспергирующих, инверсных и анизотропных средах.-Автореф.дис.канд.физ-мат.наук, Уляновск: УлГТУ, 2009, 20с. (с.8-9)
5. Веселаго В.Г. Электродинамика веществ с одновременно отрицательными значениями ε и μ.-УФН, 1967, Том 92, вып. 3, с. 517–526.
6. Pendry J.B. (2000). Negative refraction makes a perfect lens.- Phys. Rev.Lett., 2000, vol.85, p.3966-3969.
7. Давидович М. В. Почему не может быть использован отрицательный показатель преломления .-Известия Саратовского Университета, 2011, т.11, Сер.Физика, вып.1, с.42-47.
8. Виноградов А.П., Дорофеенко А.В., Зухди С. К вопросу об эффективных параметрах метаматериалов.-УФН, 2008, Том 178, № 5, с.511–518.
9. Агранович В.М., Гартштейн Ю.Н. Пространственная дисперсия и отрицательное преломление света.- УФН, 2006, Том 176, №10, с.1051-1068.

ELEKTROTEXNİKİ QURĞULARIN VƏ SİSTEMLƏRİN AVTOMATLAŞDIRILMIŞ LAYİHƏLƏNDİRMƏ ALƏTİNİN ARXİTEKTURASININ İŞLƏNMƏSİ

Zeynalova S.M., Məhəmmədli H.M.
Sumqayıt Dövlət Universiteti

Avtomatlaşdırılmış layihələndirmə sistemləri(ALS) bir elmi istiqamət kimi keçən əsrin ortalarından başlayaraq inkişaf etməyə başlamışdır. Məlum olduğu kimi istənilən layihələndirmə prosesi uzun müddət tələb edən prosedurlar toplusundan ibarətdir. Əgər keçən əsrin ortalarına kimi layiləndirilən obyektin yaşama müddəti (istismarda olduğu müddət) əksər hallarda onun layihələndirilməsinə, hazırlanmasına, sınaq və tətbiqinə sərf olunan müddətə bərabər və yaxud nisbətən çox olurdusa, 70-ci illərdən başlayaraq istehsal olunan məhsulların çeşidinin artması, tələbata uyğun məhsulların istehsalının qısa bir müddətdə başqa məhsullarla əvəz olunmasının vacibliyi, layihələndirilən obyektin istehsalı və istismarda olduğu müddətin azalmasına səbəb olur, layihələndirmə müddətinin çox olması isə səmərəliliyi əhəmiyyətli dərəcədə azaldırdı. Bu halda vəziyyətdən çıxış yolu yeni informasiya-kommunikasiya texnologiyalarından, müasir avtomatlaşdırma və modelləşdirmə vasitələrindən istifadə etməklə layihələndirmə müddətinin qısalması, lahihələndirilən obyektin çevik şəkildə avtomatik və ya avtomatlaşdırılmış layihələndirilməsini təmin etməkdir.

Elm və texnikanın müxtəlif sahələrində yeni layihələrin işlənməsi və mövcud qurğu və sistemlərin təkmilləşdirilməsi üçün müxtəlif təyinatlı ALS-lər işlənmış və geniş imkanlara malik olan layihə təşkilatlarında, eyni zamanda layihə institutlarında istifadə olunurlar. ALS-lər mövcud standartlara cavab verən obyektləri layihələndirir, sınaqlardan keçdikdən sonra həmin obyektlər istehsal olunurlar.

Təcrübə göstərir ki, layihələndirilən obyektlərin tətbiqi və istismarı müddətlərində qarşıya çıxan çatışmamazlıqların yerlərdə aradan qaldırılması iqtisadi cəhətdən daha səmərəlidir. Dünya təcrübəsi də bu istiqamətdə aparılan işlərin aktuallığını təsdiqedir.

Qeyd edilənlərlə yanaşı, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilir. Dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesini sürətləndirir.Bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi məqsdəi ilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci ildəki Fərmanı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradılmışdır. Həmin mərkəz dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən qurumdur.[3]

Asan xidmət mərkəzlərinin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında məqsədlərə çatmaq üçün yaradılmışdır.

Beləliklə "Elektron Hökumət" portalının tətbiqinin genişləndirilməsi üzrə aparılan intensiv fəaliyyətə görə hazırda BMT-nin "Elektron Hökumət"ininkişaf səviyyəsinə görə reytinqində Azərbaycanın 193 ölkə arasında 28 pillə irəliləyərək, 68-ci yerdə bərqərar olub. Hazırda "Elektron Hökumət" portalına ölkənin 46 mərkəzi icra hakimiyyəti orqanı qoşulub, portalda təqdim edilən xidmətlərin sayı 405-ə çatıb.

İnformasiya və rabitə sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində son 10 ildə göstərilən xidmətlərin həcmi də əsaslı şəkildə artmışdır. Belə ki, 2005-2015-ci illərdə əhaliyə, fiziki
və hüquqi şəxslərə göstərilən rabitə və informasiya xidmətlərinin həcmi 3,4 dəfə; o cümlədən rabitə xidməti-3,1 dəfə; informasiya xidmətləri isə-6,9 dəfə artmışdır [4].

Rabitə xidmətlərinin təsnifatı üzrə artmasına nəzər yetidikdə aydın olur ki, qeyd edilən illər ərzində internet xidməti 14,2 dəfə; DATA xidməti-11 dəfə; şəhər-kənd telefon və mobil telefon rabitəsi xidmətlərinin hər birinin həcmi 2,9 dəfə; sənədli elektron rabitəsi-2,3 dəfə; şəhərlərarası telefon rabitəsi 106,1%, digər xidmətlər isə -31 dəfə artmışdır.

İnformasiyya və rabitə xidmətləri, faktiki qiymətlərlə, min manat

Cədvəl 1.

Göstəricilər	İllər						2005-2015-ci illərdə artım tempi
	2005	2010	2012	2013	2014	2015	
Cəmi	480812	1179641	1439714	1528062	1623550	1641222	3,4 dəfə
Ondan: Rabitə xidmətləri	443168	1087780	1283358	1341800	1389262	1379407	3,1 dəfə
O cümlədən: Sənədli elektirik rabitəsi	267	636	610	611	544	617	2,3 dəfə
Şəhərlərarası telefon rabitəsi	108774	170407	231194	195769	152478	115359	106,1%
Şəhər-kənd telefon rabitəsi	22658	53044	54890	56823	62015	67341	2,9 dəfə
Mobil telefon rabitəsi	295518	785413	872828	908262	915249	873396	2,9 dəfə
Internet (genişzolzqlı daxil olmaqla)	8636	42322	86326	98431	110884	122018	14,2 dəfə
DATA xidməti	1419	8482	11687	17018	18308	15602	11 dəfə
Digər xidmətlər	5896	27476	25823	64886	129784	185074	31,4 dəfə
Informasiya xidmətləri	**37644**	**91861**	**156356**	**186262**	**234288**	**261815**	**6,9 dəfə**
O cümlədən nəşriyyat fəaliyyəti	14257	15958	18448	21696	29164	25900	181,1%
Proqramın tərtib edilməsi,radio və televerlişlərin translyasiya edilməsi	8074	27530	44621	56041	60497	57319	7,1 dəfə
Proqram təminatının işlənməsi, bu sahədə məsləhətlər	9856	19238	35275	47722	69497	91345	9,3 dəfə
Digər xidmətlər	5457	29135	58012	60803	75130	87251	15,9 dəfə

Azərbaycanın Statistik Göstəriciləri. Bakı "DSK", 2016, s596

İnformasiya xidmətlərinin tərkibində proqram təminatının işlənməsi-9,3 dəfə; proqramların tərtib edilməsi, radio və televerlişlərin translyasiya edilməsi-7,1 dəfə; nəşriyyat fəaliyyəti-181,1% digər informasiya xidmətlərinin həcmi isə-15,9 dəfə çoxalmışdır.

Aparılan təhlil və araşdırmalardan göründüyü kimi, rabitə xidmətlərinin yaxşılaşdırılması, insanların rabitə xidmətlərinə çıxışının süətləndirilməsi, asanlaşdırılması istiqamətində ardıcıl addımlar atılmaqdadır. Artıq bir sıra xidmətlər birbaşa təmas olmadan, virtual şəkildə göstərilir. Bu isə sahənin inkişafını ifadə edir. Bununla belə, rabitə xidmətləri və İKT təminatında problemlərdə mövcuddur. Xüsusi ilə regionlarda internetə çıxış imkanlarının aşağı olması İKT avadanlıqları ilə təminatda çatışmazlıqlar və s. problemlərdə mövcuddur.

Beləliklə, son 10 ildə rabitə və informasiya sferasında yeni xidmət növləri və formalarının geniş tətbiqi ölkənin sosial-iqtisadi inkişafına öz tövhələrini vermişdir. Bununla belə, qloballaşma prosesinin geniş vüsət aldığı şəraitdə daha mütərəqqi xidmət növlərinin və formalarının tətbiqinə nail olmaq lazımdır.

Rabitə və informasiya sahəsində əldə edilən yüksək naliyyətlərə baxmayaraq, "Azərbaycan 2020: gələcəyə baxış" inkişafKonsepsiyasında da qeyd edildiyi kimi, qarşıdakı illərdə də informasiya və rabitənin infrastrukturunun inkişafı, ölkə əhalisinin bütün təbəqələrinin müasir elektron xidmət imkanlarının genişləndirilməsi, bölgələrdə İKT-nin tətbiqinin genişləndirilməsi zəruridir.

Ədəbiyyat siyahısı

1. I. Məmmədov. İnformasiya texnologiyaları qeyri-neft sektorunda ən prioritet sahəyə çevrilmişdir. / Xalq qəzeti, 26 sentyabr, 2014, səh 5.
2. V. Zeynalov . Rabitə və yüksək texnologiyalar sahəsində doqquz ayın nəticələri ugurludur. // Xalq qəzeti, 7 noyab, 2014, səh. 4.
3. Vəliyev Y.A. İnformasiya və rabitə xidmətlərinin genişləndirilməsi məsələləri // Azərbaycan qəzeti, 5 aprel, 2016, səh.3
4. www.stat.gov.az
5. A.M.Əsədov, Ə.M.Əsədov. "Elektron xidmətlərin təşkili:reallıqlar və perspektivlər". Dərs vəsaiti, Bakı, "Avropa" nəşriyyatı, 2017,192 səh

NEFT SƏNAYESİNDƏ SƏMƏRƏLİ İDARƏETMƏ SİSTEMİ KİMİ İNTEQRASİYA OLUNMUŞ İNFORMASİYA SİSTEMİNİN (BPM) TƏTBİQİ

Eminbəyli I.
Iqtisadiyyat institutu AMEA

Bu gün qeyri-neft sektorunun inkişaf etdirilməsi Azərbaycan iqtisadi siyasətinin prioritet istiqaməti seçilməsinə baxmayaraq, neft sənayesi hələ də Azərbaycan iqtisadiyyatının aparıcı qüvvəsi olaraq qalır və müasir idarəetmə texnologiyalarını aktiv tədbiq edir.

Dünya böhranı və enerji daşıyıcılarının, əsasən də neftin qiymətinin aşağı düşməsi neft sənayesinin "savadlı" idarəedilməsini tələb edir. Bu isə müasir informasiya texnologiyalarının tədbiqi olmadan mümkün deyil.

Neft sənayesi köklü dəyişikliklər dövründədir. Ona görə də bir çox neft şirkətləri öz investisiya cəlb ediciliyini artırmağa, xərclərin azaldılmasına və biznesin şəffaflığına çalışırlar. Bunun üçün isə informasiya texnologiyalarının köməyindən istifadə edirlər və şirkətlər informasiya dalğasını keçirlər. Bu keçid zamanı Neft şirkətlərinin çoxu SAP şirkətinin proqram təminatlarından istifadə edirlər və ERP-sisteminin tədbiqinə diqqət edirlər. SOCAR da bu proqramlardan istifadə edir. Lakin bu proqram təminatı bütün sahələri (biznes-prosesləri) əhatə edə bilmir.

Azərbaycanın neft sənayesində SAP HANA (High-Perfomance Analytic Appliance) platformasını tətbiqi

SOCAR Orta Asiya regionunda SAP ERP tətbiq edən ilk şirkətlərdəndir. SOCAR ilk olaraq SAP HANA (High-Perfomance Analytic Appliance) platformasını həyata keçirdi (məlumatların saxlanılması və emalının yüksək istehsalı Nevv SQL platformasıdır).

SOCAR şirkəti 2010-cu ildən avtomatlaşdırılmış mühasibat sistemini (SAP ERP) tam tətbiq etmişdir. Bu muhasibatın avtomatlaşdırılmasından sonra SAP ERP şirkətinin struktur bölmələrinə tətbiq edilməyə başlanmışdır. Bu qlobal layihə daxilində "Azərikimya" istehsal birliyinin və digər müəssisələrin mütəxəssisləri xüsusi kurslara cəlb edilmişlər.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) Azərbaycan iqtisadiyyatında böyük paya malikdir. Şirkətin iş keyfiyyətinin yaxşılaşdırılması üçün hesabatların hazırlanması vaxtının azaldılması, maliyyə nəzarətinin güçləndirilməsi və şəffaflığın təmin edilməsi, biznes-proseslərin standartlaşması və avtomatlaşdırılması lazımdır. Digər tərəfdən real vaxt rejimində düzgün qərar vermək üçün etibarlı informasiya alınmalı, təchizatçılar və müştərilərin nəzarəti həyata keçirilməli, insan resursları prosesləri nizamlanmalı, təhlükəsizlik, proqnozlaşdırma və pul axınlarının idarə edilməsi, ödənişlərin nəzarəti, bank sistemləri ilə qarşılıqlı fəaliyyət və s. idarəetmə məsələləri həyata keçirilməlidir.

Bu məsələlərin həlli üçün SOCAR-da ilkin mərhələdə SAP şirkətinin digər proqramları planlaşdırılmış və tətbiq edilmişdir: SAP Fİ (maliyyə ucotu), SAP HR (insan resurslarının idarə edilməsi), SAP MM (maddi ehtiyatların idarə edilməsi), SAP SD (satışın idarə edilməsi), SAP FSCM (maliyyə axınlarının idarə edilməsi), SAP GRC (risklərin və xariçi tənzimləyiçı normativ tələblərə uyğunlaşmanın idarə edilməsi). [**Ошибка! Источник ссылки не найден.**]

SAP modullarının tətbiqi ilə hesabatların hazırlanması müddəti 20 gün azaldılmışdır, hazırlanan hesabatlar lazımı səviyyəni əldə etməyə və məhsul ehtiyatları dövriyyəsini optimallaşdırmağa imkan verir. Əməkhaqqının hesablanması 5 günə kimi azaldılmış, əməkhaqqının hesablanmasının standartlaşma prosesi vəsaitlərinin qənaətinə gətirilmiş, sistemdə risklərin təhlili və ləgv edilməsi aparılmışdır. Bütün əməliyyatlar şəffaf və nəzarət ediləcək oldu.

"SAP Business Objects Risk Management və SAP Business Objects Access Control" – risklərin idarə



Şək. 1. Workflow (BPM) sistemi vasitəsi ilə biznes-proseslərin sərhədləri daxilində inteqrasiya
Mənbə: [1]

edilməsi və xarici tələblərə uyğunlaşma üzrə proqram təminatıdır. Bu modullar səlahiyyətlərin idarə edilməsinə xərclərin azaldılmasına, şirkətin strategı planlaşdırılması zamanı xarici və daxili mühitin təsirinin və şirkətin stabilliyi problemlərinin vaçibliyi məsələlərinin başa düşülməsinə gətirdi.

Sonra SOCAR "SAP Business Objects planninq and Consolidation" modullarını tətbiq edib. Bu modullar birləşmiş hesabatların proqnozlaşdırılmasına hazırlıq, planlaşdırma və büdcə məqsədi üçün tətbiq edilən funksiyaların inkişafını təmin edir. Bu modulların tətbiqi ilə SOCAR MDB ərazisində ən böyük proqram istifadəçisi olmuşdur. Verilən modulların tətbiqi biznes-həllərin qəbulu üçün xarici və idarəetmə hesabatlarının hazırlanma vaxtını azaltmışdır.

SOCAR digər mərhələdə SAP əsasında inkişaf proqramının həyata keçirilməsini davam etdirir. Şirkətin səmərəliliyini artırmağa imkan verən modullara aiddir: SAP ECM (korporativ informasiyanın idarə edilməsi), SAP APO (təchizat zənçirinin idarə edilməsi), SAP İS OİL Donnst ream və s.

2012-ci ildə SOCAR, şirkətin korporativ funksiyalarının avtomatlaşdırılmasından istehsal proseslərinin səmərəliliyinin artırılmasına başladı və digər modulları tətbiq etdi:

- istehsalın planlaşdırılması və qeydiyyatı (SAP PP);
- xam neftin ilkin emalı və ona nəzarətin idarə edilməsi (SAP PM);
- avadanlığın texniki xidməti və təmiri proseslərinin və investisiyanın idarə edilməsi (TOPO);
- layihələrin idarə edilməsi (SAP PS);
- keyfiyyət (SAP QM);
- materiallara tələbatın planlaşdırılması (SAP MM).

2013-cü ildə əvvəl tətbiq edilən SAP Fİ, SAP CO və SAP BPC modullarını inkişaf etdirdi. SOCAR və PWC (konsaltinq-audit şirkəti) şirkətlərinin ekspertləri SAP-ın dəstəyi ilə əməli qərar vermə üçün verilənlərin dəqiqliyini artırma sisteminin işə salınmasını hazırladılar.

SOCAR, Azərbaycan dövlətinin onun qarşısında qoyduğu məsələlərə uyğun olaraq SAP ERP bazası əsasında strategı artım məqsədinə çatmağa əsas yaratmışdır.

SAP ERP – real vaxt rejimində səmərəli idarəetmə proqramıdır. SAP ERP tətbiqinin əsas məqsədi cox funksiyalı avtomatlaşdırılmış idarəetmə sistemidir. SAP proqram təminatı SOCAR-ın biznes prosesinin şəffaflığının və səmərəliliyinin yeni səviyyəsinə keçməyin əsasını qoydu. Bu biznesin inkişaf etdirilməsinə, xarici investorların cəlb edilməsinə, ölkə üçün strateji əhəmiyyəti olan böyük layihələrin həyata keçməsinə əlverişli şərait yaradılmasına əsas oldu.

SAP proqramının tətbiqinin nəticəsi əsasında SOCAR maliyyə hesabatlarına beynəlxalq standartları

tətbiq etdi, əsas biznes-proseslərin qurulması üzrə öz sinfində sahə standartlarını mənimsədi.

Hələ 2007–2008-ci illərdə SOCAR əsas biznes-proseslərin avtomatlaşdırılması layihəsinə başlamışdır. Bu gün SOCAR, kompleks informasiya sisteminin inkişafının yeni mərhələsindədir: tətbiq edilən modulların funksianallığını genişləndirir, şirkətin bütün filiallarını vahid İT-platformasına keçirir. İstehsalın planlaşdırılması (PP), təmirin planlaşdırılması (PM), investisiya layihələrinin planlaşdırılması və nəzarəti (PS) və keyfiyyətin idarə edilməsi (QM) modulları tam gücü ilə işə salınıb. Əsas olaraq istehsal proseslərinin idarə edilməsi sahəsində innovativ addım atılmışdır. Bu addımı dünyada bir neçə şirkət atıb.

SAP UOM sahə həlli əsasında neft istehsalının avtomatlaşdırılması sisteminin yaradılması üzərində işə başlamışdır. SAP Service and Support mütəxəssisləri SOCAR mərkəzi aparatında və 9 neft istehsalı idarəsində tətbiq edirlər. SAP UOM həlli ERP sistemi və SOCAR sahə məlumat bazası ilə birləşdiriləcək. SOCAR sahə məlumat bazasında 40-cı ildən başlayaraq fəaliyyət göstərən guyular haqqında informasiya yerləşir.

SAP UOM tətbiqi ilə neft və qaz hasilatı daha proqnozlaşdırılan olacaq, neft hasilatı və istehsalı prosesində itkilər və bu itkilərin riski 80% azalacaq. SAP UOM tətbiqinə qədər 50%-dən çox informasiya telefonla ötürülür, ölçmələr və hasilatın praktiki həcmi haqqında məlumat kağız üzərində qeyd edilirdi. Hesabatların hazırlanmasına 10-30 gün vaxt sərf edilirdi. Hasilat prosesi və təmir qrafikinin vahid şəklini almaq, hər quyunun fəaliyyət tarixini əldə etmək mümkün deyildi.

SAP UOM – güclü texnoloji platformadır. Onun tətbiqi ilə quyularda ölçmələrin qeydiyyatı bir neçə üsulla mümkün olacaq: mobil qurğularda, informasiya sisteminin məlumatları əsasında avtomatik və ya əl ilə məlumatların daxil edilməsi. Bu modul quyu fondunun əməli idarə edilməsinə, materiallara tələbatın formalaşmasına, istehsalın nəzarətinə imkan verəcək. Rəhbərlik istənilən anda mobil qurğular vasitəsilə hasilat haqqında hesabat ala bilər, bu da qərar qəbulunun operativliyini və dəqiqliyini artırır. Bu sistem əsas proseslərin monitorinqini aparmağa imkan verəcək. Dünya neft şirkətləri arasında SOCAR innovativ texnologiya olan SAP UOM modulunu tətbiq edəcək ilk şirkətlərdəndir.

Bu gün mobil platformaya keçid SOCAR-ın innovativ texnoloji uzunmüddətli strategiyasının əsasını təşkil edir. SAP proqram təminatını dünyanın qabaqcıl neft şirkətləri istifadə edir. Bunlardan TOTAL, BP, STAT OİL misal gətirə bilərik. Bunlar SAP üçün strateji vaçib müştəri, SOCAR üçün isə biznes-tərəfdaşıdır.

SOCAR öz fəaliyyətində "bulud" texnologiyasına keçir. "Bulud" texnologiyası biznesin səmərəliliyini artırmaq üçün müasir informasiya texnologiyalarının istifadəsidir. Bu texnologiya hamının ümümi resurlardan istifadə etməsinə yönəlir. Gartner şirkətinin hesabatına görə "bulud" texnologiyası ERP bazasında yaxın 5 il ərzində əsas istiqamət olacaq.

Gartner analitikləri gəlirin 10 milyon dollardan 10 milyard dollara qədər olan Şimali və Latın Amerikası, Avropa ölkələri, Yaxın Şərq və Afrika, Sakit okean regionları ölkələri şirkətləri arasında sorğu aparmışdır. Sorğunun nəticələri cədvəl 1-da verilib.

Cədvəl 2

"Bulud" texnologiyasına keçid üzrə sorğunun nəticələri

	%	Şirkətin növü
Yaxın 5 il ərzində keçir	47	adminstrativ funksiyalı (HR, maliyyə, təchizat)
Keçmir	30	istehsalat

Sorğuda iştirak edən 85% şirkət "bulud" texnologiyasından istifadə etmir. İstifadə etməyən şirkətlərin 45%-nin bu texnologiyadan heç xəbəri yoxdur, 30%-i isə informasiya təhlükəsizliyi riski olduğundan narahatdır. Olan məlumatlara görə "bulud" texnologiyası tətbiqindən 54% şirkət 0-40% qənaət, 2% şirkət 80% qənaət əldə etmişdir. [5]

İlkin olaraq SOCAR korporativ "bulud" yaradılır. Əsas informasiya sistemi əsas ofisdə, SOCAR informasiya texnologiyaları departametində yerləşdirilir və 130 idarəyə korporativ "bulud" təqdim edilir. "Bulud" texnologiyasının çatışmazlığı məlumatın saxlanılmasının etibarsızlığı və İnternetdən asılılıqdır.

SOCAR böyük şirkət olaraq 15 ölkədə fəaliyyət göstərir. Adətən tətbiq prosesi bir neçə mərhələdən ibarətdir: metodologiyanın auditi və işlənməsi, sistemin yaradılması və qurulması, test buraxılışı, işə düşmə, çoxaldılma.

Bu gün SAP ilə SOCAR–ın 2,5 min mütəxəssisi işləyir və əl əməliyyatları azaldılıb. SAP təmini ilə səhv etmə riski azaldılıb, müasir sahə standartlarına keçilib.

Aparılan işlərə görə SOCAR Fitch Ratings, Moody's və "Standard and Poor's" dünya reytinq şirkətlərində "BBB - / Stabil", " Ba1 / Stabil" reytinqinə malik olub.

Neft-qaz sektorunun və neft-kimya sənayesinin modernləşdirilməsi sərhədlərində ARDNŞ-ın 2025-ci ilədək kompleks perspektiv inkişaf planı yaradılmışdır. SOCAR formalaşması və inkişafının informasiya texnologiyaları strategiyasını dövlətin enerji səmərəlilik siyasətinə istiqamətlərini və muasir İT- idarəetmə

alətlərinin istifadəsini genişləndirməyə yönəldib.

SOCAR SAP S/4 HANA platformasına keçidi planlaşdırır. Müasir dövrdə məlumat həcmi artır, İT məlumatın alınması, emalı və təhlilini maksimum sürətləndirməyə yönəldir. Memory SAP HANA platforması buna imkan verir. SAP S/4 HANA biznesi idarəetmə prosesini inkişaf etdirərək onu sadələşdirir. SOCAR-da SAP həllinin funksianallığının 20-30%-i təhlükəsizlik sisteminə düşür.

Texnoloji birləşmənin avtomatlaşdırılması prosesi

Müasir dövrdə neft şirkətlərinin əksəriyyətində uçot məsələləri həll edilib və ya da həll edilmə ərəfəsindədilər. Lakin biznes-proseslərin idarəetmə sisteminin qurulması məsələləri hələ həll edilməlidir. Biznes-proseslərin idarəedilməsi üçün Business Process Management (BPM) sinfinə aid ixtisaslaşdırılmış sistemlər var. Ümumi halda BPM sinifli sistemini iş (workftow) axının idarəetmə sistemi kimi müəyyən etmək olar. BPM sistemi sərhədlərində biznes-prosesin məqsədinə əsasən müxtəlif məsələlər ciddi müəyyən edilmiş anda (zamana və ya vəziyyətə görə) həll üçün insanlara və ya proqram əlavələrinə yönəldilir.

Bir tərəfdən BPM-sistemi tez bir zamanda avtomatlaşdırılmış prosesləri yaratmağa və tədbiq etməyə imkan verən quruluşdur. Bu əsasən restrukturizasiya şəraitində vacibdir. Bu dövrdə yeni reqlamentlərin yerinə yetməsinin dəqiqliyinə və dürüstlüyünə təminat verən informasiya mühitinin yaradılması üçün çevik alət lazım olur. Digər tərəfdən BPM sinif sistemləri qeydiyyat və ERP-həll imkanlarını tamamlayır, şirkətin keçid proseslərinin dəqiq və vaxtında yerinə yetirilməsinə təminat verir. Bir çox şirkətlər üçün belə proseslər çox mürəkkəb və müxtəlifdir.

Neft sənayesində belə prosesə misal texniki birləşmə, avtomatlaşdırma prosesini göstərə bilərik. Bu prosesləri BPM (workflow) sinif sistem platformasında yerinə yetirmək daha səmərəlidir.

Workflow-iş axınlarının və onun vasitəsi ilə biznes-prosesləri idarəetmə kimi qəbul edilib. Workflow Management Coalition (WfMC) beynəlxalq təşkilatı bu prosesi belə açıqlayır: ”Workflow-lazımi fəaliyyəti yerinə yetirmək üçün prosedur qaydalara uyğun olaraq sənəd, informasiya və ya məsələ bir iştirakçıdan digərinə ötürən biznes-prosesin tam və ya hissəvi avtomatlaşdırılmasıdır”[2]. Bu prosesin əsas xüsusiyyətlərinə aiddir: yerinə yetirmənin yuxarı tezliyi (qoşulma ya sorgu çoxluğu), müxtəlif İT-həlli olan bir neçə funksional bölmənin prosesində iştirak, yerinə yetmə alqoritminin mürəkkəbliyi, razılaşmaların sayının çoxluğu və s. Bu xüsusiyyətlərdən irəli gələrək deyə bilərik ki, bu prosesin idarəedilməsi üçün BPM-sistemindən istifadə etmək lazımdır.

Texniki birləşmə prosesini açıqlasaq, görərik ki, bu aşağıda verilən funksiyaları yerinə yetirən mürəkkəb məntiqə malik prosesdir:

-birləşməyə sorğuların ilkin emalı;
-birləşməyə sorğuların qeydiyyatı;
-məlumatın tamlığının təhlili;
-texniki imkanların müəyyən edilməsi;
-müqavilə layihəsinin hazırlanması;
-müqavilənin yoxlanılması və göndərilməsi; müqavilənin razılaşdırılması;
-müqavilənin imzalanması; müqavilənin qeydiyyatı;
-pul vasitələrinin çatmasının yoxlanılması;
-enerji qənaəti layihəsinin müəllifi ilə razılaşma;
-mütəxəssislər tərəfindən texniki şərtlərin yoxlanılması;
-birləşmə qurğularının texniki baxışında iştirak;
-texniki birləşmə üzrə aktın təşkili;
-təhvil-təslim aktının təşkili.

Funksiyaların tərkibindən göründüyü kimi BPM–sistemi bu prosesin idarəedilməsi üçün səmərəli alət ola bilər. Bu prosesin yerinə yetməsi üçün çoxlu informasiya sistemləri istifadə edilir. Burada həm CRM-sistemi (Customer Relationship Management-müştərilər haqqında məlumat saxlayan), uçot sistemi (maliyyə hərəkətliyini təmin edən), müqavilələrlə iş var. Təcrübədə az hallarda bir-biri ilə inteqrasiya edilir. Bu inteqrasiya prosesdə çoxlu sayda informasiya kəsiyi əmələ gətirir. Bu da vaxt və xərc tələb edir. BPM-sistemini istifadə etməklə biznes-prosesin avtomatlaşdırılması sərhədlərində bütün istifadə edilən sistemlərin inteqrasiya məsələlərinin həlli kompleks İT-həll yaratmağa imkan verir.

Texniki birləşməyə oxşar biznes-proses telekommunikasiya sahəsində də var və müştərilərlə birləşmə prosesi adlanır. Neft şirkətlərindən fərqli olaraq telekommunikasiya şirkətlərində avtomatlaşdırmada BPM-sistemlərindən istifadə edillər. Bu onunla əlaqədardır ki, telekommunikasiya şirkətləri çoxdan yüksək-rəqabətli mühitdə işləyirlər və orada birləşmə sürəti çox vacibdir. Neft sənayesində vəziyyət fərqlidir. Daha yumşaq rəqabət mühitinə baxmayaraq neft sənayəsi BPM-sistemini istifadə edərək verilən prosesin avtomatlaşdırılması işini aparır.

Əsas məqsəd - əməli xərclərin azaldılması və icra intizamının qaldırmasıdır. BPM –sisteminin müsbət xüsusiyyəti ondan ibarətdir ki, onun köməyi ilə müxtəlif proseslərin avtomatlaşdırılmasını yerinə yetirmək mümkündür. Neft sənayesində BPM-sistemi vasitəsi ilə avtomatlaşdırılan proseslərdən biri də kodlaşdırma və hesab-fakturanın təsdiq edilməsidir.

Bu prosesə BPM-sisteminin tədbiq edilməsinin vacibliyi və səmərəsi, onun yüksək tezlikli və "ciddı" alqoritmli olmasındadır.

Kanadanın Kalqarı şəhərində yerləşən, ABŞ-ın 29 ştatında, 3 Kanada əyalətində Böyük Britaniyada qurğuları olan "Calpina Canada" şirkətinin biznes-sistemlərin inteqrasiya meneceri Steve Oracheskinin sözlərinə görə: "Calpina Canada texnologiyanın nəticələrinin istifadəsi və istehsal proseslərinin artırılmasına innovativ yanaşma, administrativ xərclərin azaldılması və informasiyanın sistemləşdirilməsi sahəsində boyük təcrübəyə malikdir. BMP-sistemi bizə məqsədlərimizə çatmaqda böyük dəstək idi"

Bu keyfiyyət menecmenti sisteminin tədbiqi (məsələn, İSO9000 standartı əsasında) - keyfiyyət menecment sisteminin dəstəklənməsi, əməli səmərənin artırılması xidmətinin keyfiyyətinin yaxşılaşdırılması üsullarından biridir. Bu yolla iqtisadiyyatın müxtəlif sahələri üzrə bir çox şirkətlər hərəkət edirlər. Neft sənayesi də bunlardan biridir. Neft sənayesinin prioritet məsələlərindən biri - keyfiyyət standartlarının tədbiqidir. Azərbaycanda elektron sənəd dövriyyəsinin olmasına baxmayaraq, hələ də bəzi sahələrdə işlər kağız üzərində aparılır, bu isə məlumat itkisinə və səhvlərin olmasına gətirir. Keyfiyyət menecmenti sisteminin dəstəklənməsi üçün BPM-sisteminin istifadəsi bu problemlərdən qaçmağa imkan verir. Buna misal BPM-sistemini xarici neft şirkətində realizə edilən məhsulun keyfiyyətinə nəzarət üçün istifadə etmək olmasıdır. İşçi keyfiyyətsiz nəticəli iş gördükdə proses BPM-sistemində qeydə alınır. Sonra işçi lazımı keyfiyyətsiz məhsul üzrə məlumatı BPM-sisteminə daxil edir. Bu anda məlumat avtomatik yoxlanılır. Digər mərhələdə keyfiyyətə cavab verən şöbə baş verən halı qəbul edir və alınan məlumata riayyət edir.Bu halda keyfiyyət şöbəsinin nümayəndəsi keçmişdə bu halla əlaqəli baş verən halları axtarır. Alınan məlumatdan istifadə edərək o işin qiymətləndirilməsi barədə qərar qəbul edir. İşin "mənfi" olması qəbul edilirsə, keyfiyyətə cavab verən şöbə nümayəndəsi bu halı nəzərdən keçirəcək şöbəni müəyyən edir, məsələn, istehsalat,mühəndis və ya satış şöbəsini. Ondan sonra Ultimus sistemi məsələləri yalniz seçilən şöbələrə göndərir. Bu şöbələr öz məsələlərini qəbul etdikdən sonra problemin gələcəkdə aradan qaldırılmasına qənaət vermək üçün biznes-prosesdə lazımı düzəlişlər haqqında təkliflərini əlavə edirlər. Şöbələrdən gələn təkliflər keyfiyyət şöbəsinin nümayəndəsi bütün şöbələrdən gələn məlumatı nəzərdən keçirərək toplayır və məsələni bağlayır. BPM-sistemi problemi həll edərək bağladıqda avtomatik hesabat sənədi formalaşdırır və gələcəkdə axtarışlar üçün istifadə edilən bilik bazasını təzələyir.Əslində BPM-sistemi bu misalda təsvir edilən məsələdən də geniş məsələlər həll edir. BPM-sistemi biznes-prosesin standartlaşdırılması, məlumat toplanması, nəzarətin formalaşması kimi məsələləri həll edir. Bu da yüksək-səmərəli keyfiyyət menecmenti alətini tədbiq etməyə imkan verir.

Kolumbiyanın iri neft şirkəti olan Ecopetrol (Empresa Colombiana de Petroleos) BPM-sistemini tədbiq edir. Bu şirkətin sənəd dövriyyəsinin avtomatlaşdırılması üzrə layihə meneceri Deyaniza Gomer fikrincə: "BPMS proqramını tədbiq etdiyinə görə Ecopetrol şirkəti sənəd mübadiləsinin tamlığını təmin edə bilir. BPMS köməyi ilə biz əsas məhsul xətlərinə gorə İSO sertifikatı ala bilirik. BPMS Ecopetrol şirkətinin İSO9000 standartının saxlanmasına kömək edir."

BPMS çevikliyi və açıq arxitekturası Ecopetrol məlumat bazaları ilə sənəd mübadiləsinin idarəetmə sistemləri, MSoffise proqramları ilə sürətli inteqrasiyanı təmin edir. Bu ana kimi Ecopetrol şirkəti BPMS-köməyi ilə 10 məhsula İSO9000 sertifikatı alıb.

İstənilən şirkətin İT-mühiti ilə inteqrasi üçün BPM-sisteminin istifadəsi bir neçə informasiya sistemi tələb edir. Avtomatlaşdırma məsələlərinin həlli zamanı müxtəlif bölmələrin informasiya sistemini vahid İT-həllinə birləşdirilməsi lazımdır. Bu məsələ əsasən keçid proseslərində çox aktualdır. Ona gorə də biznes-proseslərin idarəedilməsinin tam həlli üçün müxtəlif sinif əlavələr və onların inteqrasiyası tələb oluna bilər.

İstənilən mütəxəssis inteqrasiyanın səmərəliliyinə şübhə edə bilər. Lakin BPM biznes-prosesin avtomatlaşdırılmasını tez təşkil edə bilərək geniş imkanlara malikdir. O müxtəlif informasiya sistemləri arasında məlumat mübadiləsini təmin edir. Nəzərə alsaq ki, bir çox neft şirkətlərində, SOCAR-da da SAP sistemi quraşdırılıb, onda BPM sistemində SAP-in ERP-sistemi ilə inteqrasiya edən hazır interfeysin olması lazımdır. SAP sistemi olan yerlərdə biznes-proseslərin avtomatlaşdırılması üçün BPM-sistemindən istifadə edildiyindən bu sistemlər arasında standart inteqrasiya adaptoru hazırlanmışdır.

SAP və BPM sistemlərinin inteqrasiyası zamanı bəzi prosedurlar SAP əhatəsinin daxilində yerləşə bilər, onda digər sistemlərlə inteqrasiya lazım gəlmir. Lakin bir çox hallarda proseslər SAP-əhatəsindən kənarda yerləşə bilər və digər əlavə və istifadəçilər arasında qarşılıqlı fəalliyyət göstərə bilər. Bu halda BPM –sistemi informasiya ötürülməsi səviyyəsində inteqrasiyanı təmin edir.

"Keçid" biznes-prosesinin avtomatlaşdırılması ücun BPMS-sistemində digər sistemlərlə inteqrasiya adaptorı hazırlanıb: MSoffice,Microsoft Biz Talk Server, Microsoft Share Point Portal,SAP və s.

BPM-sistemi inteqrasiya məsələlərini asanlaşdırmaq üçün SERVİS – istiqamətlənmiş arxitektura (Service Oriented Architecture – SOA) təmin edir. Bu İT-həllin yaradılmasında "mərkəzi əsəb sistemi"olur, çünki müxtəlif əlavələr tərəfindən təqdim edilən xidmətləri idarə edir. Burdan belə nəticəyə gələ bilərik ki, neft sənayesində BPM- sistemindən aktiv istifadə gözlənilir.

Bu sistemi tədbiq edən bir çox xarici şirkətlərin təcrübəsi göstərir ki, BPM-sisteminin tədbiqi yüksək səmərə verir (Public Gas Corporation of Greece (DEPA), Empresa colombiana de Petroleos (Ecopetrol), Canadian oil and natural gas company, CEP (French Atomic Energy Commission),Sierra Pacific və s.). Dünya təcrübəsində on minlərlə layihənin tətbiqinə əsasən BPM texnologiyalarının səmərəliliyinin orta göstəriciləri yuxarıdır [3]: neft hasilatında xərclər 30% , sona çatmayan istehsal 50%, əmək sərfi 25% azalır.

BPM-sisteminin tədbiqi aşağıdakı üstünlüklər verə bilər[1]:

-biznes – prosesin 3 dəfədən çox sürətlənməsi;
-biznes-prosesin qiymətinin 20-30% azalması
-informasiya sisteminin dəyişiklik edilməsi vaxtının 1 günə kimi azadılması
-prosesin təkminləşdirilməsi üçün statistikanın toplanması imkanı;
-texniki dəstək xidmətinə zənglərin sayını azadılması;
-kağız sənəd mübadiləsinin aradan qalxması.

Nəticə

Beynəlxalq miqyasdya biznes proseslərin idarəetmə sisteminin gurulmasında BPM (Business Process Managment) sinifinə aid olan ixtisaslaşmış sistemlərdən geniş istifadə olunur.

Bu sistemin istifadəsi neft sektorunun inkişafının müasir mərhələsində yeni reqlamentlərin icrasının dəqiqliyinə təminat verən çevik informasiya mühitinin yaradılmasını təmin edir. Həmçinin BPM sinif sistemləri qeydiyyat və ERP-həll imkanlarını artırır, vaxtında yerinə yetirilməsinə təminat verir.

Ona görə də neft sektorunda idarəetmədə, quruluş dəyişiklikləri ilə əlaqədar proseslərdə BPM (workflow) sinif sistemindən istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir.

Neft sənayesində keyfiyyət idarəetmədə sisteminin tətbiqi, strukturlararası informasiya təminatı və görülən işlərin beynəlxalq keyfiyyət standartlarına uyğun BPM (workflow) sistemindən istifadə etməklə, biznes-proseslərin sərhədləri daxilində inteqrasiya olunmuş fəaliyyəti və onun səmərəliliyini həyata keçirir.

Dünya təçrübəsi üzərində qurulan vahid ekosistemin işi əməkdaşlıgın səmərəsini artırır və birgə layihələrin aparılmasını sadələşdirir. Bundan başqa şəffaflığın və əməli səmərəliliyin beynəlxalq standartları əsasında biznesin aparılması Azərbaycanın digər dövlətlərlə qlobal əməkdaşlığına, investisiya axınına əlverişli şərait yaradır.

Ədəbiyyat siyahısı

1. Коптелов А.К. Внедрение систем workflow/BPM (Business Process Management) на предприятиях ТЭК., http://www.koptelov.net/bpms-1074-1101108510771088107510771090107710901080108210 77.html
2. Коптелов А.К.,. Шматалюк А.Е. Технологии управления бизнес- процессами//Управление корпоративными финансами №5/2004, http://businessprocess.narod.ru/index2.htm
3. Российский опыт внедрения Бережливого производства, © 2010-2016 Деловой портал «Управление производством», http://www.up-pro.ru/print/library/production_management/lean/otsech-lyshnee.html
4. Линник Ю.Н. Нефтегазовый комплекс: производство, экономика, управление: Учебник для вузов / Москва: Экономика, 2014, 717 с.
5. Hüseynov T.H. Azərbaycanda investisiyalar: gəlirlər, investisiyalar, sənayeləşmə, məşğulluq. Bakı: Elm, 2009, 380 s.

ŞƏKİ-ZAQATALA REGİONUNDA ENERJİ SƏMƏRƏLİLİYİ

Əliyeva Ş. İ.

Sumqayıt Dövlət Universiteti

Şəki-Zaqatala regionu ölkəmizin zəngin təbii-iqtisadi sərvətlərə malik olan regionlarından biridir. Regionun iqtisadiyyatı əsasən kənd təsərrüfatı məhsulları istehsalına əsaslanır. İqtisadi rayonun sənayesini isə kənd təsərrüfatı məhsullarının emalı təşkil edir. Regionun iqtisadi inkişafında turizm müəssisələrinin xüsusi rolu vardır. Müəssisələrinin davamlı olaraq yanacaq-enerji ilə təchizatı enerji istehsalını artırmağı, qeyri-ənənəvi enerji mənbələrindən istifadə etməyi, enerjinin səmərəli istehlakını tələb kimi qarşıya qoyur. 2012-

2016-cı illərin statistik göstəricilərinə əsasən Şəki-Zaqatala iqtisadi rayonu üzrə enerji istehsalı aşağıdakı cədvəldə göstərilmişdir.

Şəki-Zaqatala iqtisadi rayonu üzrə enerjinin natura ifadəsində istehsalı

Məhsulun adı	İllər üzrə				
	2012	2013	2014	2015	2016
Elektrik enerjisi, milyon kVt-saat*)					
Şəkirayonu	306.5	310.2	267.3	264.5	226.7
İstilik enerjisi, minQkalori*					
Şəkirayonu	-	0.3	0.3	0.5	0.6
Balakənrayonu	1.8	0.2	1.1	2.3	1.3
Qaxrayonu	0.6	0.7	0.7	1.4	0.9
Zaqatalarayonu	1.2	0.9	1.2	2.8	2.8
Oğuzrayonu	0.3	0.2	0.5	0.3	0.4
Qəbələrayonu	-	2	5.7	8.4	5.8

*)səyyar generator qurğularının işi region bölgüsündə nəzərə alınmamışdır.

Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin müvafiq materialları əsasında tərtib olunmuşdur.

Göründüyü kimi elektrik enerjisinin istehsal həcmi getdikcə əksər rayonlarda azalmış, 2015-ci ildə Qax, Balakən və Qəbələdə istehsal digər illərə nisbətdə artmış, Şəki və Zaqatalada isə 2016-cı ildə istehsal nisbətən çox olmuşdur.

2004-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması" üzrə Dövlət Proqramının strategiyası enerji təminatı sahəsində resurs əvəzləyici potensial əldə etməkdir.

Regionda sənaye, kənd təsərrüfatı və sosial xidmət sahələrinin sürətli inkişafı biokütlədən istifadə etməklə enerji istehsalı üçün yeni imkanlar açır. Regionda biomaddələrin aşağıdakı mənbələri mövcuddur:

-yanma qabiliyyəti olan sənaye tullantıları;

-meşə təsərrüfatı və ağac emalı sahələrinin tullantıları;

-kənd təsərrüfatı məhsulları və üzvi birləşmə tullantıları;

-məişət və kommunal sahələrinin tullantıları.

Regionun iqtisadiyyatı kənd təsərrüfatına əsaslandığına görə bu sahədə kifayət qədər tullantılar əmələ gəlir.Ona görə bu sahədə böyük potensial vardır. Baramadan qalan tullantılarla kifayət qədər enerji almaq mümkündür. Regionda konserv zavodlarından əmələ gələn kütlələr, o cümlədən tarlalarda qalan samanlar enerji almaq üçün əlverişli potensialdır. Heyvandarlıq tullantılarının qaza çevrilib enerji əldə olunması da biokütlə enerjisinə aiddir.

Alternativ enerji mənbələrindən səmərəli istifadə üçün region yerləşdiyi məkana görə əlverişli hesab edilir. Regionda kiçik çaylar çox olduğuna görə sel və daşqın gücündən istifadə etməyə əsaslanmış kiçik su elektrik stansiyaları(KSES) ilə suyun sürətini enerjiyə çevirmək üçün geniş şərait vardır.BMT-nin İnkişaf proqramının dəstəyi ilə Şəki şəhərində fəaliyyət göstərən kiçik su elektrik stansiyasında 580 kVt gücə malik enerji blokunun quraşdırılması başa çatdırılmış və şəbəkəyə qoşulmuşdur.[3,s.18] Şəkidə su elektrik stansiyasının ikinci qurğusu quraşdırılmışdır. Qurğunun quraşdırılması Azərbaycan Respublikası Alternativ və Bərpaolunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi (AREA) və BMT-nin İnkişaf Proqramının (BMTİP) "Azərbaycanda Dayanıqlı Enerjinin İnkişafı" adlı birgə layihəsi çərçivəsində həyata keçirilmişdir. Şəkinin enerji təchizatının yaxşılaşdırması ilə yanaşı, bu qurğu vasitəsi ilə daha kiçik, ekoloji təmiz elektrik enerji istehsalı işini nəzərdən keçirmək və bunun əsasında, ölkənin digər kiçik çay və sularında layihənin tətbiqini qiymətləndirmək mümkündür.[4]

Şəki kiçik su elektrik stasiyası Kiş çayının yüksək su debeti hesabına il boyu elektrik enerjisi hasil etmək qabiliyyətinə malikdir. Stansiyada hər birinin gücü 1,25 mvt olan iki ədəd güc aqreqatı (turbin – generator) quraşdırılmışdır. İndi stansiyanın gücü 1,3 mvt-dır. Yeni güc avadanlıqları istismara verildikdən sonra stansiyada elektrik enerjisi istehsalı 3 dəfə artmışdır. Hər ay orta hesabla 600-700 min kVt.saat elektrik enerjisi istehsal edilir.Yeni avadanlıqlar istifadəyə verildikdən sonra stansiyada 2008-ci ildə 5096640 kVt.saat, 2009-cu ildə 6520800 kVt.saat, 2010-cu ildə 6384000 kVt.saat, 2011-ci ildə 5044536 kVt.saat, 2012-ci ildə 5162328 kVt.saat, 2013-cü ildə 6409608 kVt.saat elektrik enerjisi istehsal edilmişdir. Stansiyada aparılan işlər eyni zamanda şəhərinin su ilə təminatının etibarlılığını xeyli yüksəltmişdir.[1]

2016-cı ildə Azalternativenerji MMC-nin obyektlərində istehsal olunmuş elektrik və istilik enerjisinin həcmi Şəki KSES 411,4 min kVt.st,ondan enerjisistemə 409,7 minkV.tst ötürülmüşdür.

Şəki rayonunda ilk dəfə alternativ enerji ilə işləyən çoxfunksiyalı idman zalının elektrik enerjisi ilə təminatı günəşdən alınan enerji hesabına nəzərdə tutulmuşdur.

Ölkənin yanacaq-enerji kompleksi sahəsində görüləcək işlər iqtisadiyyatın və əhalinin enerji resurslarına olan tələbatının daha dolğun ödənilməsini təmin etməkdən, energetika sənayesinin inkişafı, o cümlədən onun səmərəliliyini artırmaqdan ibarətdir. Bu sahədə dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardan ibarət olacaqdır:

-alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi;

-regionda yeni istilik və su elektrik stansiyalarının tikintisi,mövcud enerji bloklarının modernizasiyası işlərinin davam etdirilməsi;

-regionda qaz təchizatının daha da yaxşılaşdırılması tədbirlərinin davam etdirilməsi;

-regionda müasir istilik sistemlərinin qurulması,mövcud istilik sistemlərinin bərpası,modernləşdirilməsi və yenidən qurulması işlərinin davam etdirilməsi.[2,s.12]

Azərbaycan Respublikasının Şəki şəhərinin, Balakən, Qax, Zaqatala rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər planına əsasən Şəki rayonu üzrə 33 ədəd, o cümlədən 630 KVA-lıq 6 ədəd, 400 KVA-lıq 10 ədəd, 250 KVA-lıq 6 ədəd, 160 KVA-lıq 6 ədəd və 100 KVA-lıq 5 ədəd transformatorun quraşdırılması, Şəki rayonu üzrə ümumi uzunluğu 135 km, o cümlədən 25 km 35 KV-luq, 50 km 10 KV-luq, 60 km 0,4 KV-luq elektrik veriliş xətlərinin yenidən qurulması həyata keçirilmişdir. [1,s. 289]

Region daglıq ərazidə yerləşdiyindən atmosfer kifayət qədər təmiz, şəffaf və əksər hallarda buludsuzdur. Ona görə də yer səthinə düşən günəş enerjisinin miqdarı da yüksəkdir. Lakin bu enerjinin hamısını elektrik enerjisinə çevirmək mümkün deyil. Çevrilmə və ötürülmə zamanı digər labüd itkiləri nəzərə alsaq düşən günəş enerjisindən yalnız 11-15 faizini real elektrik enerjisi almaq olur. Günəş panellərini müəyyən bucaq altında optimal meylləndirməklə alınan enerjinin miqdarını artırmaq bir qədər artırmaq olar.

Şəkidə kiçik su elektrik stansiyalarının tikilməsini dəstəkləmək, Bərpa olunan enerji üçün milli səviyyəli potensialı qiymətləndirmək, bərpa olunan enerjinin hansı növünün ən sərfəli olub ən az xərc tələb etdiyini müəyyən etmək və dayanıqlı enerji hasilatı üçün müvafiq optimal potensiallı əraziləri müəyyən etmək əsas vəzifələrdən biridir. Region mineral sərvətlərlə zəngin olmasına baxmayaraq, təbiətə təzyiqin azaldılması fəaliyyəti üzrə qlobal çağırışa əməl edilməsi və alternativ enerji mənbələrindən istifadə vacib şərtlərdən biri hesab olunur. Quşçuluq və mal-qara sənayelərindən bioqaz istehsalı, eləcə də günəş enerjisinin cari istehsalı işinin artırılması və inkişaf etdirilməsi də daxil olmaqla, alternativ enerji mənbələri inkişaf etdirilməlidir.

Ədəbiyyat siyahısı

1. Regionların sosial-iqtisadi inkişaf problemləri (Şəki-Zaqatala regionu timsalında), “Bakı İqtisad Universiteti” nəşriyyatı, 2006, 304 səh.
2. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
3. “Alternativ və Bərpa olunan Enerji mənbələrindən istifadə üzrə 2015-2020 “Strategiyası
4. https//www.unece.org
5.https//sheki-ses-1936.io.ua

SƏNAYE MÜƏSSİSƏLƏRİNİN MATERİAL RESURSLARI İLƏ TƏMİNATINDA MÜTƏRƏQQİ LOGİSTİKA SİSTEMİNDƏN İSTİFADƏNİN ZƏRURİLİYİ

Həmidova A. M.

Sumqayıt Dövlət Universiteti

Bazar iqtisadiyyatı və onun genetik əsasları bir daha sübut edir ki, bu iqtisadi sistemdə mühüm rol oynayan və onun əsas həlqələrindən biri olan sahibkarlıq firmaları özlərinin korporativ missiyalarının həyata keçirilməsi və qarşılarına qoyduqları məqsədlərə nail olması üçün marketinq və menecment bazası əsasında güclü təsərrüfat mexanizminə malik olmalıdır. Bundan başqa, bazar uğurunda rəqabət mübarizəsinin getdikcə kəskinləşdiyi bir mərhələdə - resurs mərhələsində hər bir təsərrüfat subyekti material, maliyyə, informasiya, kadr və digər resursların həm istehsal, həm də tədavül sferasında səmərəli idarəedilməsini həyata keçirmək üçün elm və praktiki fəaliyyət sferası hesab edilən logistikaya böyük ehtiyac duyur.

Axın proseslərinin idarə edilməsini yüksək səmərəliliyi metod və üsullarla təşkil edən, marketinqlə qarşılıqlı əlaqədə olan logistika bu gün iqtisadiyyatda idarəetmə sistemlərinin ən ideal variantı hesab edilir. İstehsalın logistik təşkili və idarə edilməsi bilvasitə marketinq və logistik strategiyaların uyğunlaşdırmasından

asılıdır. Nəticə etibarı ilə qeyd olunan strategiyaların istehsalla əlaqələndirilməsi və müvafiq müqayisələrin aparılması yolu ilə logistik idarəetmə tədbirləri hazırlanır və həyata keçirilir.

Sənaye müəssisələrinin material resursları ilə fasiləsiz təminatının təşkili məqsədi ilə logistika sisteminin fəaliyyətinin modelləşdirilməsi və adekvat mexanizmlərlə təmin edilməsi vacib şərtlərdəndir. Bu məqsədlə, bir qrup mühüm işlərin və tədbirlərin kompleks və ardıcıl olaraq həlli lazım gəlir. Şübhəsiz, əsas məsələ bu tip müəssisələrin xammal və materiallara olan tələbatının təchizat-alış komponentlərinin adekvat planlaşdırlması və optimal olaraq proqnozlaşdırlmasıdır. Müəssisənin həmin materiallara olan tələbinin mövcud bazarları, istehsalçılar və malgöndərənlər kompleks şəkildə öyrənilməli və təhlil olunmalıdır, satınalma danışıqları aparılmalı və əməkdaşlıq prinsipləri müəyyənləşdirilməlidir. Digər mühüm məsələ mövcud qanunvericiliyə uyğun olaraq tenderlər və müqavilələrin idarə edilməsi ilə bağlı problemlərin həll olunması və logistika sisteminin bütün mexanizmlərinin işləkliliyinin təmin edilməsidir. Bu məqsədlə, logistika sistemində baza xarakterli informasiyalar, keçirilən tender növləri və prosesdurları ilə bağlı zəruri materiallar, qanunvericilik aktları, prinsip və meyarlar, qaydalar ciddi şəkildə öyrənilməli və müəssisənin adekvat satınalma konsepsiyası formalaşdırılmalıdır[2].

Ümumiyyətlə, sənaye müəssisələrinin xammal və materiallara olan tələbatının fasiləsiz təminatında mütərəqqi logistika sisteminin formalaşdırılması üçün təchizat zənciri üzrə mühüm hesab olunan proseslərin və praktiki fəaliyyət həlqələrinin reallaşdırlmasının, məsələn təchizat komponentinin və satınalma konsepsiyasının, tender və müqavilələrlə bağlı prosedurların, logistika sisteminin əsas logistik əməliyyatlarının, həm də anbar ehtiyatlarının idarə edilməsi mexnizmlərinin hazırlanması və həyata keçirilməsi məsələləri vacib şərtlərdəndir. Logistika elə bir vacib sahədir ki, hər bir şirkət logistika funksiyalarına daha çox diqqət yetirməli və rəqiblərindən fərqlənməlidirlər.

Son illər respublikamızda sənaye müəssisələrində marketinq və logistika strategiyalarına diqqət artırılmalıdır. Bu istiqamətdə fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi və inkişafının intensivləşdirilməsi prosesləri xüsusilə zəruridir. Qeyd edək ki, ölkəmizdə də sənaye müəssisələrində logistika sisteminin iqtisadi-təşkilati problemlərinə və onların həll edilməsinə diqqət artırılmalıdır. Bu ilk növbədə, Azərbaycanda sənaye müəssisələrinin inkişafının sürətləndirilməsi ilə bağlı iri layihələrin reallaşdırılması və bu sektorda xammal və material axınlarının iri həcmi, geniş coğrafiyası ilə izah olunur [1].

Qeyd edək ki, sənaye müəssisələrinin material resurslarının fasiləsiz təminatında mütərəqqi logistika sistemlərinin yaradılması və inkişaf etdirilməsi imkanları hər bir müəssisənin potensialına adekvat olaraq öyrənilməli və nəzərə alınmalıdır.Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisəsinin rəqabət qabiliyyətliliyinin gücləndirilməsi və müəssisənin istifadə olunmayan ehtiyatlarının aşkarlanaraq istehsal və kommersiya dövriyyəsinə cəlb olunması vacib şərtlərdəndir. Logistika sistemi mütərəqqi mexanizmlərlə silahlandırılmalı və müəssisənin mühüm fəaliyyət sahələrindən birinə çevrilməlidir. Bu prinsipdən çıxış etməklə logistika sisteminin inkişafı ən yüksək səviyyədə diqqət mərkəzində saxlanılmalıdır **[**3].Digər tərəfdən logistika sisteminin fəaliyyətinin daha uğurlutəşkil edilməsi məsələlərinə müəssisənin biznes və inkişaf strategiyasının tərkib hissəsi kimi də baxılmalıdır. Belə ki, biznesin uğurlu olması müəssisənin inkişaf hədəflərinə çatmaq üçün qarşıda duran vəzifələrin öhdəsindən gəlmək üçün güclü istehsal şəbəkəsi və məhsuldar istehsal qurğularının səmərəli işlədilməsi, layihə gücünə uyğun xammal resursları ilə təmin edilməsi, xammal və resurs axınlarının hərəkətinin sənaye məhsulları istehsalının diversifikasiyası baxımından tənzimlənməsi və təmin edilməsi vacib şərtlərdəndir. Logistika sistemi bu problemlərin həllində bir tərəfdən etibarlı, digər tərəfdən isə müasir dövrdə mütərəqqi yanaşmaları ilə fərqlənən fəaliyyət mexanizmlərinin məcmusu kimi qiymətləndirilə bilər.

Müasir dövrdə mütərəqqi logistika sisteminə və logistika mexanzimlərinə artan əhəmiyyətli tələbin və zərurətin nədən və haradan qaynaqlandığı maraq doğurur. Belə ki, sənaye müəssisələrinin davamlı və sürətli inkişafı baxımından mühüm məsələlərdən biri nəqliyyat və digər xərclərin optimallaşdırılması, əsas məhsulların maya dəyərində bu xərclərin ümumi çəkisinin azaldılması ilə bağlıdır və bu proseslərdə logistika xidmətinin, logistika sisteminin rolu böyükdür.

Digər tərəfdən, son onilliklərdə dünyanın əksər ölkələrində fəaliyyət göstərən elektroenergetika müəssisələrində, o cümlədən ölkəmizin dövlət və özəl statuslu müəssisələrində və kompaniyalarında material və xammal resurslarının fasiləsiz təminatı problemlərinin həlli istiqamətində daha mütərəqqi və məhsuldar logistika sisteminin formalaşdırılması və inkişaf etdirilməsi meyilləri güclənməkdədir. Mütərəqqi logistika sisteminin təşkili və inkişaf etdirilməsi problemlərini həll etmədən elektroenergetika məhsulları istehsalının strukturunun genişləndirilməsi vəzifəsinin öhdəsindən gəlmək mürəkkəb məsələdir. Əsas xammal və material axınlarının fasiləsiz təminatının idarə edilməsi və bu tsikl üzrə logistik əməliyyatların səmərəliliyinə nail olunması bütövlükdə hər bir müəssisənin qarşısında duran vacib məsələlərdəndir. Yuxarıda qeyd edilən fikir və mülahizələrə rəğmən, logistika sisteminin sənaye müəssisələrinin material resurslarının sabit, səmərəli və fasiləsiz təminatında mütərəqqi logistika sistemindən istifadə imkanlarının müasir dövrün adekvatlığı konteksində baxılmasının və modelləşdirilməsinin, bunlarla əlaqədər olaraq praktiki fəaliyyət mexanizmlərinin

və alətlərinin təşkili problemlərinə diqqətin artırılmasının, kompleks və sistemli yanaşmanın təmin edilməsi vacibdir.

Bununla belə, ölkəmizdə bir sıra müəssisələrdə logistika sistemin inkişafına və mütərəqqi logistika mexanizmlərinin tətbiqinə maraq formalaşdırılmaqdadır. Holcim Azərbaycan kompaniyasının mütəxəssisələri belə hesab edirlər ki, logistika istənilən şirkətin Dəyər Formalaşması Zəncirində mühüm rol oynayır və məhsulun istehsalı, realizə olnuması prosesinə birbaşa təsir edir. İstehsalatın kifayət qədər və vaxtında xammalla təmin olunması, həmçinin hazır məhsulun müştərilərə vaxtında və keyfiyyətlə çatdırılması şirkətin logistika prosesinin hansı dərəcədə səmərəli təşkil edilməsindən asılıdır [4]. Digər tərəfdən, mütərəqqi logistika sistemi sənaye müəssisələrinin anbarlarında lüzumsuz yerə xammal ehtiyatlarının saxlanılmaması, onların bir hissəsinin itkisinə səbəb olan hallara yol verilməsinin qarşısının alınması baxımından mühüm funksiyaları yerinə yetirir. Dinamik inkişaf edən bazar şəraitində şirkətlər logistika sahəsində, xüsusilə tədarükün idarə olunmasındakı bütün yeniliklərdən xəbərdar olmalıdırlar. Təchizatın düzgün təşkili əsasən istehsalatın fasiləsizliyini təmin etmək üçün daim ehtiyat xammalın olması ilə bağlı məsələnin həllinə söykənir. Şirkətin fasiləsiz işləməsi üçün tələb olunan xammal, ehtiyat hissələri və xidmətlərin təqdim edilməsini kompleks əhatə edən logistika strategiyası olmalı və logistika sistemi yaradılmalıdır.

Bu qeyd olunanlara əsasən, bizdə belə bir fikir formalaşır ki, hər bir elektroenergetika müəssisəsinin material resursları və xammal axınları ilə fasiləsiz təminatı, hazır məhsulların axınının səmərəli idarə edilməsi məqsədilə optimallaşdırılmış və mütərəqqi, eyni zamanda işlək xüsusiyyətlərə malik logistika sistemi olmalıdır. Sənaye müəssisələrinin bu cür yanaşma ilə fasiləsiz olaraq xammal resurslarına olan tələbatının ödənilməsi və hazır məhsulların alıcılara çatdırılması proseslərinin optimal təşkilini təmin edən logistika sistemi müəssisənin uğurlu fəaliyyətində əhəmiyyətli mövqeyə malik struktur bölməsi kimi böyük əhəmiyyət kəsb edir.

Ədəbiyyat siyahısı

1. Əliyev Ş.T. Azərbaycanda neft-kimya kompleksinin inkişafının müasir aspektləri və istiqamətləri// "Audit" Jurnalı, 2016, №3, s. 41-45.
2. İmanov T.İ. Logistikanın əsasları. Bakı, Təhsil NPM, 2005, 474 s.
3. Алексеева Л.Д. Обеспечение устойчивого функционирования и развития логистической системы. Дисс. канд. экон. наук. С- Петербург, 2008.-155 с.
4. http://www.holcim.az. Logistika. Holcim Azerbaijan.

AZƏRBAYCANDA NEFT- QAZ SƏNAYESİNİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ VƏ ALTERNATİV ENERJİ MƏNBƏLƏRİ

Həmzəyeva İ. R.
Sumqayıt Dövlət Universiteti,

Neft sənayesinin Azərbaycanın əsas sənaye sahələrindən biri olmaqla, həm də onun fəaliyyəti digər sahələrin inkişafını şərtləndirir. Ölkə büdcəsinin mədaxil hissəsinin yarıya qədəri məhz bu sənaye sahəsinin fəaliyyəti nəticəsində formalaşır, respublikanın ixrac-idxal balansında da bu sənaye sahəsinin fəaliyyəti danılmazdır. Neft sənayesi həm keçmiş ittifaq dövründə, həm də müstəqillik dövründə ölkə iqtisadiyyatının formalaşmasında mühüm rol oynamışdır. Azərbaycanda reallaşan, «Əsrin müqavıiləsi» ilə başlanan neft strategiyası ölkəmizi bütün dünyada tanıtdı. Hazırda Qafqaz və Xəzər regionunun geosiyasətində Azərbaycan mühüm rol oynayır və ölkəmiz təkcə neft-qaz resurslarına görə deyil, Qara dəniz-Xəzər hövzəsi və həm də Avrasiya nəqliyyat dəhlizindəki mühüm vəziyyətinə görə, ABŞ, Avropa və Asiya ölkələrinin strateji maraq mərkəzinə çevrilmişdir. Dünya iqtisadiyyatına inteqrasiya şəraitində səmərəli və yüksək rəqabətqabilliyyətli iqtisadiyyatın qurulması Azərbaycanın sosial-iqtisadi inkişafının əsas məsələlərindəndir. Bazar münasibətlərinin ölkəmizdə uğurla inkişafı sənaye, o cümlədən neft-qaz sənayesində istehsal səmərəliliyinin yüksəldilməsini, məhsul və xidmətin rəqabətqabilliyyətinin artırılmasını və bu məqsədlə innovasiya-texnoloji inkişafın tətbiqini, istehsalın səmərəli təsərrüfat forması və sahibkarlığın, o cümlədən innovasiya sahibkarlığının inkişafını şərtləndirmişdir[1].Dünyada neft sənayesi bir sıra səciyyəvi xüsusiyyətlərə malikdir: risklə əlaqədardır; kapital tutumludur, rentabellidir, işlənmə müddətləri daim azalır, beynəlxalq səciyyə daşıyır, fəaliyyətində daim siyasi səbəb iştirak edir və s.

Neft sənayesi kapital tutumlu sənaye sahəsidir və əsas fondların (indiki iqtisadi terminologiyada «əsas kapital», «investisiya kapitalı») tərkibində quyular böyük xüsusi çəkiyə malikdirlər. Neft- qaz sənayesi öz istehsal potensialının tükənməsi şəraitində fəaliyyət göstərir ki, fəaliyyətini fiziki və mənəvi cəhətdən

köhnəlmiş əsas fondlar üzərində qurur. Bunları aradan qaldırmaq üçün neft- qaz sənayesinin fəaliyyəti aşağıdakıların həllini şərtləndirir:

- sahədə təkrar istehsal prosesini şərtləndirən innovasiyalı -texnoloji tədbirlərin həyata keçirilməsi;
- investisiya defisitini (daxili) aradan qaldırmaq və ümumiyyətlə innovasiya- texnoloji yeniliklərin tətbiqi üçün investisiya cəlbediciliyi mühitinin təkmilləşdirilməsi;
- səmərəli qiymət siyasətinin formalaşdırılması;
- vergi siyasətinin təkmilləşdirilməsi;
-idarəetmə quruluşunun təkmilləşdirilməsi və bu sahədə dünya təcrübəsindən bəhrələnmək;
-fəaliyyətin səmərəliliyinin yüksəldilməsinin dövlət tənzimlənməsi;

Qeyd edək ki, neft-qaz sənayesində investisiyanın əsas məqsədi müxtəlif qruplar üçün fərqlidir: səhmdarlar üçün-qoyulan kapitaldan daha çox «verim» almaq; dövlət üçün-ölkə əhalisinin rifah halının yaxşılaşdırılması, iqtisadi artım və xarici iqtisadi əlaqələrin möhkəmləndirilməsi; yerin təkində istifadə edənlər üçün- pul axını sabitliyi və mənfəətin maksimumlaşdırılmasını təmin etmək. Neft-qaz sənayesinin fəaliyyətinə təsir edən amilləri təbii, texnoloji, dövlət və bazar amillərinə bölürlər. Tədqiqat üçün ən çox maraq doğuranı texnoloji amildir və bura aşağıdakılar aiddir: hasilat texnolojiyasında radikal dəyişikliklərin olmaması; karbohidrogen resurslarının tam çıxarıla bilməməsi; müxtəlif texnologiyaların tətbiq edilməsinin çox variantlılığı; işin yerinə yetirilməsi ilə işlənmə obyektləri haqqında məlumatın yığılması; alternativ enerjinin inkişaf səviyyəsi. Məhz aşağıda alternativ enerjinin- külək enerjisinin neft sənayesində tətbiqi ilə bağlı tədqiqatı davam etdirəcəyik.

Innovasiyalı-texnoloji inkişafla əlaqədar neft-qaz sənayesinin potensialı haqqında danışanda qeyd etməliyik ki, bu işlər üç: geoloji-kəşfiyyat işləri; quyuların qazılması; neft yataqlarının işlənməsi və istismar istiqamətdə həyata keçirilir. Neft sənayesinin təşəkkülü və inkişafı ölkəmizdə uzun bir dövrü əhatə edir [2].

Azərbaycan Respublikasında həm tükənən, həm də tükənməyən enerji mənbələri mövcuddur. Məlumdur ki, tükənən enerji mənbəyi kimi neft- qaz resursları, tükənməyən enerji mənbəyi kimi isə külək, günəş, hidrotermal və axar sular, dəniz dalğaları və s. aid edilir. Son zamanlar müxtəlif ölkələrin enerji balansında tükənməyən enerji mənbələrinin xüsusi çəkisi artır ki, bu da lokal müvəqqəti və qlobal səbəblərlə bağlıdır. Müvəqqəti səbəblər enerji bazarlarında enerji daşıyıcılarının qiymətinin durmadan artması, həmçinin onun tranziti ilə bağlı tənzimlənməmiş problemlərin mütəmadi xarakter alması ilə bağlıdır. Qlobal səbəblər isə texniki tərəqqinin təbii axarı ilə əlaqədardır ki, bu da alternativ enerji mənbələrinin axtarışı, enerji mənbələrinin diversifikasiyası, yanacaq enerji balansının optimallaşdırılması, ekoloji poblemlərin həllini vacib edir.

Alternativ enerjiyə maraq 1970- ci ildə dünya enerji böhranından sonra yarandı, son vaxtlar isə Avropa İttifaqı və ABŞ-da çox sürətlə artmağa başladı. Dünyada alternativ enerjiyə kapital qoyuluşu 20 mlrd ABŞ dollarından 120 mlrd ABŞ dollarına qədər artmışdır. Dünya iqtisadiyyatının sonrakı iyirmi ildə inkişafı üçün enerji istehlakı səmərəsini (müxtəlif enerji mənbələrdən istifadənin səmərəliliyi) artırmaq lazım gələcəkdir, bütün mövcud iqtisadi və ekoloji təmiz enerji mənbələrindən istifadə olunacaqdır.

Dünyanın təqribən bütün inkişaf etmiş ölkələrinin alternativ enerji mənbələrindən istifadə üzrə milli proqramları vardır. Bu proqramlar külək enerqetikası sahəsində külək enerji stansiyalarının (KES) gücü 2Mvt və yüksək olan küləkenerjisi qurğuları (KEQ) bazasında yaradılmasını nəzərdə tuturlar. Azərbaycan Respublikasında təbii resuslardan səmərəli istifadə, ətraf mühitin qorunması, həmcinin yerli resuslardan layiqincə yararlanmaq istiqamətində xeyli işlər görulmüşdür. Azərbaycan yüksək templərlə iqtisadi inkişafa malik ölkə kimi ümumdünya proseslərinə qoşulmağa can atir və ekoloji təmiz mühit çərçivəsində bir sıra dövlət proqramları işləyib hazırlamız və təsdiq edilmişdir.

Ədəbiyyat siyahısı

1. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. Bakı, "Azərbaycan" nəşriyyatı, 1997
2. Əliyev İ.Ə. Azərbaycan nefti dünya siyasətində, IV cilddə, Bakı, 1997-1998.

AZƏRBAYCANDA NEFT-QAZ GƏLİRLƏRİNİN İNNOVASİYA YÖNÜMLÜ İSTİFADƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Mahmudova L.F., Osmanov İ. O.
Sumqayıt Dövlət Universiteti

Milli iqtisadi inkişafın dayanıqlılığının təmin olunması respublikamızda həyata keçirilən uğurlu iqtisadi siyasətin məntiqi nəticəsidir. "Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı üzrə (2005-2015-ci illər) Dövlət Proqramı" və "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkədə ümumi daxili məhsul istehsalının əhəmiyyətli dərəcədə artması təmin olunmuşdur. Azərbaycan nəinki özünün enerji təhlükəsizliyini təmin etməklə yanaşı, regionun və Avropanın enerji təhlükəsizliyinin təminatında əsas tərəfdaşlardan biri olmuşdur. Bütün bunlar respublikamızın böyük nüfuz sahibinə və lider dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi, yanacaq-enerji kompleksi sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində respublika iqtisadiyyatının, o cümlədən yanacaq-energetika kompleksi sahələrinin davamlı inkişafı son illərdə də təmin edilmişdir.

İnkişaf edən Azərbaycanın iqtisadi gücünün və beynəlxalq nüfuzunun artmasında ölkəmizin yanacaq-energetika kompleksi mühüm və həlledici rola malikdir.Ölkə üzrə yanacaq-energetika kompleksinə qoyulmuş böyük həcmli investisiyaların və innovasiya texnologiyalarının tətbiqi neft və qaz hasilatında artımın yaranmasına, ümumilikdə respublikamızda müvafiq sahədə böyük nailiyyətlərin əldə olunmasınagətirib çıxarmışdır.Əldə olunan neft gəlirlərinin innovasiya yönümlülüyü də artmışdır.

Ümummilli liderimiz Heydər Əliyev artan neft gəlirlərini ölkə iqtisadiyyatına düzgün istiqamətləndirmək məqsədilə uzunmüddətli neft strategiyası proqramını hazırlamışdır. Uzunmüddətli inkişaf proqramı olaraq həyata keçirilən neft strategiyasının əsas məqsədini ölkənin daxili imkanlarının səfərbər olunması və zəngin neft ehtiyatlarından Azərbaycan xalqının rifahı naminə səmərəli istifadə edilməsi təşkil edirdi. Bu məqsədlə Ümummilli liderimiz Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu təsis edilmişdir. Dövlət Neft Fondunun Əsasnaməsi isə 29 dekabr 2000-ci il tarixli 434 nömrəli Fərmanla təsdiq edilmişdir. Hazırda Dövlət Neft Fondu çox yüksək formalaşmaqla bərabər, ölkə daxilində və eləcə də beynəlxalq səviyyədə tanınmış və vəsaitlərin idarə edilməsi, şəffaflığın təmin edilməsi baxımından güclü bir quruma çevrilmişdir. Dövlət Neft Fondunun əsas məqsədləri əldə edilmiş gəlirləri ölkənin sosial-iqtisadi inkişafına yönəltmək və gələcək nəsillər üçün toplanmasını təmin etməkdir [1].

Neft gəlirlərinin qeyri-neft sektoruna yönəldilməsi ilə bu sahənin inkişafında da ciddi nailiyyətlər qazanılmış, son on ildə qeyri-neft sektorunun orta illik artım tempi yüksəlmişdir. Qeyri-neft sektorunda yeni istehsal sahələrinin açılması və yeni iş yerlərinin yaradılması, istehsal, nəqliyyat və kommunal infrastrukturun misli görünməmiş miqyasda inkişaf etdirilməsi, müasir sosial infrastruktur müəssisələrinin yaradılması, innovasiya yönümlü layihələrin maliyyələşdirilməsi, bütövlükdə ölkəmizin dinamik və dayanıqlı yüksəlişinin əsasını təşkil etmişdir.

Neft və qaz gəlirlərinin idarə olunması üzrə strategiya Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2004-cü il tarixli 128 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya 2005-2025- ci illəri əhatə edir və bu müddət ərzində həmin gəlirlərdən istifadənin əsas prinsiplərini və ortamüddətli xərclər siyasətini müəyyənləşdirir. Neft və qaz gəlirlərinin istifadə strategiyası makroiqtisadi sabitliyin qorunub saxlanılması əsasında aşağıdakı əsas istiqamətləri əhatə edir:

- iqtisadiyyatın qeyri-neft sektorunun, regionların, kiçik və orta sahibkarlığın inkişafı; infrastruktur sahələrin genişmiqyaslı inkişafı:
- yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsi və digər sosial problemlərin həlli;
- iqtisadiyyatın intellektual və texnologiya bazasının səviyyəsinin yüksəldilməsinin stimullaşdırılması;
- "insan kapitalı"nın inkişafı;
- ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi;
- azad edilmiş ərazilərin yenidən qurulması və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması ilə bağlı tədbirlərin həyata keçirilməsi.

Neft və qaz gəlirlərinin istifadə strategiyası əsas istiqamətlərinə diqqət yetirsək görərik ki, gəlirlərin bir qismi innovasiyalı iqtisadiyyatın inkişafına yönəldilmişdir. Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə neft gəlirlərinin uğurla modern, innovasiyalara əsaslanan, elmtutumlu sənaye quruculuğuna yönəldilməsi siyasəti həyata keçirilir. Möhtərəm Prezident cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadi kursun prioritet istiqaməti olaraq Azərbaycanda neft sektoru ilə bərabər qeyri-neft sektorunun inkişaf etdirilməsinə bu gün xüsusi diqqət yetirilir. Bu məqsədlə artan neft gəlirləri hesabına ölkədə mühüm innovasiya yönümlü layihələrin maliyyələşdirilməsi həyata keçirilir və ölkənin iqtisadi inkişafının stimullaşdırılmasında, strateji əhəmiyyətli dövlət proqramları və layihələrin maliyyələşdirilməsində, eləcə də regional investisiya qoyuluşunun təmin

edilməsində mühüm rol oynayır. Son illərdə bu sahənin intensiv inkişafının təmin edilməsi məqsədilə mükəmməl infrastruktur yaradılıb, ayrı-ayrı mövcud müəssisələr müasir texnologiyalar əsasında yenidən qurulub, yerli xammalla işləyən, eyni zamanda, ixrac potensialına malik olan yeni istehsalatlar yaradılması məqsədilə əməli tədbirlər həyata keçirilib. İnnovasiya layihələrinin və regional inkişaf proqramlarının uğurla həyata keçirilməsi sayəsində ölkəmizin iqtisadi inkişafı üçün güclü baza formalaşdırılır. Azərbaycanda müasir tələblərə cavab verən innovasiya infrastrukturu yaradılır. İnnovasiya infrastrukturun yaradılması və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər eyni zamanda insanların rahatlığı, firavan yaşayışı üçün həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsidir [2].

Karbohidrogen potensialının artması, bu istiqamətdə baş verən inkişaf prosesləri nəzərə almaqla konkret sahələrin inkişaf etdirilməsi məqsədilə sənaye şəhərciyinin yaradılması, xüsusilə Azad İqtisadi Zonaların təsis edilməsi istiqamətində fəaliyyəti sürətləndirmək lazımdır. Təsərrüfat sahələrinin inkişaf etdirilməsi, onların sahə strukturunun təkmilləşdirilməsi üçün regionlarda kənd təsərrüfatı məhsullarının emalına əsaslanan yeni sənaye mərkəzlərinin yaradılması tələb olunur. Yeni istehsal sahələrinin yaradılması və sənaye sektorunda yeni texnologiyaların tətbiqinin sürətləndirilməsini də nəzərdən qaçırmaq olmaz [3].

Müasir yeni iqtisadiyyatda ümumi daxili məhsul artımının daha böyük payı innovasiya texnologiyalarında, avadanlıqlarında insan kapitalının keyfiyyətində, istehsalın və idarəetmənin təşkilində ifadə olunmuş yeni biliklər hesabına təmin edilir. Müasir cəmiyyətdə iqtisadi effektivliyin yalnız elm və real istehsalın inkişafı hesabına deyil, həm də innovasiya tsiklinin bütün fazalarının - yeni biliklərin alınması, bazar vasitəsilə onların iqtisadiyyatın istehsal sektoruna ötürülməsi və istehsal istifadəsi fazalarının effektiv fəaliyyətini təmin etmək əsasında əldə edilir. Bu cür istifadə bir qayda olaraq, son məhsul bazarında iqtisadi cəhətdən əhəmiyyətli rəqabət üstünlükləri almaq məqsədilə həyat keçirildikdə, onda innovasiya tsiklinin bütün mərhələləri müxtəlif dərəcələrdə olsa da, güclü informasiya, təşkilati, maliyyə və digər bazar amillərinin təsiri altında yerləşəcəklər. Məhz innovasiyanı mənimsəyənin iqtisadi marağı son nəticədə innovasiya fəaliyyətinin həyata keçirilməsinin məqsədəuyğunluğunu, yönümlülüyünü, miqyasını, tempini və formasını müəyyən edir. Ölkənin iqtisadi inkişaf səviyyəsinin yüksəlməsi resursların və istehlakın nisbətlərində əhəmiyyətli dəyişikliklər yaradır. İqtisadi inkişafın yüksək səviyyəsinə nail olmuş dövlətlər qaçılmaz surətdə resursların qıtlığı ilə qarşılaşır. Eyni zamanda, ölkənin iqtisadi inkişaf səviyyəsinin yüksəlməsi bütün təsərrüfat subyektlərinin iqtisadi tələbatlar sistemində, hər şeydən əvvəl isə, əhalinin şəxsi tələbat sistemində tezliklə kəmiyyət artımına və keyfiyyət yeniləşməsinə gətirib çıxarır. Beləliklə, iqtisadi inkişaf səviyyəsi yüksəldikcə, resursların məhdudluğu və əhalinin tələbatının məhdudiyyətsiz genişlənməsi arasında ziddiyyət daha da artır. İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərdiyi kimi, bu ziddiyyət istehsalın genişləndirilməsinin üstün ekstensiv metodlarından innovasiya məhsulları və texnologiyasının tətbiqinə əsaslanan üstün intensiv metodlarına keçilməsi yolu ilə həll edilir. Odur ki, neft-qaz gəlirlərinin istifadəsinin innovasiya yönümlülüyünün artırılmasının mühüm vəzifə olduğunu görə bilərik. Yalnız innovasiyalı inkişaf modeli xammalın ixracında ixtisaslaşdırılmış iqtisadiyyatdan postindustrial iqtisadiyyata, elm tutumlu sahələrin inkişafına keçidi təmin edə bilər və ölkə qloballaşan dünyada özünə daha layiqli yer tuta bilər.

Ədəbiyyat siyahısı

1. Yüzbaşova Ç.R., Abdullayev Z.S. Azərbaycanın neft-qaz strategiyası: problemlər və proqnozlar. Bakı, Nurlan, 2006. 755 s.

2. Musayev. A.F.İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2014, 184 s.

3. Səfərov Q.Ə., Dadasova K.S. Neft-qaz kompleksində məhsulun keyfiyyəti və rəqabətqabiliyyətliliyi. Bakı, Elm, 2011, 224 s.

İNSAN KAPİTALINA İNVESTİSİYANIN İDARƏ EDİLMƏSİ

Məmmədova S.T., Mirzəyeva S. T.

Sumqayıt Dövlət Universiteti

İnsan kapitalımüəssisənin əsas hərəkətverici qüvvəsidir. Ona görə də müəssisə tərəfindən daim işçilərin təhsilinə və inkişafına investisiya qoyulmalı, insan kapitalının saxlanmasına, əmək qabiliyyətinin artırılmasına yönəldilən strategiyalar hazırlanmalıdır. Təqdim olunan məqalədə insan kapitalına investisya qoyuluşunun əsas istiqamətləri və onun səmərəlilik metodlarının təyini təhlil edilmişdir.

İnsan kapitalından səmərəli istifadə edilməsindəmüəssisə maraqlı olmalıdır, çünki insan kapitalı güclü olan müəssisnin rəqabət qabiliyyəti də güclü olur. Yüksək kadr axıcılığı, kadr catışmazlığı və kadr ehtiyatının

olmaması kimi problemlərə respublikamızın bütün müəssisələrində rast gəlmək mümkündür. Təhsil və yenidən təhsil, ixtisasın artırılması üzrə planauyğun proqramlara cox az müəssisələrdə rast gəlinir. Fikrimizcə, müəssisələrdə insan kapitalına investisya qoyuluşu bu problemlərin aradan qaldırılmasına kömək edə bilər. Çünki, ən aparıcı şirkətlər, kompaniyalar və müəssisələr insan kapitalına cox böyük önəm verməyə başlamışlar və insan kapitalını bütün kapital növləri arasında ən dəyərli kapital kimi qiymətləndirirlər. Fiziki kapitalı insan kapitalı əvəz etməyə başlayir[1].

Bu gün doğrudan da insan kapitalı anlayışı bütün cəmiyyəti düşündürən əsas məsələlərdən birinə çevrilmişdir. İnsan kapitalı inkişaf etmiş ölkələrin milli gəlirinin 70-80 %-ni təşkil edir, dünyada insan kapitalı əsasən inkişaf etmiş ölkələrin payına düşür [2].

Bu onunla əlaqədardır ki, axırıncı yarım əsrdə bu ölkələrdə fiziki kapitaldan daha cox insan kapitalına investisiyalar qoyulmuşdur.

Tədqiqatlar göstərir ki, insan kapitalına investisyadan gələn gəlir texnikaya qoyulan investisyadan gələn gəlirdən iki dəfə coxdur. Təbii resurslar və sərvət yığımı ilə müqayisədə insan kapitalı müasir cəmiyyətin ən qiymətli resursudur [3].

İnsan kapitalına investisya müəssisənin uğurlu inkişafının ayrılmaz elementidir. Mühüm sosial-iqtisadi, mənəvi və hətta siyasi əhəmiyyəti olan insan kapitalının normal olaraq reallaşdırılması və gerçəkləşməsi aşağıdakı istiqamətlər vasitəsilə təmin olunur:

- təhsilə kapital qoyuluşu vasitəsilə;
- ixtisaslı hazırlığa kapital qoyuluşu vasitəsilə;
- nəhayət, elmə kapital qoyuluşu vasitəsilə.

İnsan kapitalına investisiyanın verdiyi səmərəni araşdırmaq üçün ilk növbədə onun təsnifləşdirilməsini aparmağı məqsədə uyğun bilirik.

Fərd üçün insana qoyulan investisiyanın səmərəsi gəlir səviyyəsinin artımı, əmək bazarında rəqabət qabiliyyətinin yüksəlməsi ilə ölçülür. Dövlət iqtisadi artıma nail olur.Müəssisədə insan kapitalına investisiyanın səmərəsi işçilərin əmək məhsuldarlığının yüksəldilməsi, mənfəətin artımı və bazarda rəqabətqabiliyyətinin səviyyəsi ilə ölçülür. [4].

İnsan kapitalına investisiyanın daxili və xarici səmərəsini fərqləndirirlər. Daxili səmərəni bir tərəfdən fərd, digər tərəfdən isə investor əldə edir[5].

İnsan kapitalına investisiyanin mənfi müsbət səmərəsini fərqləndirirlər. Mənfi effektli investisiya heç bir iqtisadi səviyyədə müsbət nəticə verməyən insan kapitalında özünü biruzə verir. Bu insan kapitalına işsizlərə, cinayətkarlara, rüşvətxorlara vaxtıilə xərclənmiş investisiyalar aid edilir. Cəmiyyətə və iqtisadiyyata mənfi effektilə yanaşı eyni zamanda bu insanların istiqamətləndirilməsi üçün əlavə xərc tələb olunur. Mənfi effekt eyni zamanda insan kapitalına səmərəsiz investisya ilə,yəni səmərəsiz layihələrə qoyulan investisiya ilə də sıx bağlıdır.Məsələn, təhsil bacarığı olmayan insanlara, keyfiyətsiz dərman istehsalına,aşağı effektli layihələrə investisiyalar.

İnsan kapitalına innvestisiyanın Müsbət effekti ondan gələn gəlirin artmasıilə özünü biruzə verir.müsbət effektli insan kapitalına mənsub olan insanlara öz işlərinin peşəkarı olanları, müxtəlif fəalyyət sahələrindəki istedadlıları aid etmək olar. [6].

İnsan kapitalına investisiyanın istehlakçı və investisiya səmərəsini fərqləndirirlər.İstehlakçı effekti investisiya prosesində əldə olunan fadalılıqla bağlıdır.məsələn təlim zamanı həmyaşıdlarla ünsiyyət, yeni biliklərin əldə edilməsi, idan oyunlarında insanlar komanda oyunundan müsbət emosiya alırlar, rəsm sərgilərindən fərdin estetik zovq alması

İnvestisiya effekti investisiya prosesi başa çatdıqdan sonra fərdin, müəssisənin və ümumi sahənin əldə etdiyi gəlirlə bağlıdır. Məsələn, universiteti bitirdikdən sonra diplomun alınması, müalicədən sonra sağlamlığın yüksəldilməsi [7].

Beləliklə insan kapitalına investisiyanı digər investisiyalardan fərqləndirən spesfik xüsusiyyətlərini aıağıdakı kimi fərqləndirmək olar.

-təhsilə yönəldilən investisiyalar uzunmüddətli xarakter daşıyır və15-20 illik bir dövrü əhatə edir,sağlamlığa investisiya isə bir ömür boyu davam edir.

-insan kapitalına investisiyadan gəlir insanın ömür uzunluğundan, xüsusilə keyfiyyətli və mütamadi investisiya nətcəsində gələcəkdə çox yüksək və uzun müddətli səmərə verən əməkqabiliyyətlilik müddətindən asılıdır

-insan kapitalı bir ömürboyu toplanır və eyni zamanda fiziki və mənəvi köhnəlməyə məruz qalır. Fiziki köhnəlmə insanın orqanizminin qocalması ilə, mənəvi köhnəlmə isə biliklərinköhnəlməsi və işçinin aldığı təhsilinin dəyərdən düşməsi ilə əlaqədardır. İnsan kapitalının toplanması işçinin mütəmadi təlimi və onların istehsal təcrübəsinin saxlanılması nəticəsində baş verir.

İnsan kapitalına investisiya digər kapital qoyuluşlarına nisbətən daha gəlirli hesab edilir, çünki,iqtisadiyyatın hər bir subyektinə fayda gətirir: işçilərin gəlirlərini, müəssisənin rəqabətqabiliyyətlilik səviyyəsiniartırır ,və cəmiyyətin rifahını yüksəldir.

İnsan kapitalına investisiya etməzdən əvvəl müəssisə ilk növbədə gözlənilən iqtisadi səmərəni qiymətləndirməlidir. Bu qiymətlədirmənin aparılması üçün müxtəlif metodlardan istifadə edilir ki, onlardan da biri SWOT təhlillir. SWOT təhlil strateji planlaşdırmanın metodu olaraq müəssisənin fəaliyyətinə təsir edən amil və hadisələrin qiymətləndirilməsində istifadə olunur. Bu baxımdan da bu amillər 4 yerə bölünür: Strengths (güclü tərəflər), Weaknesses (zəif tərəflər), Opportunities (imkanlar) и Threats (təhlükəlr).

İnsan kapitalının səmərəli idarə edilməsinin təhlilində onun zəif və güclü tərəflərinin aşkara cıxarılmasına ehtiyac vardır. Fikrimizcə bu baxımdan SWOT təhlilin aparılmasını məqsədəuyğun hesab etmək olar. SWOT təhlilin ozünə məxsus xüsusiyyətləri mövcuddur və bunları aşağıdakı kimi təsnifləşdirmək olar. [8,9,10]

1.SWOT t əhlilin başlıca istiqamətlərinin müəyyən olunması

2.SWOT təhlilin mahiyyətindən irəli gələn məqamları düzgün qiymətləndirməyi bacarmaq lazımdır.

3.SWOT təhlil obyektiv aparılmalı və faktiki məlumatlara əsaslanmalıdır.

Cədvəl 1.

Müəssisədə insan kapitalına investisiyanın SWOT tənlili

Güclü cəhətlər	Zəif cəhətlər
1.Müəssisənin aktivlərinin payında insan kapitalının yüksək olması onun iqtisadi artımının əsas amilidir. 2.İnsan kapitalı yüksək ixtisaslı əməkdaşların qismində müəssisənin rəqabət üstünlüyüdür. 3.Müəssisə üçün uzun müddətli iqtisadi və sosial səmərədir.	1.Əməkdaşların təlimi, ixtisasının artırılması və yenidən hazırlanması müəssisəyə yüksək xərslər tələb edir. 2.İşçilərin insankapitalına və biliklərinə, bacarıqlarına mütəmadi investisiya edilməsinə baxmayaraq va keçidikcə onlar köhnəlir. 3.İşçi qüvvəsi hərəkətində müstəqillik müəssisə rəhbərininonların inkişafına investisiya cəhdini aşağı salır. 4. İnsan kapitalına investisiyanın səmərəsinin uzun müddətə əldə edilməsi
İmkanlar	Təhlükələr
1.Yeni satış bazarlarına çıxış 2.Yüksək keyfiyyətli məhsul istehsal etmək, bazarda rəqabətqabiliyyətini yüksəltmək 3.İnnovativ məhsulların buraxılışına nail olmaq	1. Əsaslı investisiya qoyuluşu edilmiş insan kapitalının işdən çıması və ya başqa müəssisəyə getməsi 2.Zaman keçdikcə insan kapitalının aşınması

SWOT təhlil onu göstərir ki, insan kapitalına investisiya qoyuluşu müəssisə rəhbərinin ən əsas vəzifələrindən birinə çevrilməlidir. Texnika və texnologiyanın daim inkişafı, innovasiya fəliyyətinin geniş vüsət alması müəssisələrin səmərəli fəaliyyətində insan kapitalının mütamadi olaraq inkişaını tələb edir.Bu baxımda hər bir müəssisə rəhbəri insan kapitalına investisiya qoymaqla yanaşı, onu qoruyub saxlamağı bacarmalıdır. Bunun üçün motivləşdirici və stimullaşdırıcı amillərdən istifadə etməlidir.

Ədəbiyyat siyahısı

1.Туроу Л. «Будущее капитализма», 1996.

2.Щетинин В. Человеческий капитал и неоднозначность его трактовки//Мироваяэкономика и международные отношения.- М., 2001.- №12. С.167

3. Долинца Д.М. Инвестиции в человеческий капитал // Сборник материалов Второймеждународной научно-практической конференции "Проблемы развития инновационно-креативной экономики" – С. 320.

4 Савченко В.В. Виды инвестиций в человеческий капитал и их эффективность // Вопросы структуризации экономики. 2010. № 2. С. 414–419.

5. Коркина Т.А. Сущность и классификация инвестиций в человеческий капитал предприятия // Вестник Челябинского государственного университета. 2011. № 16. С. 101–108.

6. Васильев И.В. Классификация человеческого капитала и инвестиций в него // Балтийский экономический журнал. 2010. № 2. С. 8–18.

7. Биксина Н.А. Инвестиции в человеческий капитал как важнейший фактор экономического роста // Академия управления. 2014. № 4. С. 76–78.

8.Глазьев С.Ю. Теория долгосрочного экономического развития. М.: Вла Дар, 1993, 310 с,
9.Albertmüəlliminkitabları
10. Дудин М.И., Лясников Н.В., Широковских С.А. Стратегический менеджмент: учеб. пособ. 2-е изд., стер. М.: КНОРУС, 2014. 256 с.

ENERJİDAŞIYICILARININ DÜNYA BAZARINDA ROLUNUN GÜCLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Mikaylova S.M .
AMEA İqtisadiyyat İnstitutu

GİRİŞ

Son 15 ildə dünya təsərrüfatı sistemində iki dəfə baş vermiş beynəlxalq maliyyə böhranları dünya bazarında əksər məhsulların, xüsusilə, enerji daşıyıcılarının satışına böyük təsir göstərmişdir. Bu səbəbdən də neft amilinə köklənmiş ölkələrin milli iqtisadiyyatları enerji daşıyıcılarının qiymətinin aşağı düşməsi nəticəsində böhranlı vəziyyətlə qarşılaşmışdır. Dünya bazarında bu strateji məhsulun satışından valyuta daxil olmaları azaldığı üçün ölkələrin büdcə daxilolmaları azalır, investisiyaya olan tələbatının ödənilməsində çətinliklər ortaya çıxır, bir çox sosial iqtisadi proqramların həyata keçirilməsi isə təxirə salınır.

Lakin bütün bunlar heç də əsas vermir ki, neft hasilatı sahəsində dünyada tanınan ölkələr beynəlxalq səviyyədə neftin qiymətləri ilə əlaqədar inkişafın sonrakı mərhələlərində bu sahədə istehsalı artırmasınlar və dünya bazarında bu istiqamətdə mövcud imkanlardan istifadə etməsinlər.

Azərbaycan Respublikasında neft-qaz sahəsi üzrə mövcud vəziyyətin dəyərləndirilməsi

Statistik məlumatların təhlili göstərir ki, Azərbaycanda istehsal olunan bir barreli (159 litr) neftin maya dəyəri 12 dollara bərabərdir. Bu isə onu göstərir ki, respublikamızda istehsal olunan neftin dünya bazarında qiymətlərin 25 dollara düşməsi şəraitində belə ölkəmizin dünya bazarında satılan neftin bir barrelinə görə 13 dollar gəlir əldə etmək imkanları vardır.

Deməli, dünya bazarında neftin konyunktura vəziyyətindən asılı olmayaraq respublikamız bu məhsulun istehsalının və dünya bazarına ixracının artırılmasına diqqəti azaltmamalıdır [1].

Azərbaycanın neft və neft kimyası sahəsində güclü elmi-texniki potensiala malik olması əsas verir ki, neft hasilatında və emalında mütərəqqi texnologiyaların tətbiqi, istehsal olunmuş xam neftin hər tonundan daha çox son məhsul istehsal edilməsi yolu ilə ölkəmiz dünya enerji daşıyıcıları bazarından istənilən səviyyədə faydalana biləcəkdir. Onu da qeyd etmək lazımdır ki, respublikamızda dünya bazarına ixrac edilən xam neftdən başqa digər məhsullar və xidmətlər ixracı sahəsində də böyük imkanları vardır. Hazırda bunlara neft kimyası, neft maşınqayırması və digər sahələri aid etmək olar.

Digər neft ölkələrində olduğu kimi respublikamız da neft sənayesi ilə bağlı xidmətlər üzrə dünya bazarında aşağıdakı istiqamətlərdə iştirak edə bilər:

- neft yataqlarının kəşfi, yataqların iqtisadi cəhətdən qiymətləndirilməsi;
- neftin hsilatı layihəsinin işlənib-hazırlanması;
- neft kəmərlərinin çəkilməsi layihələrinin tərtibi;
- neft emalı zavodlarının tikilməsi layihələrinin tərtibi;
- yeni neft hasilatı və emalı maşınlarının, avadanlıqlarının işlənib hazırlanması üzrə konsultativ xidmətlər;
- maşın və avadanlıqların buruqlarda quraşdırılması, işə salınması və idarə edilməsi;
- mövcud maşın və avadanlıqların, emal xətlərinin modernizasiyası proyektlərinin tərtibi;
- neft buruqlarına servis xidməti;
- ali məktəblərdə neft-qaz sahəsində təhsil xidmətləri;
- neft-qaz sahəsində çalışan aşağı və orta ixtisas dərəcəli işçilərin ixtisasartırma kurslarının təşkili;
- professional neft mütəxəsislərin və eımi kadrların əməyindən səmərəli istifadə edilməsi;
- neft sahəsi alimlərinin tədqiqatlarından alınan yeniliklərin istifadəsi və ixracı mexanizminin işlənib hazırlanması.

Dünya bazarına çıxarılan enerji daşıyıcılarının tərkibinə daxil olan struktur elementlərinin ixracına yuxarıda qeyd etdiyimiz qaydada yanaşılması respublikamızın BƏB-də mövqeyini möhkəmləndirməklə bərabər ölkədən qeyri leqal "beyin axını"nın dayandırılmasına kömək edər. Lakin göstərdiyimiz bütün perspektiv istiqamətlərə baxmayaraq, Azərbaycan hələ də vertikal BƏB modelinin cənub elementi olaraq qalır. Əlbəttə aydındır ki, yuxarıda qeyd etdiyimiz istiqamətlərdə ixtisaslaşmanın səmərəsini reallaşdırmaq üçün külli məbləğdə investisiya tələb olunur. Ancaq bununla yanaşı təəssüf ki, müasir dövrdə respublikamızda elə qanunvericilik aktlarına da rast gəlmək mümkündür ki, onlar hələ də Azərbaycanın hazır məhsullar üzrə deyil,

məhz xammal ixracçısı kimi istisaslaşmasını "stimullaşdırır".Məhz buna görə də beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşmə işləri aparılmalıdır [2].

Fikrimizcə neft və digər ilkin xammalın daşınmasını məhdudlaşdır]maq üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir:

- xammalın respublikadan ixracı maksimum məhdudlaşdırılmalıdır;
- xam neftin emal dərinliyinin yüksədilməsi (85-87%) və beynəlxalq standartlara çatdırılması ölkəmizin daxili imkanları səviyyəsində həll edilməlidir;
- xammala ixrac rüsumları sərtləşdirilmiş qaydada deyil, xammalın dünya qiymətlərinə nisbətən faizlə təyin edilməlidir. Bu rüsumlar xammalın dünya qiymətlərinin ən azı 80%-i həcmində olmalıdır.

Dünya bazarında strateji məhsulların yerinin gücləndirilməsinə kömək edən tədbirlər yalnız neftin deyil, qazın da verə biləcəyi səmərədən milli iqtisadiyyatımızın inkişafında faydalanmağa imkan verməlidir.

Beynəlxalq və respublikanın neft-qaz sahəsi üzrə müvafiq ekspertlərinin verdiyi məlumatlara əsasən Azərbaycanda 2,7-6,0 trln. m^3 qaz ehtiyatı vardır. Avropa dövlətlərinin mavi yanacağa artan tələbatını və bu sahədə Rusiyadan asılılığın azaldılmasında Azərbaycanın qaz ehtiyatlarında istifadə edilməsinin əhəmiyyəti getdikcə artır.

Cədvəl 1. Azərbaycanın enerji balansı (neft ekvivalenti tonu (NET)

İllər	2010	2012	2013	2014	2015
Ilkin enerji məhsullarının istehsalı	68254,6	60973,9	61699,5	61132,0	61084,2
Ümumi enerji təchizatı	12566,5	14390,0	14630,6	15085,5	15569,4

Qeyd: cədvəl www.stat.gov.az saytının materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Əgər statistik göstəriciləri təhlil etsək görərik ki, Azərbaycan Respublikasının enerji balansı üzrə ilkin enerji məhsullarının istehsalı 2010-cu ildə 68254,6 min NET (nefft ekvivalenti tonu ilə) olmuşdursa , 2010-cu illə müqayisədə 2013-cü ildə bu göstərici 10 faiz azalaraq 61699,5 min NET, 2015-ci ildə isə müvafiq göstərici 10,6 faiz azalaraq 61084,2 min NET olmuşdur. 2014-cü illə müqayisədə 2015-ci ildə ümumi enerji təchizatı üzrə göstəricilər 1,2 dəfə artaraq 15569,4 min NET olmuşdur (Cədvəl 1).

Cədvəl 2. Ölkə üzrə ümumi xam neft balansı, min ton

İllər	2010	2012	2013	2014	2015
İstehsal	50838,2	43374,8	43457,4	42075,7	41628,3

Qeyd: cədvəl www.stat.gov.az saytının materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Son illər istehsal olunmuş xam neftin həcmi 2010-cu ildə 50838,2 min ton olmuşdursa, 2010-cu illə müqayisədə 2013-cü ildə bu göstərici 14,6 faiz azalaraq 43457,4 min ton 2015-ci ildə isə 18,2 faiz azalaraq 41628,3 min ton olmuşdur (Cədvəl 2).

Cədvəl 2 Azərbaycan Respublikası üzrə son illər qeydə alınmış neft və qaz hasilatı (mln.ton)

İllər	2011	2012	2013	2014	2015
Dənizdə neft hasilatı (mln. ton)	43,8	41,7	41,7	40,4	40,0
Quruda neft hasilatı (mln. ton)	1,8	1,7	1,7	1,7	1,6
Qaz hasilatı mln. kub metr	16361	17242	17895	18827	19236

Qeyd: cədvəl www.stat.gov.az saytının materialları əsasında müəllif tərəfindən hazırlanmışdır

Azərbaycan Respublikası üzrə əgər 2011-ci ildə 13,8 mln. ton dənizdə neft hasil olunmuşdursa, 2011-ci illə müqayisədə 2015-ci ildə bu göstərici 8,7 faiz azalaraq 40 mln. tona çatmışdısa, 2015-ci ildə isə 11,2 faiz

azalaraq 1,6 mln. ton olmuşdur. 2014-cü illə müqayisədə 2015-ci ildə respublikamız üzrə qaz hasilatı 2 faiz artaraq 19236 mln. kub metrə çatmışdır (Cədvəl 3).

Aparılmış təhlillərdən də göründüyü kimi, son illər dünya bazarında neft məhsullarının dəyərinin aşağı düşməsi ölkəmizdə də neft məhsullarının həm dənizdə , həm quruda istehsal həcminin azalmasına səbəb olmuşdur. Bunun da əsas səbəbi dünya bazarında neft məhsullarına olan tələbatın azalması ilə bağlıdır. Yaxın dövrlərdə neftin qiymətinin artması yerli istehsalın da həcminin artmasınba səbəb ola bilər [3].

Neft hasilatının və ixracının artırılması istiqamətləri

Məhz bu zərurətlə beynəlxalq TAP və TANAP qaz kəmərlərinin çəkiliş layihələrinin Azərbaycanın iştirakı ilə həyata keçirilməsinə başlanılmışdır. Digər tərəfdən Orta Asiya dövlətlərində Qazaxıstan, Türkmənistan və digər ölkələrdə istehsal olunan neftin və qazın Azərbaycan ərazisindən keçərək dünya bazarına ixrac edilməsi Azərbaycanın tranzit dövlər kimi gəlir əldə etməsinə imkan verəcəkdir. Bu yolla da respublikanızın üzv olduğu İƏT (İqtisadi Əməkdaşlıq Təşkilatı) ölkələrinin mövcud olduğu dünya bazarına neft və qaz ixracı sahəsində mövqeyini xeyli gücləndirmək imkanı əldə etməklə yanaşı , əlverişli tranzit ölkəyə çevriləcəkdir.

Azərbaycanda yaxın perspektivdə dünya bazarına enerji daşıyıcılarının ixracının artırılması istiqamətində İƏT çərçivəsində prioritet istiqamətlərdən biri də neft emalı sahəsidir. Çünki, birincisi, Türkiyədən başqa bütün İƏT ölkələri böyük neft, yaxud qaz yataqlarına malikdirlər, ikincisi 2015-2016 –cı illərdə neftin qiymətinin xeyli aşağı düşməsinə baxmayaraq yaxın gələcəkdə region üzrə neft hasilatının xeyli artacağı gözlənilir. Odur ki, neft emalı İƏT çərçivəsində birgə müəssisələrin yaradılması üçün olduqca etibarlı sahə ola bilər. Hazırki vəziyyətdə, yəni istehsal avadanlığının keçmiş ittifaq dövründən qalması, texnologiyaların köhnəliyi, fiziki və mənəvi aşınmaya uğraması nəzərə alınmaqla respublikamızda bu sənaye sahəsinin illik gücü 20 mln. ton təşkil edir. Mövcud istehsal sahələrində modernizasiya aparmaqla bu potensialdan daha səmərəli istifadə olunmalıdır.

Aydındır ki, neftin emalı üzrə İƏT ölkələri ilə birgə müəssisələrin yaradılması əlavə maliyyə vəsaitinin cəlb edilməsi nəticəsində onların gücü və səmərəliliyi qısa müddət ərzində dəfələrlə artacaqdır və Qazaxıstan, Türkmənistankimi dövlətlərin istehsal etdikləri neftin bir hissəsi də həmin müəssisələrdə emal oluna bilər. Qeyd etmək lazımdır ki, Azərbaycanda həm də bunun üçün lazımı infrastruktura (elmi-texniki kadr potensialı, yüksək ixtisaslı mütəxəsislər, terminallar, boru kəmərləri) vardır [4].

Azərbaycan Respublikası dünya bazarına xam neft və digər sahə üzrə məhsullar ilə çıxmaqla fəaliyyət dairəsini məhdudlaşdırmamalıdır. Əgər respublikamız dünya enerji daşıyıcıları bazarından bir ildə inkişaf etmiş dövlətlər üzrə orta hesabla 200 mln. dollardan (ABŞ) çox xidmət idxal edirsə, bəs nə üçün dünyada neft sahəsində tanınan Azərbaycandan digər ölkələrə, xüsusilə üçüncü dünya dövlətlərinə bu qəbildən olan xidmətlər ixrac olunmasın?. Ona görə də bu sahədə də davamlı tədbirlər reallaşdırılmalıdır.

Məlum həqiqətdir ki, strateji məhsul olan neft istehsalı zamanı bir qrup mühəndis, menecment, marketoloq və s. mütəxəsislərin məsləhətlərindən istifadə olunur. Yalnız bundan sonra xam neft çıxarılaraq dünya bazarına ixrac edilir. Fikrimizcə, xam neftin ixracından əldə edilən gəlirlərin artırılması üçün sahəyə uyğun xidmətlərin (işin təşkili və idarə edilməsi metodları, qiymətləndirimə, bazarda rəqabətin öyrənilməsi, bazarın konyunktura vəziyyəti, qiymətlərin proqnozlaşdırılması, təhlükəsiz hasilatın və daşınmanın qiymətləndirilməsi, risklər və s.) ixracından da faydalanmaq məqsədəuyğun olardı. Bu istiqamətdə Norveç, Böyük Britaniya, ABŞ və başqa dövlətlərin təcrübəsindən faydalanmaq lazımdır. Əgər Azərbaycan dövləti nefti istehsal edərkən Norveçin bu sahədəki faydalı xidmətlərin ixracına yüz minlərlə dollar sərf edirsə eyni qaydada respublikamız neft hasil edən üçüncü dünya dövlətlərinə müvafiq xidmətlərin ixracından da əlavə valyuta əldə etmək imkanı vardır.

Qeyd etmək lazımdır neft məhsulları Azərbaycan iqtisadiyyatında üstün rol oynayan strateji məhsuldur. Bütün hallarda dünya bazarında neftin qiymətinin aşağı düşməsi şəraitində belə onun iqtisadiyyatımızda ən səmərəli sahə olması və cəmiyyət üçün xeyirli olması faktı danılmaz olaraq qalmaqdadır. Fikrimizi aydınlaşdırmaq üçün faktlara müraciət edək.

Hər il Azərbaycanda daxili yanma mühərriklərinin bə digər təsərrüfat subyektlərinin yanacağa olan ehtiyacını ödəmək üçün təxminən 14 mln. ton yanacaq sərf olunur. Bunun 1,6 mln. tonu Sumqayıtın, 12,4 mln. tonu Bakı şəhəri və digər bölgələrin payına düşür. Hazırda isə Azərbaycanda (Beynəlxalq Əməliyyat şirkəti ilə birlikdə) 32 mln. ton neft istehsal olunur. Neft istehsalının ildə 20 mln. tona düşməsi şəraitində belə respublikamız bir ildə dünya enerji daşıyıcıları bazarına 5-6 mln. ton neft ixrac edə biləcəkdir.

Istehsal olunmuş neftin bir barelinin maya dəyərinin 12 dollar olması şəraitində dünya bazarına çıxarılan 6,0 mln. ton neftin reaıllaşması hesabına respublikamız təxminən 10,7 mlrd. dollar gəlir əldə edə bilər. Bu da 2015-ci ildə bütövlükdə respublika üzrə kənd təsərrüfatında istehsal olunmuş ümumi məhsulun həcmindən 2 dəfədən də çoxdur. Indiki şəraitdə iqtisadiyyatımızın strukturunda heç bir sahə təsərrüfat ilində bu qədər gəlir əldə etmək imkanına malik deyil.

Bütün bunlar əsas verir ki, perspektivdə Azərbaycandan neft məhsullarının həm dünya bazarına çıxarılması, həm də daxili tələbatı ödəmək baxımından indiki səviyyədə saxlanılması məqsədəuyğundur.

Problemin həllinə bu yanaşma "Azərbaycan - 2020 gələcəyə baxış inkişaf konsepsiyası"nın və 2016-cı ildə qəbul olunmuş "İstehsalın və emalın inkişafının strateji yol xəritəsinin" tələbləri baxımından məqbul hesab edilə bilər.

Enerji daşıyıcılarının dünya bazarında və beynəlxalq əmək bölgüsündə yerinin gücləndirilməsi ilk növbədə Azərbaycanda iqtisadiyyatın diversifikasiyası və valyuta gəlirlərinin cəlbinə yaradılmasına şərait yaradacaq, respublikada alternativ ixrac sektorunun yaradılması prosesində ortaya çıxan təşkilatı-iqtisadi məsələlərin həllinin maliyyə təminatı yaxşılaşacaq, həyata keçirilən ixrac siyasətinin səmərəli olması praktikada öz təsdiqini tapacaq, Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara Dəniz Ölkələrinin İqtisadi Birliyi və digər regional iqtisadi birliklərlə inteqrasiya əlaqələrinin genişlənməsinə şərait yaranacaq, respublikamızın beynəlxalq və regional layihələrdə iştirakı üçün investisiya imkanları genişlənəcəkdir [5].

Nəticə

Respublikamızın dünya bazarında ixracyönümlü hazır məhsullar üzrə yerini orta müddətli perspektivdə təmin etmək məqsədilə ümumilikdə aşağıdakı tədbirlərin reallaşdırılması məqsədəuyğundur:

- dünya bazarında likvidli tələbə malik və ilk növbədə neft və digər yerli ehtiyatların aktiv istifadə edildiyi emal sənayesi sahələrinin prioritet inkişafı təmin olunmalıdır [6];
- rəqabət mübarizəsinin kəskinləşdiyi dünya bazarında öz seqmentinin yaradılması ixtisaslaşma istiqamətlərini formalaşdıran amillərdən biri kimi qəbul edilməlidir;
- neft çıxarma sənayesində istehsal ehtiyatlarından istifadənin intensivliyini artırmaqla ÜDM-də və ixracda bu tip sahələrin xüsusi çəkisinin 50-70%-ə çatdırılması strateji hədəfə çevrilməlidir;
- ÜDM-in strukturunda bütövlükdə emal sənayesinin payının 20%-ə çatdırılması üçün praktiki tədbirlər görülməlidir;
- keyfiyyətdə total nəzarətin qabaqcıl texnologiyaları yaradılmalıdır;
- hasil edici sənaye sahələrində, o cümlədən neft çıxarmada dünya standartlarına cavab verən infrastruktur sahələrinin yeni inkişaf səviyyəsi müəyyənləşdirilməlidir [7];
- neft çıxarmada, emalında və satışında özəlləşdirmə prosesinin sürətləndirilməli və burada mənəvi köhnəlmə amili mütləq nəzərə alınmalıdır.

Araşdırmalar nəticəsində belə bir qənaətə gəlmək mümkün olmuşdur ki, Azərbaycandan dünya bazarına yalnız xam neft deyil, digər ölkələrdə olduğu kimi ixrac potensialının tərkibinə daxil olan digər struktur elementləri və xidmətlərin ixracının təşkili məqsədəuyğundur [8].

Təhlil nəticəsində [9] respublikadan müxtəlif adda xammalın ixracının məhdudlaşdırılması yolları əsaslandırılmış, gələcəkdə neft ixracının prioritet ixrac sektoru kimi inkişafının səmərəli olması üçün stimullaşdırıcı mexanizmlərdən istifadə edilməsi təklif olunmuşdur [10] .

Ədəbiyyat siyahısı

1.Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı, "Elm", 2005, s.252

2.Əli Həsənov. "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti". Bakı, "Azərbaycan" nəşriyyatı 2005. s.752

3.Qafarov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. Bakı, "SBŞ" 2005, s.632

4. Dünyamalı Vəliyev. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı:"Adiloğlu", 2008, 428 s.

5. Əhmədov N.H. Azərbaycanda xarici iqtisadi əlaqələrin inkişafı və istehlak bazarının formalaşması. Bakı, 2005, 81 s.

6. Əliyev A.Ə. Şəkərəliyev A.Ş. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti. Bakı, 2002. 761 s.

7. Həsənov R.T. İqtisadi inkişaf və makroiqtisadiyyat. Bakı, 2001, 604 s.

8. Nadirov A.A., Muradov Ş.M., Hüseynov T. və b. Azərbaycan iqtisadiyyatı. Bakı: Elm. 2003. 341 s.

9. Gənciyev G.Ə. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 2012. 396 s.

10. Gənciyev G.Ə. İxrac ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətləri. Bakı, 2001, 197 s.

MARKETİNQDƏ MƏHSULUN KEYFİYYƏTİ

Pənahəliyeva M. Ö.

Sumqayıt Dövlət Universiteti

Marketinqin əsas anlayışlarından biri məhsul və xidmət anlayışlarıdır. Məhsul bazar təklifinin birinci əhəmiyyətli elementidir. O , müştərilərin istəyini və ehtiyacını ödəmək qabiliyyətində olan və bazarın diqqətinə,

istifadəsinə, istehlakına təklif olunan hər şeydir. Bazar təklifinin ikinci əhəmiyyətli elementi xidmətlərdir. Məhsul maddi, xidmət isə qeyri maddidir [1].

Məhsullar onları istifadə edən istehlakçıların növlərindən asılı olaraq istehlak məhsulları və sənaye məhsulları kimi 2 böyük qrupa bölünür.

İstehlak məhsulları məhsulun elə bir növüdür ki, son istehlakçı tərəfindən şəxsi istifadə üçün alınır. İstehlak məhsulları belə təsnifləşdirilir: rahatlıq üçün məhsullar; ticarət məhsulları; xüsusi məhsullar; axtarılmayan məhsullar.

Bu məhsullar istifadə və satılma yollarına görə bir-birindən fərqlənirlər.

Rahatlıq üçün məhsullar- istehlakçı tərəfindən tez-tez, dərhal və minimal müqayisə və alıcı zəmanəti ilə alınan məhsullardır. Burada müştəri onu tez-tez tələsmədən və minimal əmək sərf edərək alır.Belə məhsullar ucuz qiymətləndirilir və satıcılar məhsulları bazarin müxtəlif yerlərdə yerləşdirirlər ki, müştəriyə daha yaxın və əlçatan olsun. Bu kateqoriya məhsullara sabun, yuyucu maddələr, qəzet və jurnallar, yarımfabrikatlar aid edilir.Ticarət məhsulları elə məhsullardır ki, burada müştəri məhsulu seçərkən onun qiymətinə, keyfiyyətinə dizaynına çox vaxt və əmək sərf edir. Bu məhsullara mebel, geyim, avtomabil, avia və otel xidmətlərini aid etmək olar. Belə məhsulların satış nöqtələri məhduddur. Məhsulların seçimində müştəriyə müqayisə etmək üçün daha güclü satış dəstəyi göstərilir.

Xüsusi məhsullar unikal xüsusiyyətlərə və brendə malik olan istehlak məhsullarıdır. Bu məhsulları almaq üçün alıcılar xüsusi cəhd göstərirlər. Belə məhsullar hər bir bazar məkanında yerləşən dükanlarda ekzklüziv paylanır, istehsalçılar və satıcılar tərəfindən daha dəqiq hədəfləndirilmiş təşviqat işləri aparılır. Bu məhsullara müəyyən formalı və markalı avtomobilləri, bahalı saat, fotoaparat, geyim, informasiya texnologiyaları, tibbi və hüquqi xidmətləri aid etmək olar. Adətən, belə məhsulları alıcılar müqayisə etmirlər, onlar yalnız arzuladıqları məhsulları çatdıran dilerləri tapmaq üçün müəyyən vaxt sərf edirlər.

Axtarılmayan məhsullar haqqında alıcının məlumatı olmur, məlum olduqda isə belə onu almağı haqqında düşünmür. Axtarılmayan məhsullar o vaxta qədər axtarılmayan olurlar ki, yenilikləri istehlakçı reklam vasitəsilə məlumat verir. Bu məhsul və xidmətlər həyat sığortası, müxtəlif məqsədlər üçün qan vermə aksiyaları və s. aid edilir. Öz təbiətinə görə axtarılmayan məhsullar böyük reklam, fərdi satış və s. marketinq xidmətləri tələb edirlər [2].

İstehlak məhsullarından fərqli olaraq sənaye məhsulları biznes sahəsində istifadə olunmaq üçün alınan məhsullardır. Bunlar arasındakı fərq, edilən alışın məqsədidir. Əgər istehlakçı tikiş maşının paltar tikməq məqsədi ilə alırsa bu tikiş maşını istehlak məhsuludur. Lakin həmin alıcı bu maşını öz biznesi üçün alirsa onda tikiş maşını sənaye məhsuluna çevrilir.

Sənaye məhsulları öz təyinatına görə 3 qrupa bölünür: Xammal və ehtiyat hissələri; İstehsal vasitələri ; ehtiyatlar və xidmətlər.

Xammallar fermer məhsullarını (taxıl, pambıq, meyvə, tərəvəz, maldarlıq) və təbii məhsulları (balıq, xam neft, dəmir filizi) özündə əks etdirir.İstehsal olunmuş materiallar və hissələr, komplektləşdirici məmulatların böyük hissəsi birbaşa sənaye istifadəçilərinə satılır. Burada qiymət və xidmət marketinq amilləridir, brənd və reklam isə daha az əhəmiyyət kəsb edir.

İstehsal vasitələri alıcının istehsal prosesinə və ya əməliyyatlarına, (əsaslı daşınmaz əmlak və köməkçi avadanlıq daxil olmaqla) yardım edən sənaye məhsullarıdır. Daşınmaz əmlak dedikdə binalar,genetorlar, qurğular, iri kompüter sistemləri, lift və s. başa düşülür. Köməkçi avadanlıqlar isə fabrik avadanlığı və alətləri (əl alətləri, yük qaldırıcı), eləcə də ofis avadanlığı (kompüterlər, faks maşınları, masa) kimi vacib elementləri özündə birləşdirir. Bunlar daşınmazdır, az ömürlüdür və istehsal prosesində köməkçi vasitə kimi istifadə olunurlar.

Sənaye məhsullarının sonuncu qrupu- ehtiyatlar və xidmətlərdir. Ehtiyatlara, əməliyyat ehtiyatları (yağ, daş kömür, kağız, karandaş) və təmir-xidmət məhsulları (boya, mismar, taxta) aiddir. Ehtiyatlar sənaye sahəsinin rahatlıq məhsullarıdır ki, onlar minimal sərflə və ya müqayisə ilə alınır. Biznes xidmətləri quraşdırma, təmir (pəncərələrin təmizlənməsi, kompüterlərin təmiri) və biznes məsləhət xidmətlərini (hüquqi məsləhət, menecment, konsaltinq reklam işləri) əhatə edir [3].

Müasir dövrdə marketoloqlar maddi məhsul və xidmətlərdən əlavə məhsul anlayışını daha da genişləndirərək onlara dair qərarların verilməsi işlərini də görürlər. Bu qərarlar 3 səviyyədə verilir: Məhsul üzrə fərdi qərarlar;məhsul xətti üzrə qərarlar; məhsul kompleksi üzrə qərarlar.

Məhsul üzrə fərdi qərarlar məhsulunəlamətləri, brendləşdirməsi, qablaşdırılması, nişanlanması, məhsulun dəstəklənməsi xidmətləri kimi əlamətləri özündə birləşdirir. Məhsulun və xidmətin layihələndirilməsi onun verə biləcəyi dəyərlərin müəyyən edilməsindən ibarət olur. Bu dəyərlər məhsulun əlamətləri olan keyfiyyət, xüsusiyyətlər, üslub və dizayn vasitəsi ilə əlaqələndirilir və çatdırılır. Keyfiyyət göstəricilərinə məhsulun davamlılığı, dəqiqliyi, asan istifadəsi, təmiri və digər göstəricilər daxildir. Keyfiyyət məhsulun və ya xidmətin aqibətinə birbaşa təsir edir. Marketoloqlar keyfiyyəti müştəri məmnunluğu kimi qəbul edirlər.

Amerikanın Keyfiyyət Cəmiyyəti keyfiyyətli xidmətvə məhsulun müştərinin real və ya potensial ehtiyaclarını ödəyən qabiliyyəti kimi təyin edir. Eynilə "Simens" şirkəti öz keyfiyyətini "əgər satdığımız məhsullar deyil, xidmət etdiyimiz müştərilərimizin yenidən bizə müraciət edirlərsə bu keyfiyyətdir". Bütün bu deyimlər keyfiyyətin müştəri ehtiyacları ilə başlanmasını və müştəri məmnunluğu ilə bitməsini bildirir. Məhsulun keyfiyyəti səviyyə və davamlılıq kimi əlamətlərlə ölçülür. Keyfiyyət səviyyəsi məhsulun bazarda mövqeyini qoruya bilməsidir. Burada məhsulun keyfiyyəti əməli keyfiyyətini-yəni məhsulun öz funksiyalarını yerinə yetirmə qabiliyyətini nəzərdə tutur. Məsələn, "Roleks" saatı əməli keyfiyyətinə görə digər firmaların saatlarından qat-qat üstündür. Şrkətlər çox az hallarda öz müştərilərinə belə yüksək keyfiyyətli məhsullar təklif edirlər. Çünki çox az sayda müştərilərin belə saatdan almaq imkanı vardır. Ona görə şirkətlər hədəf bazarının ehtiyacını ödəyə bilən və rəqib məhsulların keyfiyyətinə müvafiq olan keyfiyyət səviyyəsini seçirlər.

Xüsusiyyətlərbir şirkətin məhsulunun rəqib şirkətin məhsulundan fərqləndirilməsi kimi qəbul olunur. Belə ki, qarşılıqlı ehtiyac və dəyərə olan yeni bir xüsusiyyəti həmişə birinci yaratmaq istəyi ən səmərəli rəqabət növü və üsulu ola bilər. Bunun üçün şirkət daima marketinq tədqiqatları apararaq , onun məhsullarından istifadə edən müştərilərlə əlaqə saxlamalı və öz məhsullarının təkmilləşməyə ehtiyacını öyrənməlidirlər. Yalnız belə tədqiqatın koməyi ilə şirkət üçün xüsusiyyətlər haqqında ideyalar yarana bilər.Müştərilər tərəfindən az dəyərləndirilən və yüksək xərc tələb edən xüsusiyyətlər kənara atılmalı, xərclərə nisbətdə yüksək dəyərləndirilən xüsusiyyətlər isə əlavə edilməlidir.

Müştəri dəyərini yaratmaq üçün məhsulun fərqli üslubu və dizaynı da mühüm rol oynayır. Üslub məhsulun yalnız xarici görnüşünü təsvir etdiyi halda, dizayn isə məhsulun birbaşa ürəyidir. Yaxşı dizayn məhsulun xarici görünüşünə və lazımlılığına təsir göstərmək imkanına malikdir. Gözəl üslüb və dizayn məhsula olan diqqəti artırıronun işinin təkmilləşməsini, istehsal xərclərinin azalmasını və bazarlarda yüksək rəqabət üstünlüyünü təmin edir.

Hər bir müəssisənin və şirkətin ən başlıca vəzifəsi xidmət və məhsulların brendlərini yaratmaq, saxlamaq, müdafiə etmək və daha da artırmaqdan ibarətdir.

Brend-bir və ya bir qrup satıcıların məhsul və xidmətlərini müəyyən etmək və rəqiblərdən özlərini fərqləndirmək məqsədi ilə istifadə olunan ad, rəmz, simvol və ya dizayn və ya bunların hamısının birlikdə kombinasiyasıdır. Istehlakçılar brendə məhsulun bir hissəsi, brendləşməyə isə məhsula dəyər əlavə edən bir məfhum kimi baxırlar. Müasir zamanda brendin əhəmiyyəti o qədər qalxıb ki, onsuz məhsullar satışa buraxılmır. Məsələn, adi düz brend qablarında satılır, adi bolt və qayqa birləşdirilərək distribyuterik nişanı vurulmaqla qablaşdırılır, hətta meyvələr və tərəvəzlər də öz brendlərinə malikdirlər. Brend həmçinin məhsulun keyfiyyəti haqqında da məlumat verir. Bu isə istehsalçıya bazarları seqmentlərə bölməkdə kömək edir və geniş alıcı kütləsini cəlb edir. Buna görə də brendlərin yaradılması və idarə edilməsi marketoloqun ən başlıca vəzifəsi hesab olunur.Bəzi analitiklər brendlərə müəssisənin məhsullarına və xidmətlərinə davamlılıq gətirən ən başlıca aktivləri kimi baxırlar."Quaker Oats" şirkətinin təsisçilərindən olan Con Stüart demişdir: " Əgər bu biznes aramızda bölünsəydi mən sizə bu biznesin yerləşdiyi torpaq sahəsini və onun binasının kərpic və əhəngini verərdim.Özümə isə brend və ticarət nışanı saxlayardım. Mən əminəm ki, sizdən yaxşı yaşayan da elə mən olardım"[4]. McDonalds-ın menecerlərindən biri bu fikirlə razılaşaraq aşağıdakı misalı nümunə gətirir. "Əgər bizə məxsus hansısa bina, hansısa qurğu, cihaz təbii fəlakət zamanı məhv olarsa, biz asanlıqla öz brendimizin gücü ilə kredit alıb bütün bunları bərpa edə bilərik.Əslində bu düzgün fikirdir.Brend bütün bu aktivlərin məcmusundan çox-çox qiymətlədir"[3].

Dünyanın məhşur iç adamlarının brendi belə qiymətləndirmələri onun müəssisənin istehsal və sarış fəaliyyətində necə böyük rola malik olduğuna əyani sübutdur.

Məhsulun keyfiyyətini xarakterizə edən göstəricilərdən biri də qablaşdırma və nişanlamadır. Qablaşdırma məhsul üçün qabların və paketlərin dizaynı və istehsalıdır. Qablaşdırmanın əsas funksiyası məhsulu saxlamaq və mühafizə etməkdir. O, diqqətin cəlb edilməsindən, məhsulun təsvir olunmasına və satışına qədər mühüm rol oynayır. Belə ki, qablaşdırmanın gücü ilə istehlakçıda şirkət haqqında tam təsəvvür yaratmaq olur. Yüksək rəqabət şəraitində qablaşdırma satıcının alıcıya təsir edə biləcəyi sonuncu vasitə ola bilər. Son aparılan araşdırmalar göstərir ki, istehlakçının diqqətini cəlb etmək üçün və onu daimi müştəriyə çevirmək üçün qablaşdırma çox zəruri amildir. Bunlardan əlavə qablaşdırma məhsulun təhlükəsizliyini də təmin edir.

Nişanlama qabın əsas hissəsinə vurulmuş sadə etiketlərdən tutmuş mürəkkəb qrafiklərə qədər bütün işləri özündə birləşdirir. Etiket məhsulu və ya brendi aşkar edir, məhsulun vacib alıcı üçün maraqlı olan tərəflərini təsvir edir -kim hazırlayıb? harada hazırlanıb? onun məzmunu, tərkibi, düzgün istifadəsi və s. Bunlardan əlavə etiket vahid qiymətqoyma, istifadə müddətinin açıqlanması və qida tərkibinin göstərilməsi kimi tələbləri də yerinə yetirir [5].

Ədəbiyyat siyahısı

1. Hacıyeva L.A. Sənaye marketinqi. Bakı, Təhsil işçisi mətbəsi, MMC, 2012,324 s.
2. Huley Q., Sondres C., Pirsi N., Marketinq strategiyası və rəqabətlimövqeləşdirmə, Bakı, İqtisad Universiteti nəşri, 2008, 598 s.
3. Kotler F. Marketinq menecmenti. Bakı, İqtisad Universiteti nəşriyyatı, 2008, 179 s.
4. "McAtlas Shrugged", Foreign Police, May-June 2001, pp. 26-37
5. Q.Armstronq, F.Kotler, Marketinq: İlk addım, 7-ci nəşr, 2005, 600 s.

NEFTQAZ SAHƏSİNDƏ AMORTİZASİYA SİYASƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Rzayeva Ü. C.
AMEA.İqtisadiyyat İnstitutu

Giriş

Bazar münasibətləri şəraitində elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiqinin sürətləndirilməsinə kəskin zərurət yaranır. Respublikanın Neftqaz sənayesinin bir sıra qüsur və həll olunmamış problemləri olub və olmaqdadır. Onlara, ilk növbədə, istehsalın texniki səviyyəsinin lazımi dərəcədə yüksək olmaması, onun iqtisadi mexanizminin təkmil olmaması, yeni texnikaya çəkilən məsrəflərin özünü bağlama (doğrultma) qabiliyyətinin aşağı olması və digərləri aiddir. Bundan başqa məsrəflərin strukturunda mühüm irəliləyiş yoxdur, avtomatlaşdırma və modernləşdirmə xərclərinin xüsusi çəkisi aşağıdır, mütərəqqi texnologiyaların tətbiqinə yönəldilən vəsaitlərin məbləği get-gedə azalır. Bu mənfi halların aradan qaldırılmasına hər şeydən öncə istehsalın, həmçinin elm və texnika nailiyyətlərinin tətbiqinin nəticələrinin proqnozlaşdırılmasına və qiymətləndirilməsinə inteqrasiyalı yanaşma kömək edə bilər. Məlumdur ki, hazırki şəraitdə yeni texnikanın müəssisələrdə tətbiqi proqnozlaşdırıldığı zaman əsasən istehsalın formalaşmış strukturu ilə, istehsalat bazasının maddi-texniki təminat imkanları ilə bağlı cari məsələlərin həll olunması nəzərdə tutulur. Eyni zamanda demək olar ki, istehsalın texniki inkişafının nəticələri ilə bağlı perspektiv maraqlara diqqət yetirilmir.

Azərbaycanda Neftqaz quyuların müasir vəziyyətinin təhlili

Qeyd etmək lazımdır ki, bazar münasibətləri şəraitində bütün istehsal sahələrinin, o cümlədən Neftqazçıxarma müəssisələrinin imkanları xeyli genişlənir. Lakin buna baxmayaraq bu müəssisələr istehsalın dəqiq müəyyən edilmiş inkişaf perspektivlərinə, sabit istehsal proqramına və strateji planlara malik olmalıdır. İnnovasiya siyasətinin iqtisadi mexanizminin prinsip etibarı ilə yeni inkişaf konsepsiyasının hazırlanması tələb olunacaq. Bu konsepsiya keyfiyyətcə yeni texnika və texnologiyaların bütün təkrar istehsal sahələrində müəssisələrin səciyyəvi xüsusiyyətlərini və bazar münasibətlərinin spesifikasının prioritetli maraqlarını nəzərə almaqla tətbiqi üzərində qurulub.

Əsas məsələyə keçməzdən öncə, respublikanın Neftqaz sənayesində əsas kapitaldan istifadənin bugünki vəziyyəti barədə qısaca danışaq. Respublikada Neftqaz çıxarmanın səmərəliliyini artırma işində başlıca vəzifələrdən biri sənaye istehsalının texniki bazasını təşkil edən əsas kapitalların maksimum istifadə olunmasıdır. Xeyli sulanmış quyu fondu köhnə, tükənməkdə olan Neftqaz yataqlarının işlənməsini həyata keçirən Azərbaycan şəraitində əsas kapitaln səmərəliliyini artırma məsələsi xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, mövcud əsas kapitaldan istifadə yaxşılaşdıqda əlavə kapital qoyuluşları etmədən istehsal həcmi artır və fondtutumluğu azalır. Əsas kapitalın düzgün və səmərəli istismarı istehsal xərclərinin azaldılması üçün mühüm amildir. Əsas kapitaldan istifadə daha səmərəli olduğu zaman amortizasiya, inzibati-idarəetmə xərcləri, işıqlandırma və isitmə xəcləri kimi məsrəf elementləri Amortizasiya, inzibati-idarəetmə xərcləri, işıqlandırma və isitmə xəcləri kimi məsrəf elementləri istehsal edilən məhsulun həcminə nisbətən ya heç artmır ya da çox az artır. Respublikanın quru hissəsindəki yataqları istismar edən müəssisələr əsas kapitalın dəyəri bir milyard manatdan çox təşkil edir. Fəaliyyətini dənizdə aparan Neftqazçıxarma müəssisələrinin əsas kapitallarını nəzərə alaraq bu məbləğ bir az da artır, çünki müxtəlif estakadalar, flotiliyalar və s. var. Qeyd edək ki, əsas kapitalların 95%-i Neftqaz sənayesinin əsas fəaliyyət sahəsinə məxsusdur. Bütün əsas kapitalların mühüm hissəsini və onların fəal hissəsini, yəni 75%-dən çoxunu quyular təşkil edir. Əsas kapitalların strukturunda ölçmə və tənzimləmə cihazlarının dəyəri təxminən 1,2% təşkil edir, bu isə texniki tərəqqinin qabaqcıl nailiyyətlərinin – istehsal proseslərinin avtomatlaşdırılmasının və telemexanizasiyasının çox az istifadə olunmasını göstərir. Əsas kapitalların strukturunda maşın və avadanlıqlar 20-22% təşkil edir. Əsas kapitaldan istifadənin nəticələri onun vəziyyətinin nəticəsidir. Müəyyən edilib ki, Neftqazçıxarma müəssisələrinin əsas kapitalı xeyli köhnəlib. Quruda fəaliyyət göstərən müəssisələr üzrə köhnəlmə əmsalı 75% təşkil edir. Əsas kapitalların qalıq dəyəri,

yəni renovasiyalara görə hesablanmış amortizasiya şəklində köhnəlmə çıxılmaqla dəyəri ilkin dəyərin dörddə bir hisəsini, yararlılıq əmsalı isə 25% təşkil edir. Müəyyən edilib ki, quyu fondu xeyli köhnələndə onun köhnəldiyi üçün ləğv edilməsi mühüm əhəmiyyət kəsb etmir [1] .

Hər il əsas kapitalların orta illik dəyəri təxminən 7%-i azalır. Bu ona dəlalət edir ki, əsas kapitalların xeyli hissəsi istehsal prosesindən çıxmaq həddindədir və onların yenisi ilə əvəz olunması və ya texniki cəhətdən yenidən təchiz edilməsi üzrə tədbirlərin reallaşdırılması tələb olunur. Əsas kapitalların qismən yeniləşdirilməsi onların hər il istismara verilməsi hesabına həyata keçirilir və orta hesabla il ərzində 6-8%, o cümlədən yeni əsas kapitalların istismara verilməsi 4-7% təşkil edir, yəni əsas kapitalların işə salınmasının intensivliyini xarakterizə edən yeniləşdirmə əmsalı təxminən 5%-ə bərabərdir, bu isə köhnə quyu fondu olduğu halda az effektlidir. Yuxarıda qeyd olunduğu kimi, quyular əsas kapitalın fəal hissələridir. Istismar quyu fondunun təhlilinə əsasən quyular xeyli yaşa malikdir. Bu günə quyulaın 80%-nin yaşı 20-dən yuxarıdır, istismar quyu fondunun 65%-i və hazırda fəaliyyət göstərən quyu fondunun 69,4% -i 25 ildən artıq istismar edilir. Quyuların köhnəlmə əmsalı 0,7-0,8 bərabərdir, yəni quyu fondunun köhnəlməsi 70-80% təşkil edir. Təhlillə müəyyən edilib ki, əsas kapitalların strukturunda digər fondlar 3,1% təşkil edir və onlar həddindən artıq köhnəlmiş vəziyyətdədir. Belə şəraitdə əsaslı təmir vasitəsi ilə əsas kapitalların işlək vəziyyətdə saxlanılması üzrə işlər mühüm əhəmiyyət kəsb edr. Bu işlərin görülməsi üçün xeyli pul vəsaiti tələb olunur. Qeyd edək ki, bütün əsas kapitalların işlək vəziyyətdə saxlanılması üçün tələb olunan vəsait əsaslı təmirə ayırmaların məbləğini aşır. Azərbaycanın Neftqaz sənayesindəki əsas kapitalların köhnəliyi və az yenilənməsi ona gətirib çıxarıb ki, onların təmirinə demək olar ki yeni istismara verilən fondların dəyərindən çox vəsait xərclənilir.

Onu da qeyd etməliyik ki, əsas kapitaldan istifadə göstəricisinə mühüm təsir göstərən amillərin mühüm hissəsi əsaslı tikinti sahəsində formalaşır. Bunlara ilk növbədə istismara verilən yeni quyuların dəyərinin artırılması aiddir. Əsasən bu işlənilmə üçün işə salınan Neftqaz yataqlarının dərinliyinin artması, ayrı-ayrı və çətin yerlərdə yerləşən yataqların mənimsəmə şəraitinin çətinləşməsi ilə bağlıdır.

Məlumdur ki, dəfələrlə təmirə məruz qalan köhnə avadanlığın məhsuldarlığı yenisindən xeyli aşağıdır. Buna baxmayaraq, Neftqaz çıxarma prosesinin fasiləsizliyi ilk növbədə Neftqaz quyularının düzgün istismarından, ona göstərilən xidmətdən və təmirdən asılıdır. Respublikanın Neftqazçıxarma üzrə yeni obyektlərin istismara verilməsi ilə bağlı işlərin artması bu sahədə təmir işlərinin aparılmasının təkmilləşdirilməsinin əhəmiyyətini artırır. Onu da qeyd edək, ki quyuların normal işi müxtəlif səbəblərdən pozulur, nəticədə Neftqazçıxarma azaldılır ya ümumiyyətlə dayandırılır.Neftqazçıxarmanın azaldılmasına və ya dayandırılmasına səbəb yeraltı və ya yerüstü avadanlığın detalların sıradan çıxması, elektrik enerjisi və ya işlək agenti (maddə) təchizatının müvəqqəti dayandırılması, həmçinin parafin çökmələri və ya quyuların dibinə qumun və suyun daxil olması ilə bağlı qüsurlar ola bilər. Quyulara xidmət və təmirin təşkil edilməsi zərurəti istismar edilən avadanlığın köhnəlməsi ilə, həmçinin yeraltı sərvətlərin mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsi ilə bağlıdır. Əsas kapitalların təmir və istismarının səmərəli təşkili onların vaxtından əvvəl köhnəlməsinin qarşısın alır, istismara hazır vəziyyətdə saxlayır, əmək vasitilərindən istifadəni yaxşılaşdırır, bu isə istehsalın həcminə, gəlirliliyinə, məhsulların rəqabət qabiliyyətinə və müəssisənin fəaliyyətinin digər keyfiyyət göstəricilərinə müsbət təsir göstərir [2.3.4].

Qeyd etmək lazımdır ki, qəzaların aradan qaldırılması, suların təcrid edilməsi, əzilmiş sütunların düzəldilməsi, tıxacların qazılması, layların hidavlik partladılması və s. kimi mürəkkəb işlər əsaslı təmir kateqoriyasına aiddir. Cari yeraltı təmirə aid olan işlər: dərinlik nasosunun və detallarının dəyişdirilməsi; qırılmanın aradan qaldırılması və ya nasos ştanqlarının açılması; nasosun yuyulması; nasos-kompressor boru və ştanqlarının dəyişdirilməsi, əlavə edilməsi və ya sayının azaldılması; qum tıxaclarının təmizlənməsi və yuyulması və bəzi digər işlər.

Məsələ ondadır ki, bəzi digər sənaye sahələrində, məsələn, maşınqayırmada, emal sahələrində, eyni şəraitdə rəqabət qabiliyyətli məhsulların istehsalına nail olmaq üçün dəzgahlar, maşınlar və avadanlıqlar yenisi ilə əvəzlənir. Lakin Neftqaz sənayesinin xüsusiyyətlərini (misal üçün, bu sahədə fəaliyyətin təbii amillərdən asılı olması) nəzərər alaraq əsas kapitalın kütləvi şəkildə dəyişilməsinə zərurət yaranmır. Onların işlək vəziyyətdə saxlanılması üçün təmir işləri aparılır. Respublikada Neftqazçıxarmanın intensivləşməsi şəraitində quyuların və Neftqaz-mədən avadanlığının təmirinin səmərəliliyinin artırılması, onların təmirarası müddətinin uzadılması kimi məsələlər xüsusi əhəmiyyət daşıyır. Bu məsələlər mühəndis-iqtisadi əsaslandırmaları müəyyən edən təsiredici istehsal ehtiyatları aşkar edə biləcək təhlil aparıldıqda həll oluna bilər. Vaxtı-vaxtında və keyfiyyətli aparılan əsaslı təmir quyu fondundan səmərəli istifadənin mühüm ehtiyatıdır. əsas kapitalların əsaslı təmirinin ümumi xüsusiyyətləri və qanunauyğunluqları var və bunlar Neftqazçıxarma sahəsində bir mühüm əsas kapital növü kimi çıxış edən Neftqaz quyularının əsaslı təmirinə də aiddir. Bu xüsusiyyətlər ondan irəli gəlir ki, Neftqaz quyuları, digər əsas fond növləri kimi, özünə məxsus konstruksiya və elementlərə malikdir və təbii ki, istismar zamanı fiziki köhnəlməyə məruz qalırlar, köhnəlirlər və zaman keçdikcə işləmə qabiliyyətini itirərək tamamilə sıradan çıxırlar. Neftqaz quyularının digər ümumi xüsusiyyəti odur ki, tərkib hissələri, elementlər

köhnəlir. Bu zaman fiziki köhnəlmənin dərəcəsindən asılı olaraq, dəyər qismən çıxarılan məhsulun – neftin və qazın dəyərinə keçir. Neftqaz quyularının tərkib elementlərinin qeyri-bərabər köhnəlməsi və bu səbəbdən yaranan qismən təmir zərurəti əsaslı təmirin spesifik xüsusiyyətlərini yaradır. Məlum olduğu kimi, Neftqaz quyularının xidmət müddəti, fiziki baxımdan köhnəlməyə başladığı vaxt daima Neftqaz və qaz çıxarma prosesinin davamlılığından azdır, çünki Neftqazçıxarmada istehsal prosesi yataqların işlənilmə müddəti və layın məhsuldarlığı ilə müəyyən edilir. İstehsal prosesini davam etdirmək üçün, təbii ki, Neftqaz quyularını bərpa etmək tələb olunur. Neftqaz quyularının əsaslı təmirinin iqtisadi məzmunu və mahiyyəti quyuların konstruksiyaları ilə bağlıdır, çünki məhz quyuların konstruksiyaları, quyunun yerləşdiyi layın geoloji-fiziki xüsusiyyətləri təmir işlərinin növünü, məzmununu, mahiyyətini və xərclərin səviyyəsini müyyən edir, bunlar isə amortizasiya siyasəti ilə sıx bağlıdır. Qeyd edək ki, Neftqaz quyularının əvvəlki istismar keyfiyyətlərini bərpa edən əsaslı təmirin dəyəri, bu tipli yeni quyunun tikilmə dəyərindən xeyli aşağıdır. Quyuların əsaslı təmirinin vaxtında və yüksək keyfiyyətlə aparılması Neftqaz yataqlarının son işlənmə mərhələsində köhnə Neftqaz rayonlarında neftqazçıxarma səviyyəsini sabitləşdirmək üçün mühüm ehtiyatdır.

Təsərrüfat mexanizminin yenidən qurulması, bazar münasibətlərinə keçid üzrə tədbirlər kompleksi istehsal xərclərinin azalmasına və müəssisələrin və iqtisadiyyat sahələrinin fəaliyyətinin artmasına yönəldilib. Bu tədbirlər məsrəflərin qarşısını alacaq vasitə və stimulların təsirinin güclənməsinə səbəb olmalıdır. Çünki bazar münasibətləri zamanı istehsalçı müəssisə digər bərabər şəraitdə məhsul vahidinin istehsal xərcini azalda bilir, bu da məhsulların rəqabət qabiliyyətinə təsir edən amillərdən biridir. Bu məsələnin həllində mühüm əhəmiyyət məhsulun maya dəyəri göstəricisi daşıyır. Bazar münasibətlərinə keçid "məsrəflərin qarşısını alacaq mexanizmin" işə salınması ilə bağlı bir sıra məsələləri ortaya çıxarır, bu isə mənfəətin bölgüsü normativi, amortizasiya normaları kimi iqtisadi normativlərin istifadəsi ilə sıx bağlıdır.

Neftqaz müəssisələrində ammortiasiya siyaətinin səmərəli təşklinin yolları

Neftqaz sahəsinin inkişaf etdirilməsi qaçılmaz olaraq daha çətin geoloji və təbii-iqlim şəraitində yerləşən yataqların istismara cəlb edilməsi ilə bağlıdır, bu isə sahəvi və iqtisadi məsrəflərin obyektiv artma meylini müəyyən edir. Buna görə qarşıda neftqaz istehsalının səmərəliliyini artırma yollarının axtarışı və ilk növbədə maya dəyəri və qiymət kimi iqtisadi vasitələrin təsirinin gücləndirilməsi problemi daha kəskin şəkildə durub. Neftqaz sənayesinin səciyyəvi xüsusiyyəti odur ki, hətta sadə təkrar istehsal üçün əlavə, get-gedə artmaqda olan vəsait qoyuluşu tələb olunur və sonuncu istehsal şəraitinin obyektiv pisləşməsini kompensasiya etməlidir. Eyni zamanda Neftqazçıxarmanın maya dəyərinin artmasına səbəb olan mənfi meyllər, bir qayda olaraq, sahənin iqtisadi göstəricilərinə daha güclü təsir göstərir, nəinki innovasiya xarakterli elmi-texniki tərəqqi tədbirləri. Bu tərəqqinin Neftqaz sahəsində biruzə vermə xüsusiyyətləri var.

Elm və texnikanın inkişafının müasir səviyyəsi, yeni neftqazçıxarma və istifadə texnoloji proseslərinin tətbiqi, geoloji kəşfiyyat işləri sahəsində nailiyyətlər öncədən azdebitli, daha dərində yerləşən, mürəkkəb quruluşa malik yeni quyuların Neftqaz yataqlarının işlənilmək üçünə get-gedə çox cəlb olunmasına imkan yaradır. Beləliklə, texniki tətəqqi "nisbətən pis təbii şərait" anlayışının dəyişilməsinə gətirib çıxarır, çünki bu yataqlardan neft və qazın çıxarılmasına çəkilən məsrəflər köhnə yataqlarda çəkilən məsrəflərdən çoxdur. Texniki tərəqqinin, Neftqazçıxarma sahəsinə innovasiyaların tətbiqinin nəticəsi məhsul vahidinə cari məsrəflərin azalması deyil (hərçənd onların tətbiqi ilə məsrəflər də azalır), əlavə neftqazçıxarmanın təmin edilməsidir. Buna görə texniki tərəqqinin iqtisadi səmərəliliyi qiymətləndirilən zamanı bütün istehsal tsikli üzrə (Neftqazin axtarışı, kəşfiyyatı, qazılması və çıxarılması) ümumi məsrəflərin qənaəti nəzərə alınmalıdır. Neftqazçıxarma məsrəflərinin yüksək olmasına baxmayaraq, belə yataqların işlənilməsi iqtisadiyyat üçün səmərəlidir, çünki o yer altından Neftqaz çıxarma əmsalını, qiymətli enerji və kimyavi xammal ehtiyatlarını artırmağa imkan verir, həmçinin bu regionun sosial məsələlərini həll edir. Elmi-texniki tərəqqi tədbirlərinin həyata keçirilməsi Neftqaz sənayesinin inkişafı ilə bağlı obyektiv bahalaşdırıcı amillərin təsirini qismən qarşısını alır. Buna Neftqaz yataqlarının işlənilməsi üzrə qabaqcıl texnika və texnologiyaların tətbiqi, qazma işlərinin səmərəliliyinin artırılması, əmək sərfiyyatının azaldılması sahəsində məqsədli kompleks proqramlarının reallaşdırılması kömək edir. Neftqaz sənayesində elmi-texniki tərəqqinin əsas istiqamətlərindən biri prinsip etibarı ilə yeni Neftqazçıxarma üsullarının tətbiqi sayəsində neftqazin yer altından daha tam çıxarılması üzrə tədbirlərin görülməsidir, bu isə yeni neftqaz rayonunun açılmasına bərabərdir və sonda ehtiyatların xeyli qənaəti ilə nəticələnir.

Qeyd edək ki, neftqazçıxarma azalmasını kompensasiya etmək üçün quyuların və digər əsas fondların istismara verilməsi, həmçinin sahədə yeni quyuların dərinliklərinin artması ilə bağlı qazma işlərinin dəyərinin yüksəlməsi Neftqazçıxarmanın fondtutumluğunun və nəticədə amortizasiya ayırmalarının artmasına səbəb olur. Amortizasiya ayırmalarının əsas hissəsi istismar, injeksiya və nəzarət quyularının payına düşür. Amortizasiya ayırmalarının mütləq artımı əsasən texnoloji avadanlığın payının çoxalması nəticəsində amortizasiya ayırmalarının orta normasının artması ilə bağlıdır.

Fiziki və mənəvi köhnəlməyə məruz qalan avadanlığın kompensasiya olunması amortizasiya ayırmaları hesabına baş verir. Amortizasiya ayırmaları əsas kapitalın dəyərinin hər il istehsal edilən məhsulun dəyərinə daxil edilən bir hissəsidir. Amortizasiya əsas fondlar köhnəldikcə onların dəyərinin istehsal edilən məhsula və ya xidmətə keçirilməsidir. Amortizasiya əsas kapitalların sonraki qismən və tam bərpası üçün pul vəsaitlərinin yığılması məqsədi ilə tətbiq edilir. Həmin vəsaitlər Neftqaz və qaz çıxarmanın maya dəyərinə daxil edilən aylıq amortizasiya ayırmaları hesabına yığılır. Məhsul realizə edildiyi zaman amortizasiya ayırmaları pul formasına keçir və amortizasiya fondu yaradır. Amortizasiya ayırmalarının məbləğinin əsas kapitalın dəyərinə faizlə ifadə olunan nisbəti amortizasiya norması adlanır. Amortizasiya ayırmaları iqtisadi baxımdan əsaslandırılmalıdır. Artırılmış amortizasiya norması məhsulun maya dəyərini bahalaşdırır və gəlirliliyi azaldır, azaldılmış norma isə əsas kapitalların köhnəlməsini kompensasiya olunmasını təmin etmir. Amortizasiya normalarının texniki-iqtisadi əsaslandırılması sənayenin fondtutumlu və məhsulun maya dəyərində amortizasiya ayırmalarının payı yüksək olduğu sahələrində (neftqazçıxarma, qazçıxarma və s.) böyük əhəmiyyət kəsb edir.

Elmi-texniki tərəqqinin yüksək templəri,əsas kapitalın mənəvi köhnəlməsinin sürətlənməsi amortizasiya normalarının dövlət tərəfindən qanunvericilik qaydasında artırılmasına gətirib çıxarır. Dövlətin bu fəaliyyəti sürətləndirilmiş amortizasiya siyasəti adlanır. Bu siyasət avadanlığın dəyərini istehsal edilən məhsula daha tez silməyə, mənəvi köhnəlmiş avadanlıqdan daha tez qurtulmağa imkan verir. Elmi-texniki tərəqqi şəraitində əsas kapitalın mənəvi köhnəlməsinin kompensasiyası üçün nəzərdə tutulmuş vəsaitlərin mühüm hissəsi məhz sürətləndirilmiş amortizasiya sayəsində daxil olur. Onun təyinatı yalnız ləğv olunmuş əsas kapitalı kompensasiya etmək deyil, o həmçinin elmi-texniki tərəqqini stimullaşdırmaq üçün nəzərdə tutulub. Sürətləndirilmiş amortizasiya mənfəət kimi əldə edilən iri məbləğləri amortizasiya fonduna keçirməyə imkan verir, bu da yığımı genişləndirmək üçün əlavə imkanlar yaradır. Qeyd edək ki, neftqaz sənayesində amortizasiya hesablandığı zaman əsasən avadanlığın xidmət müddəti nəzərə alınmaqla düz xətt metodu tətbiq edilir, halbuki bağlanmış neftqaz müqavilələrində sürətləndirilmiş amortizasiya istifadə olunur. Bundan başqa neftqaz sənayesində qüvvədə olan amortizasiya normalarında mənəvi köhnəlmənin ikinci forması nəzərə alınıb, bu isə orta normativ xidmət müddətlərinin (amortizasiya dövrlərinin) xeyli azalmasına səbəb olmuşdur. Onlar əsas kapitalların bərpa dəyərinə, əsas kapitalların ayrı-ayrı növlərinin iriləşdirilmiş qruplara geniş bölgüsünə əsasən müəyyən edilib.

Qeyd edək ki, elmi-texniki tərəqqinin təsiri altında müəssisələrin maddi-texniki bazasının inkişafında daima dəyişikliklər baş verir. Müasir dövrdə sahənin iqtisadi inkişaf strategiyası məsələsi müasir texnika və texnologiyalar əsasında istehsalın yeniləndirilməsinin sürətləndirilməsidir. Neftqaz sənayesinin vaxtında və müntəzəm yeniləndirilməsi və texniki cəhətdən yenidən təchiz edilməsi innovasiya texnologiyasının tətbiqi və rəqabət qabiliyyətli məhsulun istehsalı üçün mühüm amildir. Sahədə yığılan əsas kapitalların iri miqyaslılığı onların işlək vəziyyətdə saxlanılması üçün xeyli məsrəflər tələb edir. Bununla belə köhnəlmiş əsas kapitalların yığılması ARDNŞ-nin iqtisadi göstəricilərinin pisləşməsinin səbəblərindən biridir. Onların təmirinə və onlara xidmət göstərilməsinə çoxlu əmək, maddi və pul ehtiyatları sərf olunur. Neftqazçıxarma sahəsinin istehsal-texniki bazasının yeniləndirilməsinin sürətləndirilməsi kompleks iqtisadi problemdir. Bu problemin həlli ilk növbədə vəsaitlərin əsas kapitalların təkrar istehsalının prioritetli istiqamətlərində (məsələn, onların aktiv hissəsinin yeniləndirilməsində) cəmləşdirilməsi məqsədi ilə innovasiya-investisiya siyasətinin əsaslı şəkildə dəyişdirilməsini tələb edir. Müəssisənin istehsal- texniki bazası istehsal prosesinin həyata keçirilməsi üçün zəruri olan texnoloji, enerji, nəqliyyat və digər növ avadanlıq, alət, mexanizm, tikili və qurğu kompleksidir. İnnovasiya-investisiya siyasətində təklif edilən yeni yanaşma kapital qoyuluşlarının təkrar istehsal strukturunun və əsas kapitalların təkrar istehsal formasının optimallaşdırılması, yəni əsas kapitalların əsaslı təmir və modernləşdirmə yolu ilə qismən kompensasiya olunması və əvəzləmə nəticəsində tamamilə yeniləndirməklə tam kompensasiya olunması arasındaki nisbətlərin optimallaşdırılması vəzifələrinin birgə həllindən ibarətdir. Fondların yeniləndirilməsi planlı şəkildə həyata keçirilməlidir və kapital qoyuluşlarının təkrar istehsal strukturunun müvafiq nisbətləri ilə əlaqəli olmalıdır.

Təkrar istehsal prosesində amortizasiya 3 əsas funksiya yerinə yetirir: təkrar istehsal funksiyası - amortizasiya fondunun əmək vasitələrinin köhnəlmə səviyyəsinə uyğunluğunu tənzimləyir, amortizasiyanın mahiyyət baxımından fondların dəyər hərəkəti prosesinin qanunauyğunluqları ilə müəyyən edilən tələbini əks etdirir. Hesablanmış amortizasiyanın həcmi əmək vasitələrinin fiziki və mənəvi köhnəlməsinə uyğun olmalıdır və bu durum obyektiv olaraq sözügedən və fondların dəyər hərəkətinin forması olan kateqoriyanın iqtisadi təbiətindən irəli gəlir. Onu da qeyd etmək lazımdır ki, əmək vasitələrinin fiziki və maddi köhnəlməsi arasındaki uyğunsuzluq istehlak dəyərindən istifadəni əks etdirir və elmi-texniki tərəqqi inkişaf etdikcə dərinləşir. Amortizasiyanın ikinci funksiyası bölüşdürmə funksiyasıdır. O amortizasiya fondunun nisbətlərini sahə və növ baxımından tənzimləyir. Bu funksiyanın vasitəsi ilə əmək vasitələrinin ayrı-ayrı növlərinin yenilənmə templəri sürətləndirilir və ya ləngidilir. Amortizasiyanın üçüncü funksiyası – stimullaşdırma funksiyasıdır. O özünü əsas kapitalların elmi-texniki tərəqqisinin templərinin sürətləndirilməsi üçün şəraitin yaradılmasında biruzə verir.

Amortizasiyanın mahiyyəti və funksiyaları obyektiv prosesləri, yəni əsas kapitalların dəyərinin istehsal məhsullarına genişləndirilmiş əsasda keçirilməsini ifadə edir. Onlar öz təsirini iqtisadi kateqoriya və vasitələrin köməyi ilə göstərir, sonuncuların isə qarşılıqlı əlaqəsi amortizasiya siyasətinin mahiyyətini təşkil edir. Belə vasitələrə amortizasiya norması, amortizasiya hesablama üsulları, amortizasiya fondundan istifadə qaydası aiddir. Normanın səviyyəsi, onun strukturu və differensiasiyası iqtisadiyyatın inkişafının obyektiv tələbləri ilə bağlıdır. Əsas vəzifə amortizasiya normalarını əsas kapitalların həcmi və azalma templəri ilə sıx uzlaşdırmaq, köhnəlmiş maşınların və avadanlıqların tezliklə yenisi, daha mütərəqqisi ilə əvəzlənməsinə kömək etməkdir. Lakin indi bazar münasibətlərinə keçidlə əlaqədar avadanlıqların əvəzlənməsi problemi, özdə ki mütərəqqisi ilə , ikinci plana keçib, müəssisələr daha çox bu günü, nəinki sabahı düşünürlər. Belə şəraitdə vəziyyətdən ən düzgün çıxış yolu əsas kapitalların yenilənmə prosesinin motivasiya mexanizminin təkmilləşdirilməsi və ondan istifadənin intensivləşdirilməsi ola bilər.

Zənnimizcə, əsas kapitalların azalmasında və yeniləndirilməsində amortizasiya ayırmalarının rolunun gücləndirilməsi istehsalın intensivləşdirilməsinə təsir etməklə, maya dəyərini azaltmaqla və müəssisənin mənfəətini artırmaqla baş verməlidir. Sonuncuya ən çox təsir göstərən əsas kapitalların aktiv hissəsindən istifadənin intensivləşdirilməsi hesabına məhsulların maya dəyərində amortizasiya ayırmalarının xüsusi çəkisinin azalmasıdır.

Nəticə

Aparılmış tədqiqatdan məlum oldu ki, Neftqazçıxarma müəssisəsinin amortizasiya fondu genişləndirilmiş təkrar istehsalla bağlı bütün problemləri həll etməyə qadir deyil. Bundan başqa, son zamanlar amortizasiya fondu yığımında və istifadəsində dəyişiklər baş verib. İş ondadır ki, neft və qazın maya dəyərində müxtəlif kompleks maddələrin tərkibində (“Laya süni təsir xərcləri”, “Neft və qazin yığılması və nəqli xərcləri”, “Neft və qazin texnoloji hazırlığı xərcləri”, “Avadanlığın saxlanma və istismar xərcləri”, “Sex xərcləri”) və “Quyuların amortizasiyası” xərcində amortizasiya ayırmaları nəzərdə tutulur. Bu da maya dəyərinin ammortizasiya xərclərin hesabına artıq dərəcədə artmasına gətirir.

Ədəbiyyat siyahısı

1. Hacızadə E.M. Neftqaz təsərrüfatinin iqtisadi strukturunun modernizasiyası Bakı,Elm, 2003, 512 səh.
2. Алиев Т.Н., Наджафов З.М., Бабаев М.Т. Организация управления потенциалом нефтедобывающей отрасли. Баку: Элм, 2001, 168с.
3. Сафаров Г.А. Экономические проблемы эффективности производства в нефтегазодобыче и методы их решения. Баку: Элм, 1997, 296с
4. Шахвердиев А.Х. Судьба инноваций и инноваторов в нефтяной и газовой промышленности.// Нефтяное хозяйство, 2000, №6, с.5-9

İQTİSADİ İNKİŞAFDA KİÇİK BİZNESİN ROLU

Tağıyeva A. V.
Simqayıt Dövlət Universiteti

Təsərrüfat sahəsi həmişə genişdir. O, kapital və istehsalın miqdarı üzrə müxtəlif müəssisələrdən və bu müəssisələr tərəfindən həyata keçirilən geniş miqyaslı, o cümlədən beynəlxalq biznesdən yaranır. Adətən belə hesab edirlər ki, iri istehsal və böyük biznes təsərrüfat artımının lideri olaraq hər bir milli iqtisadiyyatın və müvafiq olaraq bütövlükdə dünya iqtisadiyyatının inkişafının əsası kimi çıxış edir. Çünki sonuncu təsərrüfat proseslərinin əsas hissəsinin “daşıyıcısı”, onların maliyyələşdirilməsi mənbəyi, məhsul üzrə yeniliklərin və dünya iqtisadiyyatının yeni mexanizmlərinin təşəbbüskarı hesab olunur.

Fəaliyyəti böyük biznesə aid edilən iri korporasiyalar, o cümlədən nəhəng transmilli korporasiyalar ilə yanaşı beynəlxalq biznesin fəal operatorlarından biri fəaliyyəti kiçik beynəlxalq biznes olan kiçik biznes müəssisələridir.

Kiçik biznes ən yaxşı halda böyük biznesin “sex əlavəsi” hesab olunan qalıq, əlavə istehsal forması, ayrı-ayrı hallarda isə sahibkarlıq problemləri ilə bağlı olan qeyri-sabit sahə olaraq gözdən keçirilir. Amma problem ondan ibarətdir ki, nə statistik məlumatlar, nə də sahibkarlığın dünya iqtisadiyyatındakı təkamülü yuxarıda göstərilən konsepsiya və fərziyyələrin mövcudluğunu təsdiq etmir. Statistika sübut edir ki, iri müəssisələrə nisbətən kiçik istehsal müəssisələri ÜDM-nin istehsalında, məşğul olanların sayında və əksər ölkələrin iqtisadiyyatında fəaliyyət göstərən müəssisələrin ümumi sayında böyük xüsusi çəkiyə malikdir.

Belə ki, inkişaf etmiş ölkələrdə ÜDM-də kiçik biznes müəssisələrinin payı çox hallarda ÜDM-nin 50%-ini ötərək, bir sıra ölkələrdə isə 60-70%-inə çataraq çox yüksək səviyyə ilə xarakterizə olunur. Kiçik

biznes müəssisələri müəssisələrin ümumi sayında (bir sıra hallarda o, 95-98%-ə çatır) və məşğul olanların ümumi sayında (60-80%-ə qədər) daha böyük xüsusi çəkiyə malikdir. Göstərilən makroiqtisadi göstəricilər inkişaf etməkdə olan ölkələr üzrə daha böyük çəkiyə malikdir, burada kiçik biznes müəssisələrin ÜDM-də, məşğul olanların sayında və müəssisələrin ümumi sayında payı əksər ölkələrdə 50%-lik həddi keçir. Özü də bu cür vəziyyət uzunmüddətli dövr üçün xarakterikdir və milli iqtisadiyyatların, dünya iqtisadiyyatının keçdiyi bütün inkişaf mərhələlərində, yəni istər aqrar və sənaye, istərsə də onların fəaliyyət göstərdiyi müasir postsənaye modellərində təcrübi olaraq özünü biruzə verir [1].

Sahibkarlığın təkamülünə gəldikdə isə, bazar iqtisadiyyatı şəraitində onun dinamikası kiçik biznesdən böyük biznesə qədər hərəkəti özündə əks etdirir, ancaq təkcə onunla izah olunmur, o, təsərrüfat təcrübəsinə uyğun olaraq XX əsrin ikinci yarısını - hazırkı yüzilliyin başlanğıcını və əksinə hərəkəti: iri biznesdən kiçik biznesə qədər, qabaqlar yaranmış istehsal aqlomerat-nəhənglərin parçalanmasını və kiçik istehsal müəssisələrindən daha geniş istifadəni özündə birləşdirir. Kiçik biznesin özünəməxsus intibahı baş verir. Qeyd etmək lazımdır ki, kiçik biznesin xarici iqtisadi dövriyyədəki payı ayrı-ayrı ölkələrin milli iqtisadiyyatındakı dövriyyədən (kiçik biznes müəssisələri dünya ixracının həcminin orta hesabla 25-30%-ini verir) bir qədər aşağıdır. Ancaq bu, onu ifadə etmir ki, kiçik biznes dünya təsərrüfat əlaqəsi üçün zəif təsərrüfat axınıdır və əhəmiyyətinə görə zəif çəkilidir. Ancaq iş ondadır ki, çox vaxt "qapalı" biznesə can atan transmilli korporasiyalar (TMK) dünya təsərrüfatı dövriyyəsinin əhəmiyyətli hissəsini tutur. Onlar xarici ölkələrdə öz qız müəssisə, filial, assosiasiya edilmiş şirkətlərini və s. yaradır, firmadaxili norma və şərtlər, o cümlədən transfer qiymətləri əsasında onlar arasında və ana şirkət ilə dövriyyəni qaydaya salır. Nəticədə təsərrüfat dövriyyəsi TMK çərçivəsində müəyyən dərəcədə sanki dünya iqtisadiyyatının təcrid edilmiş "anklav"ı kimi xüsusiləşir, mahiyyətcə adi beynəlxalq iqtisadi münasibətlərdən kənar edilir, dünya iqtisadiyyatının xüsusiləşmiş sektoruna çevrilir.

Kiçik müəssisələr, əksinə, dünya iqtisadi münasibətlərinin "müstəqil" subyektidir, bir qayda olaraq, beynəlxalq ticarətin ümumqəbul olunmuş norma və qaydaları əsasında "açıq" dünya bazarı uğrunda fəaliyyət göstərir və çıxış edir.

Kiçik sahibkarlıq bazar konyunkturunun dəyişikliklərinə operativ reaksiya verərək iqtisadiyyata lazımi çeviklik verir. Kiçik şirkətlər istehlakçı tələbinin dəyişməsinə ani olaraq reaksiya vermək və bunun hesabına istehlak bazarında zəruri tarazlığı təmin etmək qabiliyyətinə malikdir. Kiçik biznes rəqabət mühitinin formalaşmasına əhəmiyyətli töhfə verir, bu isə yüksək səviyyədə inhisarlaşmış iqtisadiyyat üçün birinci dərəcəli əhəmiyyət kəsb edir [2].

Kiçik və orta biznesin inkişafı çevik qarışıq iqtisadiyyatın formalaşmasının, müxtəlif mülkiyyət formalarının və onlara tam uyğun olan təsərrüfat modellərinin ümumdünya meyillərinə cavab verir, onda isə rəqabətli bazar mexanizminin mürəkkəb sintezi, iri, orta və kiçik istehsalın dövlət tənzimlənməsi reallaşır. Əgər iri biznes müasir iqtisadiyyatın skeleti, oxudursa, orta və kiçik biznes isə bütün müxtəlifliyi ilə təsərrüfat orqanizminin əzələləri, "canlı toxumasıdır". Bu, əksər hallarda iqtisadi artım sürətini, əhalinin məşğulluq səviyyəsini, ümumi milli məhsulun strukturu və keyfiyyətini müəyyən edən əsas sektorlardan biridir.

Orta və kiçik biznesin inkişafının üstünlüklərini sadalayaq:

- mülkiyyətçilərin sayının artması – nəticə etibarilə, orta sinfin – demokratik cəmiyyətdə siyasi sabitliyin əsas qarantının formalaşması;
- iqtisadi fəal əhalinin payının artması, bu isə vətəndaşların gəlirlərini artırır və müxtəlif sosial qrupların rifahında uyğunsuzluqları aradan qaldırır;
- özünü reallaşdırmağın ilkin məktəbi kiçik biznes olan ən enerjili, iş bacarığı olan şəxslərin seçilməsi;
- xüsusilə xidmət sferasında nisbətən aşağı kapital məsrəfləri ilə yeni iş yerlərinin yaradılması;
- dövlət sektorunda işdən azad olunmuş işçilərin, eləcə də əhalinin sosial cəhətdən zəif qrupdan olan nümayəndələrinin işə düzəldilməsi;
- müəssisədə kadrların hazırlanması və işçilərin ixtisasının artırılması;
- texnoloji, texniki və təşkilati yeniliklərin işlənib hazırlanması və tətbiqi;
- istehsalçıların inhisarının aradan qaldırılması, rəqabət mühitinin yaradılması;
- maddi, maliyyə və təbii resursların mobilləşdirilməsi və onlardan daha səmərəli istifadə edilməsi, başqa cür olsaydı onlar tələb olunmamış qalardı;
- daha əməktutumlu məhsulların buraxılışı zamanı fondtutumluluğun və kapitaltutumluğun azaldılması, qoyuluşların sürətli ödənməsi;
- iqtisadiyyatın müxtəlif sahələri arasında qarşılıqlı əlaqənin yaxşılaşdırılması.

Kiçik biznes spesifik mülkiyyət formasına əsaslanan xüsusi təşkilat deyil, istehsal və yaxud göstərilən xidmətin miqyasının spesifik xüsusiyyətidir.

Azərbaycanda kiçik biznesin qarşılaşdığı çətinliklərin nəzərdən keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu çətinliklərin ən vaciblərinə nəzər salaq:

a) birincisi, kiçik və orta müəssisələrin inkişaf proqramının dövlət hesabına maliyyələşdirilməsi imkanın məhdud olunması;

b) ikincisi, yaradılan müəssisələrin yüksək texnoloji səviyyəsinin öz daxili qüvvələri hesabına təmin edilməsinin qeyri mümkünlüyü. Axı, onların əksəriyyəti dar ixtisaslaşdırılmış müəssisələr olacaqdır, bu isə yüksək məhsuldarlığa malik olan az əmək tutumlu texnologiya tələb edir.

c) üçüncüsü, ölkədə sənaye riskinin və kreditinin hər hansı sığorta sisteminin olmamasıdır. Bu, xüsusilə kiçik və orta müəssisələr üçün daha vacibdir. Belə ki, onların investisiya xarakterli işləri daha çoxdur, maliyyə imkanları isə aşağıdır.

ç) dördüncüsü, bazar iqtisadiyyatı şəraitində işgüzarlıq biliyinə və bacarığına malik mütəxəssislərin olmamasıdır.

Məlumdur ki, kiçik və orta müəssisələrə kredit almaq bir o qədər də asan olmur. Borcun ödənilməsi imkanını olması haqqında təminat verilməlidir. Hətta onu almaq mümkün olarsa belə, iri müəssisəyə nisbətən bu kredit baha verilir. Yaponiyada kiçik müəssisələrə verilən kredit iri müəssisələrə verilən kreditdən 1% yüksək olur. Burada biznesin maliyyələşdirilməsi üçün olan büdcə vəsaitinin xeyli hissəsi dövlət investisiya və istiqraz proqramının tərkibində xüsusi büdcə hesabına daxil olur. Proqramın gəliri – poçt əmanət kassaları, insan həyatının sığortasının poçt fondu, təqaüd fondu, təyinatlı dövlət istiqrazlarının buraxılışı hesabına formalaşır .

Kredit təminatının cavabdehliyini öz üzərinə götürən xüsusi assosiasiya yaradılır ki, bunlar da kommersiya əsasında fəaliyyət göstərən ictimai təşkilatlardır. Təminat verməyə görə, assosiasiya ssuda məbləğinin bir faizini alır. Bu vəsait və həmçinin üzv yazılmağa görə kiçik biznes tərəfindən verilən üzvlük haqqı hesabına onlar öz sığorta fondlarını yaradırlar. Eyni zamanda zəmanət məbləğinin 70-80 %-i kiçik biznes kreditinin sığortası şirkəti tərəfindən sığorta edilir. Buraya yönəldilən vəsaitin yaradılmasında büdcədən də istifadə edilir. Müəssisə öz borcunu ödəyə bilmədikdə, kredit tam həcmdə zəmanət verən tərəfindən ödənilir. Zəmanət verən isə öz növbəsində ödənilən məbləği müəssisədən tələb etmək şərtilə zəmanət məbləğini müvafiq təşkilatlardan alır. Kredit zəmanəti assosiasiyaların fonduna daxil olan vəsait yerli hakimiyyət təşkilatlarına da bildirilir ki, onlar da həmçinin bu təşkilatların işlərinə nəzarət edə bilsin.

Kredit faizinin yüksəldilməsi müəssisələri öz istehsal xərclərini aşağı salmağa vadar edir və kreditin müəyyən hissəsi kiçik müəssisələrə qoyulan vergilərin azaldılması yolu ilə müvazinətləşdirilir.

Biznes üçün qoyulan vergilər, şirkətlərin vergilərinin 1/3 – i qədər müəyyən edilir. İllik gəliri 8 milyondan aşağı olan kiçik və orta müəssisələr üçün bu, 30%, digərləri üçün isə 12% təşkil edir. Vergilər müəyyən edilərkən gəlirin məbləğinin nəzərə alınması, hər şeydən əvvəl, istehsalda inhisar əleyhinə vasitə kimi istifadə edilir. Gəlir güzəştləri fəaliyyət növlərini və istiqamətlərini həvəsləndirmək məqsədilə yerinə yetirilir. Assosiasiyanın ehtiyat fondlarının yaradılmasına yönəldilən vəsaitdən vergi güzəştləri edilir. Vergi güzəştlərinin məbləği mütərəqqi avadanlıqların müəyyən hissələrinin dəyərini ödəməyə verilir və amortizasiyanın sürətləndirilməsi tətbiq edilir. Xırda və orta müəssisələr vergi güzəştlərindən yerli vergilərin ödənilməsi zamanı istifadə edirlər.

Kiçik biznes çox müxtəlif tərkibli iqtisadi mühitdir. Kiçik biznes sənaye cəhətdən inkişaf etmiş ölkələrin iqtisadi və sosial həyatında çox mühüm rol oynayır, onların payına ÜMM-nin 70%-i düşür. Kiçik firmaların əsas çoxluğunu 20-dən çox insanın işlədiyi firmalar, 80%-ini isə 10 nəfərdən çox insanın işlədiyi firmalar təşkil edir. Ticarət və xidmət sferasında kiçik biznesin sürətli inkişafı hər şeydən əvvəl onun ilkin kapital tutumunun az olması ilə əlaqədardır. Belə ki, kiçik mağaza açmağı qərara alan sahibkar üçün bir neçə min dollar start kapitalı kifayət edəcəkdir və xüsusi peşə hazırlığı tələb olunmur [3, səh.81].

İnnovasiyalar sferasında kiçik biznesin rolunu qiymətləndirmək çətindir. Resursların məhdudluğuna baxmayaraq ETT-nin bir çox nailiyyətlərinin həyata keçirilməsində innovasiya firmaları böyük rol oynayır. Məsələn, ABŞ-da son bir neçə ildə bütün sənaye nailiyyətlərinin 50%-ə qədəri kiçik firmaların üzərinə düşür. Kəskin əmtəə rəqabəti şəraitində, çeşidin yenilənməsi sürəti həlledici amil olan zaman kiçik müəssisələr xeyli mobillik və çeviklik nümayiş etdirir. Onların üstünlüyü, bir qayda olaraq, yeniliyin tətbiqinin başlanğıc mərhələsidir, istehsalın inkişafının daha çox kapital tutumlu mərhələsi isə böyük firmaların üzərinə düşür.

Ədəbiyyat siyahısı

1. İmanov Ə. Ş. Kiçik sahibkarlıq. Bakı, Elm, 2009, - 368 s.

2. Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1996.

3. Abbasov A.B. və başqaları. Biznesin təşkili və idarə edilməsi. Bakı, İqtisad Universitetinin Nəşriyyatı, 2011, -464 s.

КАСПИЙСКИЙ РЕГИОН КАК ФЛАГМАН РАЗВИТИЯ ОФШОРНОЙ ЭНЕРГЕТИКИ

Хлюпин П.А., Хабибуллин Т.Р.

ФГБОУ ВО «Уфимский государственный нефтяной технический университет»,

Актуальность тематики связана с большим потреблением электроэнергии Каспийских регионов, их электростанции не могут в полном объеме обеспечить электро-потребителей. По оперативным данным Филиала АО «СО ЕЭС» «Региональное диспетчерское управление энергосистемы Астраханской области» (Астраханское РДУ), за двенадцать месяцев 2017 года сальдо-переток электроэнергии в Астраханскую энергосистему составил +255,8 млн.кВт•ч[1]. Большое потребление связанно с активным использованием систем охлаждения в продолжительный летний период.

Так большой вклад в потребление электрической энергии вносят предприятия нефтегазового комплекса. Компанией Лукойл были введены в эксплуатацию две добывающие платформы на морском шельфе Каспийского моря, на месторождениях им. В. Филановского, им. Ю.Корчагина. Появление данных объектов привело к увеличению потребления энергоресурсов. А дальнейшее освоение Каспийского шельфа лишь усугубит кризис на энергетическом рынке Каспия.

Для решения проблемы Каспийского региона в обеспечении электроэнергией, как промышленные предприятия, так и обычных потребителей, без вреда экосистемы Каспийского региона, предлагается строительство электростанции на возобновляемых источникахэнергии: ветер, солнце, энергия моря. Применение данных источников генерации позволит вырабатывать экологически чистую энергию и обеспечивать объекты шельфовых месторождений, а также населенный пункты и производственные объекты в близи береговой линии. Использование электроэнергии ВИЭ на буровых платформах позволит отказаться от генерации энергии собственными силами посредством сжигания топлива, что значительно снизит выбросы в атмосферу акватория. Это позволит также высвободить свободные зоны на самой платформе, при демонтаже части дизель-генераторов и приспособить их под полезную нагрузку.

В результате анализа существующих данный по ветровой, солнечной и волновой активности (рисунки 1, 2), а также благодаря малой глубине шельфа, диапазон которых в зоне нефтяных платформ составляет от 5 – 9 метров,был разработан и предложен энергогенерирующий комплекс для прибрежных районов и объектов шельфа [2, 3].



Рисунок 1. Среднегодовая скорость ветра в Каспийском регионе

Мощным ресурсом Каспийского моря по праву может считаться энергия морских волн, которые не утихают и в отдельные периоды времени эквивалент мощности может достигать 75 кВт/м[4]. Если добавить систему ветрогенераторами и солнечными генераторами, то суммарная мощность одной установки может достигать более 2 МВт.



Рисунок 2 – Солнечная активность в Каспийском регионе

Появление комплексов электрогенерации на основе возобновляемых источников энергии позволит развить освоение шельфа Каспийского моря, и снизить себестоимость добываемых углеводородов. Комплексы позволят снизить энергозависимость от соседних регионов, что будет способствовать развитию промышленного сектора. Привлечение инвестиций, а также создание одной из цепочек логистики в прикаспийском регионе, так как это будет весьма оправдано.Способствует развитию промышленного сектора региона и появлению новых рабочих мест. Развитие сервисной системы, так как возрастет необходимость в обслуживание и мониторинге подобных комплексов. Появление новых специальностей в университетах региона, а также программ по переподготовке и повышению квалификации для работы на новых предприятиях.

Надо отметить, что рынок морских генераторов практически отсутствует и представляет собой широчайшее поле деятельности для освоения и реализации.

Появление источников возобновляемой энергии на шельфе Каспия позволит развивать нефтегазовую отрасль шельфа и будет способствовать разработке и исследования систем подводных насосных станций при перекачке углеводородов. Позволит эффективно разрабатывать месторождения на удалении более 100 км от береговой линии.

Снижение выбросов в атмосферу в результате перехода от дизельных электростанций к ветро-солнце-волновым генераторам в акватории моря. Со временем возможен отказ от существующих ТЭЦ в прибрежной зоне и переход потребителей не возобновляемые источники. Что способствует улучшению климата и снижению выбросов в атмосферу в прибрежном регионе, так как города являются основным источников выбросов CO_2.

С точки зрения морских обитателей существуют три значительных стадии энергогенерации в море: строительство, работа и разборка. Строительство и разборка могут явиться причиной наибольшего вреда, что необходимо учитывать при реализации данного проекта и как можно бережней подойти к процессам. Процесс строительства ориентировочно занимает 6 месяцев, а срок эксплуатации более 20 лет [5].

Многие экологические группы считают, что энергогенерирующие системы на морском шельфе обеспечивают благоприятное прибежище для нереста рыб, а также место, где рыбы могут укрыться от интенсивного рыболовства.Не существует доказательств из опыта, которые подтверждали бы, чтоэнергогенерирующие постройки на шельфе имеют негативное влияние на прибрежные процессы.

Появление офшорных установок генерации на шельфе Российской Федерации позволит соседним государствам перенять технологию и установить аналогичные установки на своих шельфах Каспийского моря.

Список литературы

1. Потребление электроэнергии в Астраханской области в 2017 году снизилось на 0,6% [электронный ресурс]. – Режим доступа: https://www.eprussia.ru/news/base/2018/5676905.htm (дата обращения: 02.02.2018).

2. География России [Электронный ресурс]. – Режим доступа: https://geographyofrussia.com/wp-content/uploads/2015/01/172_1.jpg(дата обращения: 08.02.2018).
3. Количество энергии, падающее ежегодно всего 1 м^2 поверхности земли, эквивалентно энергии, получаемой при сжигании от 100 до 230 л топлива [Электронный ресурс]. – Режим доступа: http://kovchegnsk.ru/wp-content/uploads/2013/02/%D0%BA%D0%B0%D1%80%D1%82%D0%B0-%D1%82%D0%B5%D0%BF%D0%BB%D0%B0.jpg (дата обращения: 08.02.2018).
4. Найден простой способ получения электроэнергии буквально из воды [Электронный ресурс]. URL: https://novate.ru/blogs/060217/39969/
5. Говорушко С.М. Воздействие ветровых электростанций на окружающую среду [Электронный ресурс] // Альтернативная энергетика и экология, 2011. – №4(96). – Режим доступа:http://naukarus.com/vozdeystvie-vetrovyh-elektrostantsiy-na-okruzhayuschuyu-sredu (дата обращения: 07.02.2018).

ORGANIZATION OF THE SYSTEM OF ENERGY MANAGEMENT AT ENTERPRISE

Khudaverdiyeva E.M., Turabova G. S.
Ganja State University
elnura_israfilova@mail.ru

Energy management includes the organization of the optimal functioning and development of the energy part of any production. In turn, this is the systematic conduct of an energy audit of the main and auxiliary production, the development of specific recommendations and measures to save energy, the responsibility for implementing energy conservation policies at the enterprise, studying the achievements in the field of energy-saving technologies, developing programs for their implementation in production, evaluation of the achieved results. In addition to the above activities, the energy manager is developing a coherent system to stimulate energy conservation and increase the energy efficiency of production; is responsible for the planning and implementation of energy projects, the responsibility for the procurement and implementation of energy-efficient equipment.

Energy management also includes rationing of energy resources consumption; development of standards for rational fuel consumption *, rational heating, cooling, heat transfer, prevention of heat losses, use of secondary energy resources, reduced: energy losses in networks, etc.

Energy management is, firstly, not a one-time event, but a constant, painstaking multi-year (the payback of energy-saving programs is not as fast as in purely commercial projects) work on the preparation of some programs, the implementation and development of others.

Since large projects fall into a number of smaller and more specific ones, the second level of responsibilities of an energy manager is the coordination of the interests of their own production with the capabilities of partners offering energy saving measures.

Interaction with regional authorities, public organizations, departments for energy supervision is the third level of activity of the energy manager.

The fourth level is a clear knowledge of regulatory legal acts, standards, requirements, guidance documents are the field of energy conservation and efficient energy consumption.

Finally, the fifth level of activity of the energy manager is the continuous improvement of one's own qualification, the constant study of the best domestic and foreign experience in implementing energy-saving measures.

Sometimes energy management is one of the tasks of general management and is extended to the following stages: 1) design; 2) construction; 3) exploitation of industrial enterprises.

The first two have a limited area of impact due to the small number of enterprises under construction in comparison with existing ones and the effect in the long term.

The main objective of the design is to focus on efficient technologies, use of affordable energy resources and the balance of inter-technological energy cycles.

The construction, installation, adjustment of equipment require compliance with the standards with access to the nominal operating modes.

Management of energy use in operational conditions is more difficult, as it affects enterprises having different base times, equipment and operation conditions. The components of the energy management process are as follows.

1. Organizational bases:

1) combining the efforts of technological, energy and planning and financial services;

2) the introduction of a mechanism for effective economic stimulation of the activities of all interested

services (the receipt and distribution of the economic benefits of energy conservation).

2. Initial data in the task of managing energy use. We need correct characteristics of the process, we need devices and systems for recording and controlling traffic (arrival, consumption, transformation) of energy resources and energy carriers. The initial information on energy saving parameters is used to monitor the current mode, for reporting, for commercial calculations, and for analyzing the level of energy efficiency.

3. The main directions of increasing the efficiency of energy use.

